Xalqın qəzeti!

# Xalq qəzeti

№ 78 (30482) 19 aprel 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Sülhün “Rusiyasız” məramı



### Cənubi Qafqaz, Azərbaycan amili və Ermənistan

**Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatına əsasən, Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş rus sülhməramlılarının bölgəni tərk etmələri nəinki ölkəmizin, eləcə də bütövlükdə, Cənubi Qafqaz regionunun gündəmindədir. Mövcud istiqamətdə müxtəlif fikirlər səsləndirilir, mülahizə və rəylər söylənir. Əlbəttə, ilk növbədə, vurğulanmalı bir məqam var: Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxarılması qərarı Azərbaycan və Rusiyanın münasibətlərindəki qarşılıqlı inam və etibarın göstəricisidir.**

Hazırda dünya Rusiyaya qarşıdır. Belə yanaşma heç də rus siyasi-diplomatik və hərbi düşüncə tərzini geri addım atmağa məcbur etmir. Çünki Kreml üçün çəkilmək yeri, sadəcə yoxdur. 1998-ci ildən bəri Rusiya bütün qlobal güclərə, sadə dildə desək, ona doğru yaxın gəlməmək, Moskvanın maraq və mənafelərini heçə saymamaq çağırışını səsləndirir. Əhəmiyyət verilirmi? Yaxud əhəmiyyət verildimi? Xeyr. Hazırda davam edən Rusiya – Ukrayna müharibəsi prinsip etibarilə bunun nəticəsidir.

**(ardı 3-cü səhifədə)**



## Vaşinqton rus hərbçilərinin Qarabağı tərk etməsindən niyə narahatdır?



Səhifə ⇨ 4

## Fransa riyakarlığı və məhvə sürüklənən Ermənistan



Səhifə ⇨ 3

## Brüssel görüşü: gizlinlər üzə çıxır



Səhifə ⇨ 6

## Planetimiz siyasi və hərbi qarşıdurmalar burulğanında



Səhifə ⇨ 11

## Xəzərin süni adaları cənnəti xatırladacaq...



Səhifə ⇨ 8

## Böyük Qayıdışın daha bir qaranquşu – Kərkicahan



Səhifə ⇨ 6

## “Xaçlı kəşfiyyatçılar”ın Hayastan macəraları...

### Cənubi Qafqaza bayraq sancmaq istəyənləri nə gözləyir?

**Əgər Avropa İttifaqının Ermənistanda yerləşdirdiyi qrup mülki missiyadırsa, onda nəyə görə onun tərkibində jandarmlar, hərbçilər və xüsusi xidmətin keçmiş və çox güman ki, indiki əməkdaşları yer almışdır? Aİ-nin şübhəli tərkibli missiyasının şərti sərhəddəki fəaliyyəti ilk gündən rəsmi Bakı tərəfindən etirazla qarşılanıb. Bir çox ekspertlərin qənaətinə görə, bu missiya casus və kəşfiyyatçılar dəstəsindən ibarətdir. Yeri gəlmişkən, bu məzmunda etirazını Moskva da rəsmi formada dilə gətirib.**



Sıraları genişlənməkdə olan məlum missiya Ermənistan rəsmiləri ilə münasibətləri yoluna qoyandan sonra hayların dini liderinin də “xeyir–duasını” almaq qərarına gəlib. Bu məqsədlə aprelin 16-da bütün ermənilərin katolikosu II Qaregin Eçmiədzindəki sarayında Aİ-nin Ermənistandakı mülki müşahidə missiyasının rəhbəri Markus Ritteri qəbul edib. Bu barədə məlumat yayan “Armenpress” Eçmiədzinin mətbuat xidmətinə istinadla bildirir ki, bütün ermənilərin katolikosu II Qaregin Markus Ritterin hayların dini–mənəvi mərkəzinə səfərini alqışlayıb. Qeyd edib ki, bu görüş qonağa “Azərbaycanla yaxından tanış olmaq üçün yaxşı fürsət” verəcək. Aİ müşahidə missiyasının fəaliyyətindən danışan alman polkovniki Ritter başçılıq etdiyi “qeyri-hərbi, qeyri-icraçı missiyanın məqsədinin şərti sərhəd zolağında təhlükəsizlik vəziyyətini müşahidə etmək və bu barədə Aİ-yə hesabat verməkdən ibarət olduğunu” söyləyib.

***

Katolikos bölgədəki mövcud gərginlikdən, sərhədyanı yaşayış məntəqələrində yaşayan erməni sakinlərin təhlükəsizliyindən (?) narahatlığını dilə gəririb, “Azərbaycanın “təcavüzkar tələbləri”nin Ermənistan üçün yeni təhlükəsizlik çağırışları yaratdığını, həmçinin sülh danışıqları prosesini təhlükə altına atdığını” vurğulayıb. Aİ-nin Ermənistandakı mülki missiyasının rəhbəri, səfir statuslu Markus Ritter bütün ermənilərin katolikosu II Qaregini “əmin edib” ki, onlar sərhəddəki gərginliyin azaldılması və sabitliyin bərqərar olması üçün əllərindən gələni edəcəklər. Bu məlumatı da Eçmiədzin ofisi Ritterin ermənilərin ruhani lideri ilə görüşündən sonra açıqlayıb.

Markus Ritterin II Qareginə verdiyi vədə əməl edəcəyinə şübhəmiz yoxdur. Axı, Cənubi Qafqaza öz bayraqlarını sancmağa yer axtaran “mülki” kəşfiyyatçıların cərgəsinə kanadalı ekspert Aleksandr Qruşevski də qoşulub. Yeri gəlmişkən, Kanada bu missiyada yer alan ilk qeyri-Avropa ölkəsidir. Bu ölkə Azərbaycan özünün ərazi bütövlüyü üzərində suverenliyini tam təmin etdikdən sonra aşkar formada Ermənistanı dəstəkləməyə başlayan Qərb dövlətləri sırasında yer alır.

Siyasi-dini görüşdə II Qaregin mövcud çətin vəziyyətdə “dost ölkələrin və beynəlxalq strukturların dəstəyi ilə bölgədə sülhün və sabitliyin bərpası üçün göstərilən bütün səyləri” yüksək qiymətləndirdiyini ərz edib. Öz növbəsində, Aİ-nin müşahidə missiyasının rəhbəri katolikosa missiyanın fəaliyyəti və sərhəddəki mövcud vəziyyət barədə məlumat verib və onu bir daha əmin edib ki, sərhəddəki gərginliyin azaldılması və Ermənistanın sərhədyanı rayonlarında sabitliyin bərqərar olması üçün əlindən gələni edəcək. Bundan ötrü Markusun “binokllu diplomat-kəşfiyyatçıları” ilə daha hansı “yürüşlərə” çıxacağını, sərhəd “macəralarına” imza atacağını görəcəyik.

**(ardı 5-ci səhifədə)**

## İnvestisiyaya “açıq qapı” genişlənir



Səhifə ⇨ 7

**XQ-yə cavab verirlər**

## Məktub dərc olunmasa da...



Səhifə ⇨ 8

# Yeni Kaledoniya heyəti Milli Məclisdə

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naisselinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Spiker Fransanın Cənubi Qafqaz regionunda sabitliyi pozmağa yönəlmiş siyasətini tənqid edib. O deyib ki, Fransa tarixində qara ləkə olan kolonializmi yalnız keçmiş müstəmləkələrində, zor gücünə öz hakimiyyəti altında saxladığı ərazilərdə deyil, həm də digər regionlarda, həmçinin Cənubi Qafqaz regionunda davam etdirmək niyyətindədir. S.Qafarova Fransanın bu gün Azərbaycana qarşı bütün müstəvilərdə hücuma keçdiyini, beynəlxalq platformalarda mümkün vasitələrdən istifadə edərək, ölkəmizə qarşı qarayaxma kampaniyası apardığını təəssüflə diqqətə çatdırıb.

Görüş zamanı vurğulanıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, Azərbaycan müstəqil və güclü ölkədir. Heç kim bizə təzyiq göstərə bilməz. Ölkəmizin siyasəti yalnız sülhün, əməkdaşlığın təşviqinə, ədalətsizliyə qarşı mübarizəyə yönəlib.

Sahibə Qafarova deyib ki, Azərbaycan parlamentinin üzvləri Fransanın ikiüzlü siyasətini qətiyyətlə pisləyir və onun neokolonializm siyasətinin ifşası istiqamətində səylər göstərir.

Yeni Kaledoniya nümayəndə heyətinin rəhbəri ölkəsinin üzləşdiyi iqlim dəyişikliklərindən yaranan çağırışlar barədə də danışaraq, Azərbaycanın evsahibliyi ilə keçiriləcək COP29-un dünyada bu istiqamətdə mövcud olan problemlərin həllinə töhfə verəcəyinə inamını ifadə edib.

***

**Həmin gün Azərbaycan Respublikasının Milli Məclisi ilə Yeni Kaledoniya Konqresi arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb. Mərasimdə spiker Sahibə Qafarova deyib ki, bu sənəd parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün hüquqi bazanın formalaşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir və əməkdaşlığımızın çərçivəsini müəyyən edəcək.**

Memorandumda Azərbaycan və Yeni Kaledoniya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi naminə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi niyyəti ifadə olunub. Bu məqsədlə qanunvericilik orqanlarımızın komissiyaları və komitələri arasında daimi əlaqələrin yaradılmasına kömək göstərilməsi, həmçinin parlament və beynəlxalq fəaliyyət təcrübələrinin öyrənilməsi, bölüşülməsi məqsədilə parlament üzvlərindən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkili nəzərdə tutulub.

***

**Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Omayra Naisselinin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 18-də Bakı Təşəbbüs Qrupunun ofisində olub.**

Qonaqları ölkəmizdə görməkdən məmununluğunu ifadə edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov nümayəndə heyətini qrupun fəaliyyət istiqamətləri, məqsədləri və gələcək planları barədə məlumatlandırıb.

Söhbət zamanı Yeni kaledoniyalı parlamentarilər iki ölkənin nümayəndələri arasında fikir mübadiləsinin genişləndirilməsi üçün yaratdığı şəraitə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını bildiriblər.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Azərbaycan tezliklə AŞPA-da layiqli yerinə qayıdacaq

**Məndən xahiş olunub ki, Azərbaycanla bağlı həll yolu tapmaq üçün Nazirlər Komitəsinin nə edəcəyi barədə ətraflı məlumat verim. Bir daha vurğulamaq istərdim ki, əsas məqsədimiz ümumi ideyalarımızı qorumaq və təbliğ etmək üçün birliyi gücləndirməkdir. Xüsusilə də Avropa Şurasının 75 illik yubileyi üçün simvolik olaraq vurğulayaq ki, şura Avropada insan hüquqlarının üstünlüyünü, demokratiyanı və hüquqi dövləti təşviq etmək üçün 46 üzv dövlətin hökumətləri və parlamentləri arasında çoxtərəfli əməkdaşlıq üçün unikal platforma təklif edir.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri qurumun Nazirlər Komitənin sədri, Lixtenşteynin xarici işlər, təhsil və idman naziri Dominik Hasler Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yaz sessiyasında çıxışında deyib.

Bildirib ki, Azərbaycan 2001-ci ildə üzv olduqdan sonra demokratik keçid prosesində Avropa Şurasının dəstəyindən yararlanıb. Həmçinin Avropa Şurası da Azərbaycanın dəyərlərinin təbliğinə və təsirinin artırılmasına verdiyi töhfədən bəhrələnib. Bu, zaman baxımından məhdud olmayan və şübhəsiz ki, yarımçıq qalan qarşılıqlı faydalı əməkdaşlıqdır.

Azərbaycanın quruma verdiyi töhfələri, nümayəndə heyətinin təşkilatdakı layiqli yerinə tezliklə qayıtmasına ümidvarlığını vurğulayan Dominik Hasler qeyd edib: "Düşünürəm ki, bir-birimizə ehtiyacımız var. Ümid edirəm, Azərbaycan nümayəndə heyəti tezliklə Parlament Assambleyasında öz layiqli yerinə qayıdacaq ki, bizi birləşdirən dəyərlərin qorunması naminə əməkdaşlıq və dialoq davam etsin. Mən Avropa Şurasının 75 il ərzində gördüyü nəhəng işi davam etdirmək imkanı vermək üçün ən məqbul həll yollarını təşviq etməyə hazıram və Parlament Assambleyasına, Nazirlər Komitəsinə, Baş katibə üçtərəfli görüş zamanı gözəl əməkdaşlığa görə bir daha təşəkkür etmək istəyirəm".

# MDB PA-nın model qanun müzakirəsi

**Aprelin 18-də MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.**

MDB PA-nın Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının sədri Nizami Səfərovun sədrlik etdiyi onlayn iclasda parlamentarilər VIII Sankt-Peterburq Beynəlxalq Əmək Forumunun yekunları, pandemiya dövründə miqrasiya proseslərinin qanunvericiliklə tənzimlənməsinə dair tövsiyələrin layihəsi və gündəliyin digər məsələləri ətrafında müzakirələr aparıblar. Həmçinin MDB ölkələrində model qanun yaradıcılığının 2023-2025-ci illər üzrə perspektiv planına təkliflər nəzərdən keçirilib.

Tədbirin sonunda komissiyanın növbəti iclasının gündəliyi və tarixi müəyyənləşdirilib.

***XQ***

# Afrika ölkəsinin müstəqilliyinə elmi dəstək



**Aprelin 18-də Milli Məclisdə "Yeni Kaledoniya: tarix, müasir çağırışlar və gözlənilən gələcək" mövzusuna həsr edilmiş elmi konfrans keçirilib.**

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc konfransda aparılacaq müzakirələrin əhəmiyyətindən söz açıb. Son illər ölkəmizin müasir müstəmləkəçilik əleyhinə hərəkatın önündə getdiyini təqdirlə vurğulayan komitə sədri Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsindən sonra Fransanın ölkəmizə qarşı aşkar ədalətsiz mövqe tutmasının onun müxtəlif diplomatik-siyasi pərdələrlə örtülən çirkin imperialist siyasətini ifşa etdiyini bildirib. Ölkəmiz əleyhinə kampaniya aparan rəsmi Parisin Cənubi Qafqazda hər bir vəchlə yerləşmək cəhdləri, Ermənistandan alət kimi faydalanmaq planı onun müstəmləkə siyasətinin mahiyyətindən irəli gəlir.

Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri, Kənd Təsərrüfatı Agentliyinin sədri Omayra Naisselin hazırda Yeni Kaledoniya adasını öz müstəmləkəsi kimi idarə edən Fransanın yerli kanak xalqına qarşı yürütdüyü imperialist siyasətindən, hüquqlarının pozulmasından söz açıb, onların azadlıq mübarizəsindən və bu mübarizədə üzləşdiyi çətinliklərdən bəhs edib. O bildirib ki, Fransa Yeni Kaledoniya xalqının öz müqəddəratını özünün təyin etməsi və müstəqil olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə əməl etmir, konstitusiyaya, seçki qanunvericiliyinə müdaxilə edərək yerli xalqın hüquqlarını məhdudlaşdırmağa çalışır.

Omayra Naisselin Yeni Kaledoniyanın apardığı azadlıq mübarizəsinə verdiyi dəstəyə görə Azərbaycana minnətdarlığını bildirib. O deyib ki, parlamentlərimiz arasında bağlanan əməkdaşlıq memorandumu Yeni Kaledoniyaya bir çox sahələrdə yeni qapılar açacaq.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanın Qarabağ Zəfərinin müasir dünyaya xalqların rifahının və hüquqlarının təmin edilməsinin daha bir nümunəsini göstərdiyini bildirib. Vurğulayıb ki, Fransanın Azərbaycana qarşı ədalətsiz mövqeyi, öz imperialist siyasəti ilə Yeni Kaledoniya kimi dövlətləri əsarətdə saxlaması demokratiya prinsiplərinə və insan hüquqlarının aliliyinə ziddir.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov isə Azərbaycanın beynəlxalq arenada dekolonizasiya prosesini təşviq etməsindən, müstəmləkəçilikdən əziyyət çəkən xalqların haqlı mübarizəsini dəstəkləməsindən danışıb, qrupun fəaliyyəti, kolonializmlə mübarizə istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib.

Digər çıxış edənlər Fransanın yeni müstəmləkəçilik siyasəti, xalqları əsarətdə saxlaması, onların təbii sərvətlərini talan etməsi və digər məsələlər barədə fikirlərini bildiriblər.

Yeni Kaledoniya parlament nümayəndə heyətinin üzvləri Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi onların ədalət və azadlıq uğrunda apardıqları haqlı mübarizədə göstərdiyi ardıcıl dəstəyə və konfransın ölkəmizdə təşkilinə görə minnətdarlıqlarını ifadə ediblər.

***XQ***

# Azərbaycan ictimai fəallarının Norveç Nobel Komitəsinə xəbərdarlığı

## *Ruben Vardanyanın çirkli bioqrafiyası Nobel Sülh Mükafatının məramına ləkədir*

**Azərbaycanın 39 qeyri-hökumət təşkilatını, Qarabağ və Şərqi Zəngəzurun məcburi köçkünlərini təmsil edən bir qrup ictimai fəal beynəlxalq maliyyə fırıldaqçısı, separatçı Xankəndi xuntasının cinayətkar rəhbərlərindən olmuş Ruben Vardanyanın Nobel Sülh Mükafatına namizəd kimi irəli sürülməsi ilə bağlı Norveç Nobel Komitəsinə açıq məktub ünvanlayıblar.**

Müraciətdə Ruben Vardanyanın Nobel Sülh Mükafatına namizəd kimi irəli sürülməsi barədə mediada yayılmış xəbərlər hiddətlə qarşılanır, bu barədə Azərbaycan ictimaiyyətinin qəti mövqeyi beynəlxalq qurumun diqqətinə çatdırılır: "Ruben Vardanyanın həyat və fəaliyyəti Nobel Sülh Mükafatının rəhbər tutduğu ideal və dəyərlərə təhqir səciyyəsi daşıyır, bu adların yanaşı çəkilməsinin özü belə bu ali mükafatın dünyada qəbul edilmiş yüksək nüfuzuna ləkə gətirə, beynəlxalq ictimaiyyəti çaşdıra bilər".

Məktubda qeyd edilir ki, çirkli pulların yuyulması ilə sərvət toplamış kriminal ünsür, terrorçuluğu maliyyələşdirən sima kimi Ruben Vardanyan barədə ağır ittihamlar var: "O, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış və sonradan özünü buraxmış qondarma separatçı rejimin – hərbi xuntanın bir müddət aparıcı rəhbər şəxslərindən biri olub. Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin terrorçuluğu maliyyələşdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak, Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə maddələri ilə ittiham olunur".

Müraciətin sonunda deyilir ki, Nobel Sülh Mükafatı özündə Alfred Nobelin təşviq etmək istədiyi sülh, barışıq və beynəlxalq əməkdaşlıq ruhunu təcəssüm etdirir: "Biz Norveç Nobel Komitəsini çoxsaylı cinayətlərdə ittiham olunan Ruben Vardanyanla əlaqədar məsələyə yanaşmada Azərbaycan ictimaiyyətinin bu şəxs barədə aydın və qəti mövqeyini nəzərə almağa çağırırıq".

***XQ***

# "Fransa xalqların azadlıq mübarizəsini boğur"

**Aprelin 18-də ölkəmizdə səfərdə olan Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Omayra Naisselin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin yekunlarına dair Milli Məclisdə mətbuat konfransı keçirilib.**



Nümayəndə heyətinin rəhbəri onun ölkəsinin azadlıq mübarizəsinə verilən dəstəyə görə Azərbaycan Hökumətinə, Qoşulmama Hərəkatına və Bakı Təşəbbüs Qrupuna təşəkkürünü bildirib. Qonaq diqqətə çatdırıb ki, bu gün Milli Məclis ilə Yeni Kaledoniya Konqresi arasında imzalanmış Əməkdaşlıq haqqında Memorandum daha səmərəli əməkdaşlığa öz töhfəsini verəcək.

Mətbuat konfransında jurnalistlərin suallarını cavablandıran Omayra Naisselin Yeni Kaledoniyanın müstəqillik uğrunda mübarizəsi, bu ölkənin BMT ilə əməkdaşlığı, 1980-ci illərdən müstəmləkədən azad edilməli dövlətlər siyahısına salınmasına baxmayaraq, öz müqəddəratını təyinetmə məqsədilə keçirilmiş referendumlara Fransanın müdaxilə edərək nəticələri saxtalaşdırması, bu ölkənin öz müstəmləkəsi hesab etdiyi xalqların azadlıq mübarizəsini boğması və bu məqsədlə qanunvericiliyə dəyişikliklər etməyə çalışması, imzalanmış sazişlərə baxmayaraq, Fransanın öz öhdəliklərini yerinə yetirməməsi barədə fikirlərini açıqlayıb. O bildirib ki, keçirilmiş referendumun nəticələrinə üçüncü baxışın düzgün aparılmaması ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət olunub. Çünki bu, Kaledoniya xalqı üçün mühüm əhəmiyyət daşıyır.

***XQ***

**Son saatda**

# Türkiyədə zəlzələ: dağıntı və xəsarət var



**Türkiyənin Tokat vilayətində baş verən 5,6 bal gücündə zəlzələ nəticəsində bir sıra binalara ciddi ziyan dəyib.**

Bu barədə yerli mediaya Türkiyənin səhiyyə naziri Fahrettin Koca bildirib.

Tokatda bir ev və iki məscidin minarələri dağılıb. Bundan başqa, zəlzələnin təsiri ilə Yozgat şəhərində 3 ev ciddi zərər çəkib.

Hadisə yerində xilasedicilər və təcili tibbi yardım briqadaları işləyir.

***XQ***

# Sülhün "Rusiyasız" məramı

## Cənubi Qafqaz, Azərbaycan amili və Ermənistan

(əvvəli 1-ci səhifədə)

Reallıq ondan ibarətdir ki, SSRİ-nin dağılmasından sonra iştahlanan Qərb dünyası Rusiyanı daha çox öz sərhədlərinə doğru sıxışdırmağa, xaricdəki təsir vasitələrindən məhrum duruma salmağa köklənib. Moskvada anlayırlar ki, belə yanaşmanın sonrakı mərhələsi ölkə daxilində başlayacaq. Ona görə də Rusiya siyasəti kimi, ümumən rus ictimai fikri də daim, belə demək mümkünsə, əli tətikdə dayanıb.

***

Keçək Cənubi Qafqaz müstəvisinə. Əlbəttə, region Rusiya üçün həyati əhəmiyyət daşıyır. Hər zaman belə olub. Ancaq əvvəlki illərdən fərqli olaraq, hazırda Kremli bölgədən sıxışdırmaq istəkləri daha ciddi fazaya qədəm qoyub. Ermənistan mövcud istiqamətdə alətə çevrilib. O Ermənistan ki, otuz ilə yaxın müddətdə Kremlin forpostu olub. Ölkə, necə deyərlər, Rusiyanın hesabına nəinki dolanıb, eyni zamanda, özünü güclü hiss edib...

Bu gün İrəvan, faktiki olaraq, nankor qiyafəsindədir. Azərbaycan isə həmişə öz prinsiplərinə sadiq qalıb. Həmin prinsipləri nəzərə almaqla, Rusiya ilə səmimiyyətə əsaslanmış mehriban qonşuluq siyasəti həyata keçirib. Moskvada mövcud durumu yaxşı görürlər. Odur ki, Cənubi Qafqazın mürəkkəb siyasi nöqtəsi sayılan Azərbaycan ərazisində, yəni Qarabağda məhdud sayda rus hərbi mövcudluğuna ehtiyac yoxdur. Çünki ortada Bakı ilə Moskva arasında etimad mühiti var.

***

Bu məqamı ayrıca vurğulayaq: Bəli, Rusiyada Ermənistanın nankor xislətini getdikcə daha çox dərk etməyə başlayıblar. Halbuki, on il əvvəl bu cür ayıq yanaşma yox idi. Belə nəticə hasil olurdu ki, Rusiya siyasi düşüncə sistemi erməni sevgisini reallıqlardan daha üstün tutur. Ona görə də ölkə 44 günlük müharibəyə son qoyaraq, Ermənistanı Azərbaycanın əlində tamamilə məhv olmaqdan qurtaranda və mövcud xüsusdakı proseslərin davamı kimi Qarabağa Rusiya sülhməramlıları yeridiləndə, məsələyə ermənilərin xilası prizmasından yanaşanlar çox oldu. Əlbəttə, belələri qlobal siyasətin oyun qaydalarını unutdular. Yaddan çıxardılar ki, Rusiya üçün də eyni qaydalar var və ölkə onları qoruyur və müəyyən mənada qorumağa məhkumdur. Axı prinsiplərə laqeyd yanaşma qarşılıqlı inamı sarsıdan faktordur. İnamsızlıq isə daha böyük problemlərə yol açır...

Bəli, rus sülhməramlılarına ermənilərin Qarabağ avantürasına dəstək aləti kimi yanaşanlar məhz böyük siyasət prinsiplərinin mövcudluğunu düşünmədilər. Bəziləri ruslara münasibətdəki klassik işğalçı baxışını ortaya qoydu, bəziləri Azərbaycan hakimiyyətini səriştəsizlikdə, onu milli maraq və mənafelərə qarşı çıxmaqda qınadı. Hətta durumu məsxərə predmetinə çevirənlər də tapıldı. Əlahəzrət zaman isə onu göstərdi ki, "nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deyən Prezident İlham Əliyev hadisə və prosesləri düzgün görmək və dəyərləndirmək baxımından böyük strateqdir.

***

Haşiyə çıxaq ki, Prezident İlham Əliyev 26 fevral 2021-ci il tarixində yerli və xarici media nümayəndələri üçün mətbuat konfransında bildirmişdi ki, Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsi müzakirə mövzusu deyil: "Əcnəbi əsgərlərə gəldikdə, onların Azərbaycan ərazisində fəaliyyət göstərməsi müvəqqəti xarakter daşıyır. Bu əsgərlər xüsusi missiya icra edirlər. Bu, hərbi baza anlamına gəlmir. Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti beş il müddətinə nəzərdə tutulur".

Dövlətimizin başçısı həmin mətbuat konfransında onu da bildirmişdi ki, bəzən dünyada, eyni zamanda, Azərbaycanda Rusiya sülhməramlı missiyasının fəaliyyəti ilə bağlı o qədər də dəqiq olmayan fərziyyələr irəli sürülür. "Onların bu gün Azərbaycan ərazisində olması, eyni zamanda, azad edilmiş torpaqlara Azərbaycan əhalisinin qayıtması üçün də müsbət rol oynayacaq. Çünki Ermənistanın diversiya qrupunun azad edilmiş torpaqlara göndərilməsi bunu göstərir. Ona görə onların fəaliyyəti, hesab edirəm ki, müsbətdir. Bu fəaliyyət əminəm ki, belə də davam edəcək. Amma yenə də Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsi müzakirə mövzusu deyil".

***

Bəli, hazırda qətiyyətlə demək mümkündür ki, Rusiya Qarabağdakı sülhməramlılar amilinə özünün Cənubi Qafqazda mövcudiyyət faktorlarından biri olaraq yanaşmır. Vurğuladığımız kimi, Azərbaycan və Rusiya rəhbərlikləri arasında dərin etimad mühiti var. Ancaq rəsmi Moskva sülhməramlı faktoruna həm də ona görə mövcudluq faktoru kimi baxmır ki, bu baxışda məntiq yoxdur. Məntiqsizliyi yaradan isə Ermənistan iqtidarı olub. Hesab edirik ki, vəziyyətin bu şəkilə düşməsinə rus ictimai fikri ciddi şəkildə nəzərə almalıdır.



Nəzərə almalıdır ki, 44 günlük müharibədən ötən üç il yarıma yaxın müddətdə baş nazir Nikol Paşinyan administrasiyası əlinə düşən hər fürsətdə rus sülhməramlılarının fəaliyyətsizliyinə dair görüntü formalaşdırdı və bunu beynəlxalq siyasət alətinə çevirdi. İstədi ki, Rusiya dövləti sülhməramlıların simasında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhələndirən tərəfə çevrilsin. Məqsədinə çata bilməyəndə isə hər cür təxribata əl atdı. Nəticədə ötən ilin sentyabrında Azərbaycan lokal xarakterli antiterror tədbirləri gerçəkləşdirmək və özünün konstitusyon quruluşunu bərpa etmək məcburiyyətində qaldı. Ölkəmiz antiterror tədbirlərinə, həmçinin Ermənistanın sülh prosesindəki çeşidli manipulyasiyalarına, Qarabağda separatçı quruluşun varlığını sürdürmək cəhdlərinə cavab olaraq əl atdı.

***

Həqiqətən, antiterror tədbirlərindən əvvəl Qarabağda sülhməramlılara ehtiyac var idi. Əslində, onların real funksiyaları məhz ötən ilin sentyabrından sonra işə düşməli idi. Yəni, azərbaycanlılarla ermənilərin bir yerdə yaşamaları şəraitində sülhməramlı kontingent ilkin mərhələdə yarana biləcək anlaşılmazlıqları aradan qaldırmalı, xalqlar arasında etimad mühitinin formalaşmasına nail olmalı idi. Lakin qeyd etdiklərimiz reallaşmadı. Antiterror tədbirlərindən sonra isə Qarabağdan kütləvi erməni köçü başladı. Yeri gəlmişkən, 2023-cü ilin sentyabrınadək bölgə Azərbaycan üçün qapalı idi. Gah yolumuzu kəsənlər ortaya çıxırdı, gah da Xankəndidə mitinq keçirənlər ağızlarını köpükləndirib bizimlə birgə yaşamağın mümkünsüzlüyünü dilə gətirirdilər.

Deməli, bu nəticə də hasil olur ki, Qarabağdan Rusiya sülhməramlı kontingentinin çıxmasının səbəbi ermənilərin azərbaycanlılarla sülh şəraitində istəməmələridir. Əslində, rəsmi İrəvanın haqqında söz açdığımız sülhməramlıların fəaliyyətsizliyi ritorikası da buna hesablanmışdı. Baş nazir Nikol Paşinyan iqtidarının bölgədə separatçı quruluşu saxlamaq niyyətləri fonunda Ermənistan hakimiyyətinin Qarabağ erməniləri üçün ayrıca beynəlxalq təminat tələbləri səslənmişdi. Belə bir tələb həm də ölkənin Azərbaycanla sülh gündəliyini Qərbin patronajlığına vermək istəyindən qaynaqlanmışdı.

***

Rus hərbçilərinin fəaliyyətsizliyi tezisini bayraq edən Ermənistan iqtidarı zaman-zaman Rusiya kontingentinin yerini beynəlxalq sülhməramlıların tutması məntiqini də qabardıb. Əslində, bu gün Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində lövbər salmış Avropa İttifaqının mülki müşahidə missiyası da eyni məqsəd üçün əraziyə gətirilib. Nəzərə alaq ki, Aİ və Qərb təsisatları həmin missiyanın sərhədin Azərbaycan tərəfində də fəaliyyət göstərməsini təklif edib, lakin dövlətimiz bununla razılaşmayıb. Ona görə ki, belə bir istək Cənubi Qafqaza regiondan kənar oyunçuların cəlbi məramından qaynaqlanır. Durum Rusiyanın hakim dairələrinə də məlumdur.

Bəli, Rusiya yaxşı dərk edir ki, Azərbaycan regiona kənar qüvvələrin daxil olmasına yol verməyəcək. Bu, yalnız sözdə ifadə edilmiş yanaşma deyil. Prezident İlham Əliyevin ustalığı ondadır ki, mövqeyini əməli ilə təsdiqləyib. Mövcud anlamda ölkəmizin təşəbbüsü ilə formalaşmış "3+3" platformasını vurğulamaq mümkündür. O platformanı ki, orada Ermənistan da təmsil olunur, sadəcə, formal şəkildə, daha çox İrana qarşı çıxmamaq üçün.

Qərbi regiona gətirməyə köklənmiş rəsmi İrəvanın yeritdiyi siyasi xətt ortadadır. Qəribə səslənsə də deyə bilərik ki, Rusiya sülhməramlıları Qarabağı həm də buna görə tərk edirlər. Yəni, Moskvanın kənar oyunçular mövzusu xüsusunda Bakıdan əminliyi var. Ona görə də real fəaliyyət olmayan yerdə əlavə məntiq axtarışına çıxmır. Yaxşı olar ki, İran da Rusiyanın yolu ilə getsin. Məsələn, Qafandakı konsulluğunu bağlasın. Çünki Ermənistan hakimiyyəti üçün bu diplomatik missiya Qərbi bölgəyə gətirmək planında İranı səmimi jestlərlə neytrallaşdırmağa hesablanmış cəhddir. Tehran diplomatiyası İrəvanın vaxt udmaq xəttinin arxasında riyakarlığı duymalıdır. Əks halda, gec olacaq.

***

Əlbəttə, Rusiya sülhməramlılarının Qarabağı tərk etmələrinin siyasi nəticələri barədə çox danışmaq olar. Daha müxtəlif məqamlara toxunmaq da, həmçinin. Ancaq yekunda gözlər önündə bir tablo canlanır. Onun adı sülhməramlılarsız Qarabağ platformasıdır. Nəzərə alaq ki, bu məkan Azərbaycan–Ermənistan münasibətlərinin nizamlanması da daxil olmaqla, bütövlükdə, Cənubi Qafqaz siyasi düzəninin açar nöqtəsidir.

Sonda onu da düşünək ki, Rusiya tarixən regionda müharibə, qarşıdurma və siyasi təbəddülatlar baxımından çıxış nöqtəsi təsiri bağışladığı kimi, istər-istəməz sülhün də faktorudur. Ən azı ona görə ki, özünün formalaşdırdığı və idarə etdiyi erməni amilini cilovlamağı bacarıb. Bu gün, obrazlı bildirsək, erməni amili adlı təxribat atının yüyəni Rusiyanın əlindən çıxıb. Ölkənin sülhməramlılarının Qarabağı tərk etmələrinin bir səbəbi də budur. Belədə daha bir sual yaranır: sülhməramlılarla birgə Cənubi Qafqazdan sülh də getdi, ya necə?

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Fransa riyakarlığı və məhvə sürüklənən Ermənistan

**Bu gün Azərbaycan nəinki regionda, beynəlxalq aləmdə də dünyada gedən proseslərə ədalətli yanaşması, müstəqil xarici siyasəti və dinamik inkişafı ilə seçilir. Regionun davamlı inkişafına öz töhfələrini verir. Ölkəmiz ən böyük layihələrə təşkilatçılıq və ev-sahibliyi edir.**



Təəssüf ki, hazırda nailiyyətlərdən ciddi təşvişə düşən, bu mənzərəni qəbul edə bilməyən məkrli qüvvələr bu nizamı pozmaqda maraqlıdırlar. Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun milli maraqlarını təmin etməsi reallığı fonunda isə Fransanın davranışı təəccüblü görünmür. Tarixi soyqırımları üzərində qurulan Fransa özünü beynəlxalq aləmə "demokratik" ölkə kimi sırımağa çalışsa da, əməlləri ilə hələ də müstəmləkəçilik ideyalarına sadiq qaldığını sübut edir.

Reallıq bundan ibarətdir ki, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, bir milyondan çox insanın faciəsinə səbəb olan, şəhər və kəndlərimizi xarabazara çevirən erməniləri yazıq, əzilən, ac-yalavac, hüquqları pozulan millət kimi dünyaya təqdim etmək, onların tərəfində durmaq Fransanın dövlət siyasətinə, ən ali məqsədinə çevrilmişdir. Bu, əslində, təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, müharibəni alovlandırmaq, Cənubi Qafqazda təhlükəsizliyi sarsıtmaqdır.

Makron yaxşı anlayır ki, Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və havadarlarına cavab verməyə qadirdir və onun təsir göstərə biləcəyi dövlət deyil. Belə olan halda təcavüzkarları qızışdırmağa, Cənubi Qafqazda söz sahibi olmağa cəhd edir. Ermənistana yüz milyonlarla dollar məbləğində silah-sursat verilməklə Cənubi Qafqazı Suriyaya, Ukraynaya çevirmək kimi təhlükəli planını reallaşdırmağa çalışır. Özünü "sülh təşəbbüsçüsü" kimi göstərən Fransa prezidenti Makron regionda Ermənistanı sürətli silahlandırmaqla onu yeni müharibəyə sövq edir. Bölgəyə silah-sursat göndərən rəsmi Paris yeni münaqişələr üçün zəmin yaradır. Bununla da əsrlərlə etdiyi vəhşilikləri unutdurmağa çalışır. Onu da unudur ki, heç kim və heç nə yaddan çıxmır və unudulmur. Tarix öz sözünü deyir.

XVI əsrdən müstəmləkəçilik siyasəti yürüdən Fransanın II Dünya müharibəsindən əvvəl işğal etdiyi ərazilərdə talançılıq və qətlləri bütün dünyaya məlumdur. Fransanın yüzilliklər boyu dünyanın müxtəlif bölgələrində törətdiyi hərbi və insanlığa qarşı cinayətlər artıq dillər əzbəri olub. Yaxın keçmişi "qanlı ləkələr"lə zəngin olan müstəmləkəçi Fransanın Əlcəzairdə, Mərakeşdə, Ruandada və Afrikanın digər ölkələrində törətdiyi kütləvi soyqırımlar, amansız qırğınlar bəşəri cinayətlər kimi tanınır. Əlcəzairdə bir milyondan çox insanın soyqırımına səbəbkar olan Fransa bunu unutdurmağa çalışsa da, tarix bunu heç vaxt unutmayacaq. 1944-cü ilin noyabrında baş verən Seneqal hadisələrində fransızlar tərəfindən yüzlərlə Seneqal əsgəri güllələndi. 1994-cü ildə fransızlar Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat həyata keçirdilər. Nəticədə, 800 mindən çox insan qətlə yetirildi.

Bu səbəbdən Fransa öz qanlı ənənəsinə sadiq qalaraq Qafqazda müharibənin bir daha baş qaldırması üçün bütün yollara, bəd əməllərə baş vurur. Elə ona görə də Fransa bu gün regionda sülh və inkişaf üçün çalışan Azərbaycanın deyil, xisləti terror, soyqırımı olan "kiçik bacı"sı Ermənistanın yanında yer alıb.

Dünyada nüfuzunu gündən-günə itirən Fransa son çarə kimi təcavüzkar Ermənistan üzərindən Cənubi Qafqazda yerləşərək buranı özünün növbəti koloniyasına çevirmək istəyir. Paris "Sülhməramlı missiya" adı altında regionda qanlı müharibə ssenariləri planlaşdırır. Cənubi Qafqazda baş verən proseslərdən öz xeyrinə faydalanmaq, bu ərazini təsir dairəsinə salmaq istəyir. Bakı ilə İrəvan arasında sülhün qarşısına ciddi-cəhdlə sədd çəkir.

Ermənistan isə hələ də qəflət yuxusundan ayılmır. Ayılsa dərk edər ki, sürətli silahlanma gələcəkdə ona yeni-yeni problemlər, səfalət, yeni münaqişələr gətirəcək. "Kiçik bacı" Fransanın çirkin və dağıdıcı, riyakar planlarından nə qədər tez imtina etsə, ölkəsinin gələcək inkişafına, regionda sülhə yol açmış olacaq.

Bir sözlə Qərbin, xüsusilə Fransanın yürütdüyü siyasət, məkrli fəaliyyət bu ölkənin sarsılmış imicini və Ermənistanın çıxılmaz vəziyyətini daha da dərinləşdirir.

Birmənalı olaraq Ermənistan dərk etməlidir ki, Azərbaycanın siyasəti Cənubi Qafqaz regionu üçün prioritet olaraq gələcək hədəfləri müəyyən edən yeganə düzgün siyasətdir. Çünki Cənubi Qafqaz bu gün sabitlik adasına çevrilibsə, bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin liderliyi, müdrik siyasəti, qlobal müstəvidə artan nüfuzunun və siyası çəkisinin nəticəsidir.

***Arzu ABDULLAYEV,***
***NDU-nun prorektoru, tarixçi-alim***

# ABŞ Dövlət Departamenti Cenevrədə "hərbi sövdələşmə"ni təkzib edir

**ABŞ Dövlət Departamentinin mətbuat xidməti aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ–Avropa İttifaqı–Ermənistan üçtərəfli görüşündə Ermənistana geniş hərbi dəstəyin göstərilməsi məsələlərinin əksini tapdığı sənədin mətbuatda yayılmış fotosu ilə bağlı AZƏRTAC-ın ABŞ bürosunun sorğusunu cavablandırıb.**

"Bu sənəd sırf dezinformasiyadır, təhlükəsizlik məsələləri gündəmdə olmayıb. Biz sizin diqqətinizi aprelin 5-də Brüsseldə keçirilmiş üçtərəfli görüşün yekununda Avropa İttifaqı və Ermənistan ilə birlikdə qəbul etdiyimiz press-relizə yönləndirmək istərdik. Avropa İttifaqı və Ermənistan ilə birlikdə keçirilmiş Brüssel görüşündə diqqət yalnız ticarət tərəfdaşlıqlarını şaxələndirməyə və humanitar ehtiyaclarını həll etməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığına, o cümlədən Ermənistanda demokratiya və qanunun aliliyi kimi sahələrdə davam edən islahatları dəstəkləməyə yönəlib", - deyə Dövlət Departamentinin mətbuat xidmətinin sorğuya cavabında qeyd olunub.

Xatırladaq ki, Brüsseldə keçirilmiş ABŞ–Avropa İttifaqı–Ermənistan üçtərəfli görüşü ilə bağlı sənədlərdən birinin ötən gün fotosu yayılıb. Azərbaycan ictimaiyyətində geniş narahatlıq doğuran həmin fotodan da göründüyü kimi, üçtərəfli görüşlə bağlı daha əvvəldən verilən açıqlamaların əksinə, həmin sənəddə həm ABŞ-ın, həm də Avropa İttifaqının Ermənistana geniş hərbi dəstək göstərməsi əks olunub. AZƏRTAC məsələ ilə bağlı ABŞ Dövlət Departamentinə sorğu ünvanlayıb.

# Venesiya Biennalesində Azərbaycan pavilyonu açılacaq

**Azərbaycan Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Mədəniyyət Nazirliyinin və Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə 60-cı Venesiya Biennalesində təmsil olunacaq. Ölkəmiz müasir incəsənət sahəsində dünyanın məşhur platformalarından olan Venesiya Biennalesində 2007-ci ildən iştirak edir.**

Bu il aprelin 20-dən noyabrın 24-dək davam edəcək 60-cı Venesiya Biennalesi "Əcnəbilər hər yerdədir" ("Foreigners Everywhere") şüarı altında keçiriləcək.

Biennalenin kuratoru Adriano Pedros mövzunu təsadüfən seçməyib. Biennalenin dünyada insanların müxtəlif ölkələrə köçməsi ilə bağlı böhranlar fonunda fəaliyyət göstərdiyini bildirən Adriano Pedros bunun müxtəlif fərqliliklər və çətinliklərlə müşayiət olunduğunu qeyd edir. "Əcnəbilər hər yerdədir" ifadəsi iki mənada verilir. Birincisi, hara getməyimizdən asılı olmayaraq hər yerdə əcnəbilərlə rastlaşırıq – onlar (biz) hər yerdədir. İkincisi isə, istənilən yad bir yerə getsək, həmişə əcnəbiyik.

XVI əsrin heyrətamiz memarlıq abidələrindən olan Campo della Tanada yerləşən Azərbaycan pavilyonu isə Venesiya sərgisində "Xəzərdən Çəhrayı Planetə. Mən buradayam" ("From Caspian to Pink Planet: I Am Here") mövzusunda təşkil olunub və biennalenin şüarını özündə əks etdirir.

Müasir incəsənət sahəsi üzrə tənqidçi, sənətşünaslıq professoru, 53-cü Venesiya Biennalesində İtaliya pavilyonunun kuratoru olmuş Luka Beatrisin (Luca Beatrice) kuratorluğu ilə yaradılan pavilyonumuzda əməkdar rəssamlar İrina Eldarova, Rəşad Ələkbərov, rəssam Vüsalə Ağaraziyevanın əsərlərinin zəngin palitrası vasitəsilə əcnəbilik mövzusu tədqiq ediləcək - səfərlər, səyahətlər, mühacirətin hər zaman fərdi identiklik və incəsənətə təsiri göstəriləcək. Şəxsi təcrübələrinə əsaslanan müəlliflər əsərlərində əcnəbilik mövzusunun Azərbaycan üçün aktuallığını çatdırır, insanla onun yaşadığı məkan arasındakı dərin bağları əks etdirir, eyni zamanda, incəsənət vasitəsilə digərinə hörmətlə yanaşmağın vacibliyini bəyan edirlər.

# Zatulinin ermənipərəstliyi, xəlvəti anti-Rusiya demarşı və xəyanət motivi

**Rusiya Dövlət Dumasının Müstəqil Dövlətlər Birliyi işləri üzrə komitəsi sədrinin birinci müavini, ermənipərəst deputat Konstantin Zatulin yenə sakitliyi pozub. Onun Rusiya sülhməramlılarının Qarabağdan çıxmaları məsələsində nələrdən söz açdığı, hansı cəfəngiyyatı dilə gətirdiyi barədə söz açacağıq. Hələlik isə bildirək ki, Zatulin ötən həftə də eyni mövzuda danışmışdı. Hərçənd, həmin vaxt sülhməramlılarla əlaqədar məsələ gündəmdə deyildi. O bildirmişdi ki, erməni əhalisinin Qarabağı tərk etməsindən sonra Rusiya sülhməramlılarının bölgədəki mövcudluğu üçün heç bir səbəb yoxdur. Əlbəttə, rusiyalı parlamentari başqa məqamları da vurğulamışdı...**



***

Bəli, ermənipərəst deputat sakitliyi boş yerə pozmur. O, birbaşa "sifariş" yerinə yetirir. Söhbət nədən gedir? Əlbəttə ki, Rusiyadakı erməni lobbi və diaspor təşkilatlarının "sifarişlərinin" icrasından. Görünür, erməni lobbisi rəsmi Moskvanı aşağılamaq yolunu tutur. Yəni, dolayısı ilə demək istəyirlər ki, Rusiya Qarabağla bağlı heç bir təsir gücünə malik deyil.

Qeyd edək ki, istər Ermənistan hakimiyyəti, istərsə də onun xaricdəki havadarları Azərbaycanın ötən ilin sentyabrında reallaşdırdığı lokal xarakterli antiterror tədbirlərindən əvvəl Rusiya sülhməramlılarının fəaliyyətsizliyindən söz açırdılar. Antiterror tədbirləri sonrası isə erməni əhalinin bölgədən çıxması bu ritorikanı xeyli gücləndirdi. Nəzərə alaq ki, mövcud ritorika Qərbin anti-Rusiya fəaliyyətinin başlıca seqmentini təşkil edir.

Onu da bildirək ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, Rusiya sülhməramlılarının Qarabağdakı fəaliyyət müddəti 2025-ci ildə bitirdi. Yəni, prinsip etibarilə həmin vaxtadək rus hərbçiləri bölgədə qala bilərdilər. Ermənistan sözügedən bəyanatı heçə sayaraq, sənədin tərəfi olmaqdan imtina edib. Belə olan halda rəsmi İrəvanın rus sülhməramlı kontingentinin Qarabağda mövcudluğuna dair razılıq verib-verməmək səlahiyyəti, faktiki olaraq, əhəmiyyətini itirmişdi. Azərbaycan isə bəyanata bu gün də sadiqdir və rəsmi qaydada açıqlandığı kimi, Rusiya sülhməramlı kontingentinin Qarabağdan getməsinə dair qərarı Moskva və Bakı birlikdə qəbul edib.

***

Qərbin anti-Rusiya köklənişinə gəlincə, mövcud istiqamətdəki təbliğatın mühüm icraçılarından sayılan Ermənistanın hakimiyyət nümayəndələri zaman-zaman Moskvanı Qarabağ ermənilərinin təhlükəsizliklərini təmin etməməkdə, yaxud edə bilməməkdə günahlandırıblar. Üstəlik, onlar mövzuya yeni rəng çalarları qataraq, vurğulayıblar ki, ümumən Kreml Ermənistanın təhlükəsizliyinin təminatı baxımından etibarlı tərəfdaş deyil.

Belə bir durumda Zatulin ötən həftə Qarabağdakı Rusiya sülhməramlı kontingentinin lazımsızlığına dair fikir formalaşdırmaqla, nəinki erməni dostlarının Moskvanı aşağılamaq niyyətlərini gerçəkləşdirmiş, habelə Qərbin maraq dairəsində olan məsələni qabartmışdı. Bu yerdə diqqət yetirək və görək ki, ABŞ hakimiyyəti Rusiya sülhməramlı qüvvələrinin Qarabağdan çıxmasına necə münasibət bildirib.

ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Petel ənənəvi brifinqdə deyib ki, Birləşmiş Ştatlar Rusiya ordusunun Cənubi Qafqaz regionunun daha dinc və sabit olmasına töhfə verdiyini təsdiqləyən heç nə görməyib. Cənab Petel fikrini əsaslandırmaq üçün ötən ilin payızında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etmək məqsədilə reallaşdırdığı lokal xarakterli antiterror tədbirlərinə diqqət çəkib. Təsəvvür edin ki, o, həmin tədbirlərə görə Rusiyanı etibarsız müttəfiq və ya tərəfdaş kimi qələmə verib.

Hər halda, belə bir fikri bildirdikdən sonra V.Petelin Birləşmiş Ştatların davamlı və ləyaqətli sülhə nail olmaq üçün Ermənistanın və Azərbaycanın səylərini qətiyyətlə dəstəklədiyini diqqətə çatdırması riyakarlıqdan başqa bir şey deyil. Yəni, sözümüz ondadır ki, Rusiya Dövlət Dumasında mühüm vəzifə tutan biri, yəni Zatulin də təxminən eyni mövqedədir. Məsələ barədə rəsmi Moskvaın düşünməsi vacibdir. Düşünsün ki, Rusiya üçün erməni kitabının tamamilə sıradan çıxmağa doğru yön aldığı indiki dövrdə zatulinlər ölkəyə lazımdırlarmı? Biz öz tərəfimizdən bu suala yazının sonunda cavab verəcəyik...

***

Təsəvvür edin, Moskvanın Cənubi Qafqazdan tamamilə sıxışdırılmasına hesablanmış "oyun" gedir, belə təəssürat formalaşır ki, Zatulin indi də Qərbin maraqları naminə hərəkətə keçib. Əlbəttə, bu cür əqidəsizdən hər şey gözləmək mümkündür. Çünki, o, həmişə, necə deyərlər, öz əlinə oynayıb. Çalışıb ki, ayı xidməti ilə Rusiyadakı erməni lobbi və diaspor təşkilatlarından aldığı maliyyənin qarşılığını ödəsin.

Bəli, K.Zatulin əvvəlki ampluasına sadiqdir. O, ötən həftə bildirmişdi ki, Azərbaycan rus qoşunlarının çıxarılması məsələsini qaldırmayıb. Ona görə ki, Rusiya bunu məğlubiyyət və ya güzəşt kimi qəbul etməsin: "Bu gün Qarabağda sülhməramlıların varlığı Rusiya ilə Azərbaycan arasındakı münasibətlərlə bağlıdır. Əslində, Qarabağda erməni əhalisi olmadığından, sual yaranır: Bizim sülhməramlılarımızın orada nə işi var? Hesab edirəm ki, Azərbaycan rəhbərliyi hələ də onların geri çəkilməsinə dair sualları ona görə qaldırmayıb ki, bu, məğlubiyyət, güzəşt, hərbçilərimizin Rusiya Federasiyasından kənarda olmasının vurduğu ziyan kimi qəbul olunmasın. Əslində, sülhməramlılarımızın Qarabağdakı mövcudluğunun səbəbləri azdır".

Əlbəttə, ermənipərəst deputat "Gazeta.ru"ya müsahibəsində yuxarıda qeyd etdiyimiz əsl məqsədini pərdələməyi yaddan çıxarmamışdı. O, rus hərbçilərinin Qarabağda qalmalarının nəyə görə vacib olduğundan dəm vurmuşdu. Maraqlıdır ki, Zatulinin mövcud xüsusda qaldırdığı iddia elə rəsmi İrəvanın və xaricdəki havadarlarının gündəmindəki tezislər idi. Deputat bildirmişdi ki, guya, Rusiya sülhməramlılarının Qarabağda olmaları bölgə ermənilərinin evlərinin dağıdılması üçündür. Ən əsası isə sən demə, ruslar oradakı erməni mədəni irsinin məhvinin qarşısını alırlarmış: "Mən sülhməramlılarımızın, məsələn, erməni əhalisi tərəfindən tərk edilmiş evlərə, tarix və mədəniyyət abidələrinə heç nəyin baş verməməsini təmin etmək üçün yerləşdirməyi məqsədəuyğun görürəm", – deyən deputatın özündən səbəb uydurduğu ortadadır.

***

Deyəsən, "Qazeta.ru" Zatulinin sevimli sərsəmləmə platformasıdır. Ötən həftə olduğu kimi, o, yenə də bu media orqanınına açıqlama verib və deyib ki, guya, Azərbaycan Qarabağda ermənilərin mövcudluğunun izlərini silməyi planlaşdırır və buna görə rus sülhməramlılarının orada qalmaları hər iki tərəf üçün münaqişəyə səbəb olacaqdı. İndi necə başa düşək? Belə çıxır ki, Rusiya "Qarabağda ermənilərin mövcudluğunun izlərini silməkdə" Azərbaycanla ortaqdır?

Ancaq Zatulinin sərsəmləmələri bununla bitmir. Diqqət yetirək, Ermənistan hakimiyyəti Qarabağ ermənilərinin bölgəyə qayıdışı məsələsini bir kənara qoyub. Daha doğrusu, məsələdən tamam fərqli tərzdə, yəni avantürist məqsədlər naminə bəhrələnir və bu bəhrələnmədə anti-Rusiya ovqatı aşkar duyulur. Rusiyalı deputat isə bildirir ki, erməni əhalisinin müəyyən hissəsinin Qarabağa qaytarılması perspektivindən "yapışmaq olar". Necə, Zatulinin mövcud istiqamətdə danışdıqları nağıldan başqa bir şey deyil – Azərbaycan xoş niyyət göstərməlidir və sair bu kimi fikirlər. Görəsən, hansı xoş niyyətdən söhbət gedir? O niyyəti, ölkəmiz dəfələrlə göstərib, amma rəsmi İrəvan Qarabağ ermənilərinin Azərbaycan yurisdiksiyasında yaşamasına razılıq verməyib...

***

Əlbəttə, Zatulinin söylədiklərində hamıya aşkar olan müəyyən həqiqət payı da var. Məsələn, o deyir ki, sülhməramlıların çıxarılmasından sonra Qarabağda yeni müharibənin başlanması üçün heç bir əsas yoxdur. Bəs müharibə necə ola bilər? Deputat bildirir ki, Ermənistanda hakimiyyət dəyişikliyi yaşansa, "yenilər" ölkə ərazisini və erməni milli maraqlarını təslim etməkdən əl çəksələr, müharibə durumu yarana bilər. Göründüyü kimi, Zatulin rus sülhməramlılarının Qarabağdan çıxarılmasını erməni milli identikliyinin qorunması baxımından yolverilməz sayır. Belə yanaşma, heç şübhəsiz, qızışdırıcı mahiyyət də daşıyır.

***

Ermənipərəst rusiyalı parlamentarinin fikirlərindəki növbəti qızışdırıcı motiv isə budur: rəsmi İrəvan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı və həmin andan bölgədə baş verən hər şey Ermənistanın iştirakı olmadan Rusiya ilə Azərbaycan arasında müzakirə mövzusuna çevrildi. Nəticədə Bakı 2023-cü ilin sentyabrında ərazini ələ keçirdi, nəticədə erməni əhalisi oradan çıxdı. Zatulinin belə yanaşması Ermənistan rəhbərliyinin "Rusiya Qarabağı Azərbaycana təhvil verdi" tezisinə çox bənzəyir. Deməli, tam aydındır ki, o, öz ölkəsinə deyil, erməni lobbi və diaspor təşkilatlarına xidmət edir.

Bəli, bir daha bildirək ki, K.Zatulin özünün ermənipərəst dəst-xəttinə "sadiqdir". O qədər sadiqdir ki, Rusiyanın dövlət maraqları onun üçün heç nədir. Görəsən, deputat bu maraqların Ermənistan hakimiyyəti tərəfindən təhdid edildiyinin fərqində deyil?

Sonda diqqətə çatdıracağımızı bildirdiyimiz bir məqamın üzərində gediş edək. Zatulinlər vaxtılə Rusiya üçün lazım idilər. Ölkədəki bəzi dairələr onların köməyi ilə anti-Azərbaycan fəaliyyət gerçəkləşdirirdilər. Hazırkı məqamda isə rəsmi Moskva, loru dildə desək, kimin kim olduğunu anlamağa başlayıb. Deməli, Zatulin və onun kimi üfunət qoxuyan siyasi iyrənclərin tarixin zibilliyinə atılmasının vaxtı çatıb.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Vaşinqton rus hərbçilərinin Qarabağı tərk etməsindən niyə narahatdır?

**Cənubi Qafqaz regionu ciddi transformasiya dövrünə qədəm qoyub. Postsovet məkanının ən köhnə münaqişəsi adlandırılan Qarabağ problemi artıq tarixə qovuşub. Rusiya sülhməramlı kontingentinin də vaxtından əvvəl Qarabağı tərk etməsi bir tərəfdən Bakı və Moskva arasında münasibətlərin yüksək səviyyədə olduğunu təsdiqlədi, digər tərəfdən regionda münaqişənin artıq tarix olduğunu rəsmiləşdirdi. Amma belə görünür, regionun mahiyyətcə yeni dövrə qədəm qoyması okeanın o tayındakıları razı salmayıb. ABŞ-ın rusiyalı hərbçilərin Qarabağı erkən tərk etməsinə reaksiyası məhz belə deməyə əsas verir.**

Yeni əsrdə Qafqaz regionunun geosiyasi həyatında ən böyük hadisə, əlbəttə ki, Qarabağ münaqişəsinin başa çatması oldu. Otuz il aparılan danışıqların nəticəsiz bitməsindən sonra Azərbaycan beynəlxalq hüquq qayda və normalarına uyğun ərazilərini silah gücünə işğaldan azad etdi. 20 sentyabr lokal xarakterli antiterror tədbirlərindən sonra isə ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu. Qarabağ münaqişəsinin başa çatması Cənubi Qafqaz regionunda status-kvonu dəyişdirdi. 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatına uyğun Qarabağ bölgəsində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin bölgəni erkən tərk etməyə başlaması da regionun yeni dövrə qədəm qoymasını təsdiqlədi. Xatırladaq ki, sülhməramlıların ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Artıq proses başlanıb, Azərbaycan və Rusiya müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər.





Sülhü istəyən hər kəs, əlbəttə ki, bu xəbəri alqışlamalı və bunu regionda formalaşmış yeni reallığın güclənməsinə yönəlmiş vacib amil kimi qiymətləndirməlidir. Çünki sülhməramlı qüvvələrin bölgəni tərk etməsi o deməkdir ki, Qarabağda münaqişə tərəfləri yoxdur və deməli, missiya da başa çatıb. Ancaq prosesi dəstəkləmək, ən azından neytral mövqe sərgiləmək əvəzinə, tam başqa reaksiya görürük. Xüsusilə də ABŞ-ın sülhməramlıların vaxtından əvvəl Qarabağ bölgəsini tərk etməsinə reaksiyası normal məntiqə uyğun gəlmir. Belə ki, ABŞ Dövlət Departamentinin sözçüsü Vedant Patel Rusiyanın sülhməramlı kontingentinin Qarabağdan çıxarılmasını şərh edərkən deyib ki, Vaşinqton Rusiya ordusunun daha dinc və sabit Cənubi Qafqaz regionuna sərmayə yatırdığını göstərən heç nə görməyib: "Payızda Qarabağda baş verən hadisələr də bunun göstəricisidir. Bu, Rusiyanın etibarlı müttəfiq və ya tərəfdaş olmadığının başqa bir nümunəsidir".

ABŞ-ın qlobal güclü oyunçu olduğunu unutmamışıq. Vaşinqton hər fürsətdə dünyanın təhlükəsizliyini qorumaqda tarixi missiyası olduğunu iddia edərək, müxtəlif regionlarda milli maraqlarını müdafiə etməyə çalışır. Əgər ABŞ beynəlxalq sülhün təmin edilməsində çox maraqlıdırsa, o zaman otuz il Cənubi Qafqaz regionunu təhdid altında saxlayan Qarabağ münaqişəsinin başa çatmasını alqışlamalı və bölgədə sülhün və təhlükəsizliyin daha da güclənməsinə təkan verən prosesi dəstəkləməlidir. Ancaq Vaşinqton tam başqa mövqe sərgilədi. Rusiya sülhməramlılarının vaxtından əvvəl Qarabağı tərk etməsini neqativ tərzdə şərh etdi. Belə reaksiya verməklə ABŞ növbəti siyasi riyakarlığını ortaya qoydu. Niyə belə düşünürük? Ona görə ki, indiyədək dünyanın bütün bölgələrindən Rusiyanı sıxışdırmağa çalışan ABŞ Qarabağdakı sülhməramlılara yanaşmada fərqli mövqe nümayiş etdirir. Diqqət edin: ABŞ dəfələrlə Rusiyanı Dnestryanı, Abxaziya, Cənubi Osetiyadanı sülhməramlı kontingenti çıxarmağa çağırmış, 2022-ci ilin yanvarında KTMT qüvvələrinin Qazaxıstandan çıxarılmasını alqışlamışdı. Amma Azərbaycana gələndə məsələyə "qara eynək"dən baxır, rəngləri tündləşdirməyə çalışır.

Əslində, Vaşinqtonun belə davranmasında təəccüblü heç nə yoxdur. ABŞ Ukrayna müharibəsi fonunda Rusiyanı dünyanın strateji regionlarından sıxışdırmağa çalışır. Belə regionlardan biri də Cənubi Qafqazdır. Qarabağ münaqişəsinin həll olunmaması da regionu qlobal geosiyasi güclər arasında rəqabət meydanına çevirmişdi. Ancaq Azərbaycanın İkinci Qarabağ müharibəsində Ermənistanı darmadağın etməsindən sonra regionda yeni geosiyasi reallıq yarandı. Bu reallıqla barışmayan ABŞ və Fransa davamlı sülh müqaviləsinin imzalanmasına əngəllər yaradır. Aprelin 5-də Brüsseldə keçirilmiş ABŞ–Avropa İttifaqı–Ermənistan sammitinin pərdəarxası məqamları da bunu təsdiqləyir. Vaşinqtonun Rusiya sülhməramlı kontingentinin Azərbaycandan çıxması ilə bağlı sərgilədiyi mövqe Qərbin postmüharibə reallığının dəyişdirilməsinə yönəlmiş növbəti destruktiv cəhdi kimi qiymətləndirilməlidir. Azərbaycanda münaqişə tərəflərinin olmamasını, yəni Qarabağ münaqişəsinin həll edilməsinin təzyiq rıcaqlarının sıfırlanmasına gətirib çıxardığını anlayan Vaşinqton Rusiyanın bostanına daş atır, onun "etibarsız müttəfiq" olduğunu iddia edir və bununla İrəvana mesaj göndərir ki, Ermənistanın yeni "təhlükəsizlik çətiri" məhz ABŞ-dır.

Aydındır ki, ABŞ öz geosiyasi məqsədlərini güdür, amma razılaşın ki, milli maraqların digər dövlətlərin həyati maraqlarının nəzərə alınmaması hesabına təmin edilməsi siyasi riyakarlıqdır. Əgər ABŞ Rusiyanı "etibarsız müttəfiq" adlandırırsa, bəs 2023-cü il sentyabrın 17-də Moskva ilə niyə masa arxasına keçib separat danışıqlar aparmışdı? Xatırladaq ki, 2023-cü ilin antiterror tədbirlərindən bir neçə gün əvvəl – sentyabrın 17-də İstanbulda Qarabağla bağlı gizli ABŞ–Rusiya–Aİ görüşü keçirilmişdi. Həmin görüş Ukraynada müharibənin başlanmasından sonra Moskva və Qərb arasında ilk təmas olmuşdu. ABŞ-ı danışıqlarda Qafqaz üzrə baş müşavir Lui Bono, Avropa İttifaqını regional nümayəndəsi Toivo Klaar, Rusiyadan isə prezident Vladimir Putinin Ermənistanla Azərbaycan arasında əlaqələr üzrə xüsusi nümayəndəsi İqor Xovayev təmsil etmişdi. ABŞ Dövlət Departamentinin rəsmisi görüşlə bağlı şərh verməkdən imtina edərək bunu özəl diplomatik müzakirə adlandırmışdı.

Bəs görüşdə nə müzakirə olunmuşdu? Bəzi məlumatlara görə, görüşdə Rusiya sülhməramlılarına beynəlxalq mandatın verilməsi, Qərb sülhməramlılarının da Qarabağa buraxılması təklif olunmuşdu. Qərb Qarabağda Azərbaycan bayrağının dalğalanmaması üçün öz sülhməramlılarının bölgəyə BMT mandatı altında daxil olmasını və ruslarla birlikdə ermənilərlə azərbaycanlılar arasında dayanmaq təklifini irəli sürmüşdü. Azərbaycan və Türkiyə dövlət başçılarının qəti etirazları sayəsində görüş nəticəsiz başa çatmışdı. Ancaq bu görüş ABŞ və Qərbin Azərbaycanın öz suverernliyini tam bərpasına imkan verməmək üçün hətta özünün əsas rəqibi olan Rusiya ilə belə sövdələşməyə hazır olduğunu göstərmişdi.

Azərbaycan artıq Qərbin ikili standartlarından təəccüblənmir. Böyük ölkələrin, xüsusilə də ABŞ kimi ölkələrin geosiyasi maraqları naminə sülh prosesini tormozlamağa çalışması da artıq yenilik deyil. Bütün bu destruktiv mövqelərə və pərdəarxası oyunlara baxmayaraq, Azərbaycan öz yolu ilə inamla addımlayır və Bakı milli maraqlarını qorumaqla yanaşı, regional sülhün bərqərar olunmasına və çoxtərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verməkdə davam edəcək.

***S.ELAY***
***XQ***

# Yeni tarixi mərhələdə milli ideya

## Türk Dövlətləri Təşkilatı milli ideya kontekstində

**TDT-nin yaradılması həm geosiyasi, həm də tarixi-mədəni və siyasi anlamda prinsipial əhəmiyyət daşıyır. Son bir neçə yüz ildə ilk dəfədir ki, türk xalqları müstəqil dövlət statusunda inteqrasiya olmaq şansı əldə etmişlər. Bir çoxları, ümumiyyətlə, türklərin müasir tələblər səviyyəsində hər hansı təşkilat yarada biləcəklərinə inanmırdılar. Bunun üçün qarşıya müxtəlif maneələr atmaqda davam edirlər. Lakin XXI əsrin türklər üçün ən böyük faydası inteqrasiyanın müasir və perspektivli modelini hazırlamaqdan ibarət oldu. Sözün həqiqi mənasında, TDT geniş bir geosiyasi məkanda qardaş xalqların faydalı əməkdaşlığına və təhlükəsiz yaşamasına imkanlar yarada bilər. Yeni tarixi mərhələdə milli ideya kontekstində bunun böyük əhəmiyyəti vardır. Çünki milli ideyanın məzmunlaşmasında və təsir dairəsinin sərhədlərinin müəyyən edilməsində müasir dövrdə müstəqil dövlətlər üçün əhəmiyyəti olan təşkilatlanma olduqca vacibdir. Bu prizmadan milli ideya kontekstində TDT-nin rolunu təhlil etmək olar.**



### Türk inteqrasiyasının perspektivləri

Milli ideya kontekstində türk dövlətlərinin münasibətlərinə yalnız bu günün reallıqları prizmasından baxmaq adekvat yanaşma deyildir. Çünki istənilən inteqrasiya modeli tarixiliklə müasirliyin kəsişmə sahəsində gələcəyin perspektivləri üzərində düşünmək deməkdir. Əgər hər hansı xalqın və xalqlar qrupunun keçmişdə hansı inteqrativ əlaqələrdə olduğu haqqında obyektiv, ədalətli və həqiqi təsəvvür yoxdursa, bu gün üçün faydalı inteqrasiyadan danışmağın elmi əsası çox zəifdir. Bu baxımdan türk xaqlarının tarixən birləşmək üsulu olduqca aktual məsələdir. Onun fəlsəfi və politoloji təhlili geniş yanaşma tələb edir. Milli ideya kontekstində aktual hesab etdiyimiz bir sıra amillər üzərində dayanaq.

**a) Ənənə və dövlətçilik**

Türklərin həm öz daxillərində, həm də digər toplumlarla münasibətlər qurmaları müəyyən fəlsəfəyə əsaslanır. Türklər tarixən birgəyaşam üsullarına meyilli olmuşlar. Burada kökə bağlılıq, ailə qurmaq və kollektiv inkişaf başlıca yer tutmuşdur. Türk xalqları üçün kökə bağlılıq bütövləşmənin başlanğıc ideyasıdır. Ailə qurmaq nəsil artırmaqla çoxalmaq və bu zaman konkret münasibətlər qaydasına əməl etməyə dayanır. Kollektiv inkişaf isə əsasən türklərin cəmiyyət və dövlətin identikliyinə söykənir. Bu, özünüyaratmanın çox maraqlı bir aspektidir. Məsələ onunla bağlıdır ki, türk xalqlarında toplumu ifadə edən "el" anlayışı "dövlət" anlayışının sinonimidir. Yəni dövlətin varsa, bütöv bir elsən, obasan, toplumsan, tamsan, "özündəsən". Məhz həmin anlamda da türk üçün "mən"=el. Yəni hər bir qədim türk elini-obasını özü ilə eyniləşdirir, onun təhtəlşüurunda birlik, elli olmaq, obalı olmaq və həmin keyfiyyətdə bir-birinə sığınaraq, arxalanaraq, hərəkət edərək yaşamaq möhkəm yer tutmuşdur ("palaza bürün, elnən sürün", "tək əldən səs çıxmaz", "el bir olsa zərbi-kərən sındırar" və s.).

Kollektivçilik fəlsəfəsi baxımından buradan çox maraqlı bir mərhələ başlanır. Biz türklərin hansı ideya ilə kollektiv yaşamağa motivə olunduğunu nəzərdə tuturuq. Həmin ideya məhz "el" anlayışı ilə "dövlət" anlayışını sinonim edən mədəni, mənəvi, əxlaqi və özünüyaratma faktorlarının qarşılıqlı əlaqəsində özünü tapması ilə əhəmiyyətlidir. Kəsə desək, türklər "mən"lə bütün eli vahid görməyə imkan verən ideya əsasında dövlət qurmuşlar. Onlar üçün bu mənada dövlət, həm də öz şərəfi, namusu, qeyrəti, ümumi halda isə yaşam formasıdır. Bu ideyanın daşıyıcısı isə "yosun qanunu" və ya "yosun hüququ" olmuşdur.

Azərbaycanda yosuna həm də "mamır" deyirlər ("Vətən mənə oğul desə, nə dərdim. Mamır olub qayasında bitərdim" – Məmməd Araz). Yosun hüququ həm də türklərin birləşmək qanunudur və buna görə də onun mənbəyini İlahidə axtarırlar. Təbiətən türk yosun qanunu üzrə yaşamalı, çoxalmalı və birləşməlidir. Bunun təməlində isə "ot kökü üstə bitər" fəlsəfəsi dayanır. Yəni birləşmək və ya birgə yaşamaq türk üçün toplumdan gələn sifariş deyildir – onun damarında axan qanın, mənəviyyatının və kimliyinin identiklik bazası, təməli və həm də "açarıdır"!

Yosun yeganə bitkidir ki, suda, quruda və havada bir-biri ilə "əl-ələ" verən və bir-birini tamamlayan naxışlardan bir mərkəzi olmayan mühit yaradaraq inkişaf edə bilir. Onlar olduqları hər yeri tamamilə örtürlər (ağacı, qayanı, dənizin dibini və s.). Buna "sinharmoniya" da deyə bilərik. Yəni türklər özlərini fərd olaraq elə yetişdirirlər ki, eyni yaranma fəlsəfəsini kollektivə də yaymaq mümkün olur. Bu zaman inkişafın hər yerdə və hər anda özünü göstərə bilən sonsuz yuvaları yaranır (J.Delyoz buna "rizoma" deyirdi). Bu cür kollektivi məhv etmək praktiki olaraq mümkün deyildir. İki türk qalsa belə, milyonlara çevrilə bilir, çünki ilk işləri dövlət yaratmaq olur! Onun kollektivləşməsi dövlət olmaq istedadı, haqqı və qanunu ilə vəhdət təşkil edir!

**b) Qonşuluq fəlsəfəsi**

Türk üçün qonşu olmaq "qonuşmaq"dır (danışmaq), ünsiyyətdə olmaqdır (kommunikativlik), təmasdır (həyat tərzlərinin uzlaşdırılması, ziddiyyətsiz təşkili). Deməli, türk üçün "qonşu" sözü sadəcə yanaşı yaşamaq anlamında deyildir – onun geniş və dərin fəlsəfi mənası vardır. Qonşuluq faktiki olaraq türkün yaşayış məskəni seçməsinin kökündə dayanan münasibət növüdür. Çünki türklər inanmışlar ki, qonşuluq onlara İlahidəndir və burada müəyyən anlam vardır. "Yaxşı qonşu" və ya "pis qonşu" buradan məzmun alır. "Yaxşı qonşu uzaq qohumdan üstündür" və "qonşun pisdirsə, köç qurtar" deyimləri buradan qaynaqlanır. Lakin çoxlarının nəzərə almadığı bir məqam da burada vardır.

Türklər üçün yaxşı və ya pis qonşu anlamları iki səviyyədə məna kəsb edir. Fərdi səviyyədə yuxarıdakı deyimlər bir məna daşıyır, kollektiv miqyasda türklər (yəni el, oba, tayfa, xalq, millət) səviyyəsində isə fərqli məna daşıyır. Və ikinci miqyasda "köç qurtar" məntiqi hələ fərdi səviyyədə nəzərə alınan başqa faktorlarla əvəz olunur. Onlar türkün qonşuya da nizamı, ədaləti, haqqı və mədəniyyəti aşılamağı can atması ilə əlaqəlidir. Bunun təməlində isə türk mifində mövcud olan məhz türklərin dünyaya İlahi nizamı yaymaq missiyası daşıdığına olan yüksək inam dayanır.

Burada maraqlı və əhəmiyyətli bir fəlsəfi bağlantı görünür. Belə çıxır ki, türklər üçün fərdi səviyyədə qardaşlıq və qonşuluq bir anlam daşıyırsa, kollektiv səviyyədə fərqli anlamlar ola bilər. Səbəbi yenə də türklərin yosun qanunu arxasında mövcud olan davranış və inkişaf üsulu vardır. Yəni türk fərd olaraq heç bir halda kollektivin birliyinə ziyan verməməlidir və əgər özünü haradasa uyğunsuz görürsə, oradakı vəziyyəti dəyişmək əvəzinə çıxıb getməlidir. Digər tərəfdən, fərdi türk ellikdə nizamın, asayişin və sakitliyin naminə bir qonşunu tərk edə bilər. Bu da türkün təhtəlşüurunda bir sıra xarici elm adamının dediyi təcavüzkarlıq, pislik, mane olmaq və s. kimi keyfiyyətlərin deyil, başqasına zərər verməmək, qədim icma qaydalarını gözləmək, sülh şəraitində yaşamaq kimi xüsusiyyətlərin dominant olduğunu göstərir.

Daha maraqlısı odur ki, məhz bu keyfiyyətlər türklərin kollektiv miqyasda birgəyaşam fəlsəfəsində aparıcılıq təşkil edir. Yuxarıda vurğuladığımz kimi, türk toplum olaraq dövlət kimi birgəyaşama üstünlük verir. Dövlət miqyasında var olmaq isə toplum olaraq el kimi var olmaqla eyniləşir. Bu da mütləq surətdə ailədə, qonşuda və bütün eldə sülh, əmin-amanlıq, ədalət və İlahi nizamın zəruriliyinə inamın göstəricisidir. Həmin səbəbdəndir ki, qədimdən türk dövlətləri özgə torpaqlarını işğal etməmişlər, onlar qəlbləri, təbiəti, toplumları, başqa mədəniyyətləri fəth etmişlər. Öz fəthləri ilə başqa ölkələrə mütləq ədalət, hüquq, sülh, yaxşı qonşuluq fəlsəfəsi gətirmişlər.

Avropalı araşdırmaçılar yazırlar ki, qədimlərdən türklərin "savaçı çobanlar" mədəniyyəti tarixin bir dönəmində dünya kültürünün "mayası", "onu inkişafa motivə edən", "passionarlıq gətirən" fenomen olmuşdur. Türklər bu səbəbdən dünyaya yayılmışlar və hər yerdə mədəniyyət olaraq mövcuddurlar. Onlar dünya tarixinin mədəniyyət, haqq-ədalət və düzən aspektlərinin mərkəzində indi də dayanmaqdadırlar.

Deməli, türklər fərdi və dövlət səviyyəsində qonşu ilə münasibətlərin özəl fəlsəfəsini yaratmış və bunu təhtəlşüura əbədi ötürmüş qövmdürlər! Bu kontekstdə türklərin milli ideyası mərkəzində ədalətin, haqqın, hüququn və İlahi düzənin olduğu dövləti fenomendir. Burada həm türk toplumunun daxili münasibətləri, həm də başqa dövlətlərlə münasitəblər sistemi iş-içə, ahəngdarlıqda və harmoniyadadır. Onları bir-birindən ayıran türk dövlətçilik fəlsəfəsini anlamamışdır!

**c) Kollektivçilik**

Müasir mərhələdə millətlər yalnız dövlət kimi mövcud olurlar (BMT-nin tərifi). Yəni nə zamansa, dövləti olmuş və indi ondan məhrum olan toplumları millət saymaq mübahisəlidir (hərçənd baxdığımız kontekstdə bunun elə bir əhəmiyyəti yoxdur). Bizim üçün fakt ondan ibarətdir ki, türk xalqları yalnız dövlət qurduqda əsl mahiyyətlərinə, kimliklərnə və həyati məqsədlərinə uyğun yaşaya bilirlər – onlar dövlətsiz bunu bacarmırlar. Nöqsandırmı? Bəlkə də.

Lakin dünya tarixinin təcrübəsi göstərir ki, türklərin güclü dövlət qurması qonşuluqda olan hər bir xalqın ədalətli, hüquqlu və rifah halında yaşamasına geniş imkanlar yaradır. Türk dövləti qonşu dövlətlərə (irqindən asılı olmayaraq) ədalət, haqq, hüquq və İlahi nizam prizmasında baxır, onlarla bu prinsiplər əsasında münasibət qurur. Obrazlı desək, "Türkün qılıncı ədaləti kəsməz"!

Türk dövləti türk fərdi kimi qonşuluğa yüksək qiymət verir və onu ədalətə dəvət edir. Bunun üçün özü ədalətli olur və qonşusu ilə ədalətli davranır.

Deməli, burada "ədalət" anlayışının fərdi səviyyədən dövlət səviyyəsinə transformasiyasını görürük. Bu transformasiyada fərdi mənafe faktoru dövləti maraq anlayışına transformasiya olunur. Fərdlərarası münasibətlərdə zərər verməmək, ictimai düzəni pozmamaq anlamı dövlətlərarası münasibətləri inkişaf etdirmək və geniş miqyasda ədaləti, nizamı, asayişi və təhlükəsizliyi təmin etmək anlamlarına keçir.

Burada qonşu ilə münasibətlərin strategiyası, birincisi, türk dövlətinin varlığını təmin etməyə, ikincisi, münasibətlərin hüquq, ədalət və nizama xidmət müstəvisində təşkilinə, üçüncüsü, qonşularla birgə sülh, barış və İlahi düzən yaratmağa canatmasına tranfsormasiya olunur.

Türklər dövlət və millət miqyasında kollektivçiliyi məhz bu anlamda qəbul edirlər və onun uğrunda savaşırlar!

Vurğulanan bu tezisi daha aydın dərk etmək üçün türklərin tarixi yaddaş anlamına fəlsəfi nəzər salmaq gərəkdir. Həm də ona görə ki, tarixi yaddaş hər bir türk dövlətinin milli ideyasının mərkəzi təşkiledici faktorlarından biridir. Çünki tarixi yaddaş türk dövlətçiliyi kontekstində toplumun bütövlüyünü və tamlığını təmin edən başlıca fenomendir. Ancaq dövlət miqyasında bu birləşdiricilik və bütövləşmə müasirlik, multikultural dünyagörüşü və dialoqa açıqlıqla sıx bağlıdır. Daha dəqiq desək, bu anlayışlarla vəhdətdə tarixi yaddaş dövlətçilik naminə sosial-mədəni funksiyasını yerinə yetirə bilər.

Müasir mərhələdə TDT-ni inteqrasiya formulu kimi perspektivli edən də bu kimi məqamlardır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitki,***
***fəlsəfə elmləri doktoru***

# "Xaçlı kəşfiyyatçılar"ın Hayastan macəraları...

**(əvvəli 1-ci səhifədə)**

Macəradan söz düşmüşkən. Bəlkə müqayisəmiz oxucuya qüsurlu görünə bilər, amma yenə də maraqlı paralellər aparmağın yeri var. Avropalı kəşfiyyatçıların hayların dini lideri II Qareginlə görüşü yadımıza tatar əsilli rusiyalı rejissor Eldar Ryazanovun 1973-cü ildə italiyalı prodüsser Franko Prosperini ilə birgə lentə aldığı "İtalyanların Rusiyada ağlasığmaz macəraları" kinokomediyasının süjetini saldı. Romadakı xəstəxanalardan birində can verən 92 yaşlı rus emiqrant nəvəsi Olqaya vəsiyyət edir. Deyir ki, onun Leninqradın mərkəzi meydanındakı şir heykəlinin postamentinin altında inqilab vaxtı gizlətdiyi 9 milyard italyan lirəsi dəyərində xəzinəsi var imiş. Bu sirdən Olqa ilə yanaşı, həkimlər Antonio və Cüzeppe, Rozario Aqro və başqaları da agah olurlar. Bundan sonra xəzinə ardınca Rusiyaya gedən italyanların ağlasığmaz macəraları başlayır...

İndi fransız jandarmları və istefada olan alman hərbçilərinin "binokl diplomatiyası"nın arxasında Ermənistanla Azərbaycanın şərti sərhədində onlar üçün "xəzinə" sayıla biləcək məlumatların ovuna çıxmaları şübhəsizdir. Amma onların "xəzinə" əvəzinə nəsə tapacaqları mümkün görünmür. Çünki onlar istədiklərini yanlış məkanda axtarırlar. Yəqin məlum filmin sonunda olduğu kimi, artıq tamahlarının qurbanına çevrilən "xəzinəaxtaran" missionerlərin hamısı əliboş, kor-peşman evlərinə qayıdacaq.

Onu da qeyd edək ki, Ermənistan parlamenti Aİ-nin Azərbaycanla sərhəddə yerləşdirilmiş mülki missiyasının statusuna dair razılaşmanı ratifikasiya etməklə bölgədə kövrək sülhə təhlükə ocağı yaradıb. İki ölkənin şərti sərhədində mülki missiya adı altında kəşfiyyatçı–təxribatçı maşının olması münasibətləri daha da tarıma çəkir. Jandarm və hərbçilərdən ibarət həmin keçmiş kəşfiyyatçıların, ümumiyyətlə, Cənubi Qafqazda mövcudluğu İrəvanı Bakı ilə növbəti hərbi qarşıdurmaya təhrik etməyə hesablanıb. Məsələyə məhz bu rakursdan yanaşanda, bəlli olur ki, Aİ-nin reallıq hissi korşalmış haypərəst siyasətçiləri Azərbaycan əleyhinə yeni ssenarilər üzərində baş sındırırlar.

**Arayış:** Avropa İttifaqının mülki missiyası 2023-cü il fevralın 20-dən 2 il müddətinə Ermənistanda yerləşib. Missiya ilkin olaraq 100 nəfərdən ibarət olub. 2023-cü ilin dekabrında missiyanın tərkibi 209 nəfərə qədər genişləndirilib. Ermənistan hökuməti son iclaslarının birində Aİ-nin müşahidəçilik statusunu təsdiqləyərək, onun səlahiyyətini, faktiki olaraq, diplomatik statusa bərabərləşdirib.

***

Reallıqda ermənilər belə hesab edirdilər ki, Aİ mülki missiyasının Ermənistanda peyda olması onları hər şeydən sığortalayacaq. Yəni, bundan sonra onların çətiri altında kölgələnərək sərbəst şəkildə ağıllarına gələn hərəkəti edəcəklər. Fəqət onlar "səlibçi" missiyanın Azərbaycanı yolundan dördərməkdə, siyasi iradəsinə təsir göstərməkdə aciz olduğunu unudurlar. Əslində, daxildən yayılan xəbərlərə görə, ermənilər Aİ missiyasını dəvət etdiklərinə görə artıq peşmandırlar.

Çünki Ermənistana gəldikləri ötən bir il bir ay müddətində bu başabəla missiya şərti sərhəddə, eləcə də bölgədə sülhün və sabitliyin bərqərar olmasına heç bir töhfə verməyib. Bunun tam əksinə olaraq, o, iki ölkə arasındakı münasibətlərə əlavə gərginlik ocağına – "katalizatora" çevrilib. Biz şübhəli missionerlərə yaxşı yaraşan ad da təyin etmişik: "binokl diplomatları". Həmin fransız və alman emissarlar şərti sərhədin o üzündən binoklla bu tərəfə baxır, hərdən şəkillər çəkir, bəzilərini sosial şəbəkədə yayırlar. Yəqin "səlibçi"lərin bundan məqsədi Azərbaycanı qıcıqlandırmaqdır. Mülki missiyanın bu cür təxribat xarakterli fəaliyyəti, əslində, Aİ–Azərbaycan münasibətlərinə yalnız ziyan gətirir.

Fransanın təşkilatçılığı ilə formalaşan Qərbin "səlibçi" düşərgəsinin anti-Azərbaycan koalisiyası hələ də bölgədə maraqlarını təmin etmək niyyətindən əl çəkmək istəmir. Hətta irəlidə onları "bayraq dirəyi" əvəzinə "soyuq duş"un gözlədiyini bilsələr belə, yeni planlar üzərində baş sındırmaqdan usanmırlar. Aİ çətiri altında birləşmiş "səlibçi" müttəfiqlərin mülki missiyasının həyata keçirdikləri tədbirlər onun bəyan etdiyi məramı ilə qətiyyən üst-üstə düşmür. Biz, sadəcə olaraq, Qərbin Azərbaycana qarşı yeni təhdidlərə köklənən planlarına ayıq-sayıq yanaşmalı, bütün situasiyalara hazır olmalıyıq. Qərb artıq Azərbaycanın bir çox məsələlərdə, Ermənistandan fərqli olaraq, ona "yox" demək cəsarətini görüb. Bu dəfə də elə olacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Tofiq ABBASOV,**
**siyasi şərhçi**

Əlbəttə, Avropa İttifaqının Ermənistanda yerləşdirilmiş emissarları heç də mülki missiya deyil. Azərbaycan çox yaxşı bilir ki, bu missiyanın arxasında gizli və məkrli planlar durur. Brüsseldə keçirilən 5 aprel görüşündən əvvəl həm Antoni Blinken, həm də Ursula Fon der Lyayen Azərbaycan Prezidenti İlham Əliyevə etdikləri telefon zənglərində, guya, orada gündəlikdə yalnız iqtisadi zəminə malik məsələlərin dayandığını dedilər. Bu, sözün həqiqi mənasında, ağ yalan idi. Həmin üçtərəfli görüşün arxasında dağıdıcı niyyətlərin, planların olduğunu Bakı bilirdi.

Artıq kollektiv Qərbin istəklərinin nədən ibarət olduğu məlumdur. Onların öz öhdələrinə götürdükləri missiyanı yerinə yetirməsini Brüssel görüşünün nəticəsi kimi görmək olar. Hazırda hayların təəssübkeşləri Ermənistan ordusunu gücləndirmək, onu hər şeylə təchiz etməklə məşğuldurlar. Yəni, bu planın iqtisadi yardımlarla heç bir əlaqəsi yoxdur. Aşkar görünən həqiqət odur ki, məhz Qərb Qafqazda möhkəmlənmək, burada öz platsdarmını yaratmaq, hətta NATO bazasını bölgəyə gətirmək barədə düşünür. Bu məqsədlərə çatmaq üçün "maşa"ya çevirdiyi Ermənistana Şimali Atlantika Alyansına üzvlüyü də vəd ediblər. Əlbəttə, bu, baş tutan iş deyil. Amma separatçılara qucaq açan qüvvələr NATO-nin Qafqazdan hərb meydanı kimi yararlanmaq layihəsini gündəmə gətirə bilərlər.

Aydın məsələdir ki, Qərbin qarşısında Türkiyə, Rusiya və İran amilləri var. Onu da görürük ki, ABŞ-ın İrəvandakı səfirliyinin əməkdaşlarının sayı iki mindən çoxdur. Məsələ burasındadır ki, Qərb bunu düşmənlərinin – Rusiya və İranın mövcud olduğu məkanda təşkil edir. Onların elektron, peyk kəşfiyyat vasitələri məhz İrəvanda gecə–gündüz kəşfiyyat fəaliyyəti ilə məşğuldur. Əgər qlobal sistemdə böyük çaxnaşma meydana gələrsə, Vaşinqton Qafqaz bölgəsindən istifadə edəcək.

Hazırki siyasi konyukturada ABŞ və Avropanın istəyi, ilk növbədə, Türkiyə ilə Rusiyanı, sonra Türkiyə ilə Ermənistanı, daha sonra Türkiyə ilə Yunanıstanı toqquşdurmaqdır. Məqsəd həm də Azərbaycan–Türkiyə strateji tərəfdaşlıq sistemini pozmaqdır.

**Replika**

# Sübhaninin İrəvan sərsəmləməsi

## İranın Ermənistandakı səfirinin fitnəkar "güllə axtarışı"

**Adı və soyadı Allahın adını ehtiva edən səfirin "ikinci Qarabağ müharibəsində erməni əsgərləri İsrail silahı ilə öldürülüb" kimi cəfəngiyatına, dinsiz-imansız ağ yalanına rəsmi Tehranın heç bir reaksiya verməməsi, istər-istəməz, müəyyən suallar yaradır. Azərbaycanla mehriban qonşuluq və dostluq münasibətlərində maraqlı olduğunu yüksək kürsülərdən bəyan edən İİR rəhbərliyi niyə İrəvandakı səfirinə diplomatik həddini göstərmir, onun iki ölkə arasında soyuqluq yarada biləcək məsuliyyətsiz açıqlamalarının qarşısını almır?**



Ermənistanda diplomatik fəaliyyətinin bir ili tamam olmamış Mehdi Sübhani az qala İrəvanın ağzı ilə danışır. İİR Prezidenti İbrahim Rəisinin Qarabağın uzun illər sonra əzəli ərazisinə – Azərbaycana qovuşmasına sevindiyini birmənalı şəkildə bəyan etməsinə baxmayaraq, Mehdi Sübhani rəsmi Tehranın mövqeyindən fərqli siyasi xətt yürüdür. Bu adam daşıdığı diplomatik missiyasını və ranqını unudaraq Azərbaycana qarşı açıq ermənipərəst mövqedən çıxış edir. Özünün çirkin niyyətini Ermənistanın arxasında gizlənərək həyata keçirməyə cəhd göstərən səfir İrəvan isteblişmentinin əvəzinə danışır. Əgər belə deyilsə, onda Sübhaninin keçən ilin noyabrında dediyi "biz də (yəni İran) Qarabağın erməni əhalisinin qanuni və legitim hüquqlarının təmin edilməsinin tərəfdarıyıq" açıqlaması hansı diplomatik etiket və beynəlxalq hüquq müstəvisində izah oluna bilər? Ölkəsini ikinci dövlətdə təmsil edən elçinin üçüncü dövlətin ünvanına siyasi təxribat sayılacaq bu cür sərsəmləməsinə nə ad vermək olar? Yalnız düşmənçilik!

Müharibədə hər iki tərəfdən ölən də olur, yaralanan da. Bəs niyə İran səfiri ərazi bütövlüyünü tanıdığı Azərbaycan torpaqlarını otuz il işğal altında saxlamış dövlətin əsgərlərinin həlak olmasını faciə kimi təqdim edir, bizim hərbçilərimizin Vətən uğrunda canlarından keçmələrini isə gözü görmür? Məgər həmin hay dığalarını Azərbaycanın əzəli torpağı olan Qarabağa biz çağırmışdıq? 44 günlük müharibədə onları şir ürəkli oğullarımızın qabağında "canlı hədəfə" çevirənlərə etirazlarını bildirən müharibə qurbanlarının analarını İrəvanın Teatr meydanına Bakı toplamışdı?

Bəli, Azərbaycan hərbi sənayesi dünyanın inkişaf etmiş müxtəlif dövlətlərindən, o cümlədən İsraildən silahlar alıb, indi də alır. Bakı bu hərbi əməkdaşlıq üçün "sionist rejimlə" sonadək ölüm-qalım mübarizəsi aparacağına and içmiş İran hakimiyyətindən icazəmi almalı idi? Biz hələ həmin qurtuluş savaşımızda özünü müsəlman, şiə məzhəbli ali dini kəsim adlandıran İranın işğalçı Ermənistana ötürdüyü kəşfiyyat məlumatları, hərbi texnika üçün daşıdıqları yanacaq, silahlar barədə danışmırıq. Buradan belə bir məntiqi nəticə hasil olur ki, döyüş meydanında Azərbaycan əsgəri həm də İranın Ermənistana ötürdüyü həmin güllələrlə öldürülüb. O zaman sualımıza cavab verin: sizin müsəlman təəssübkeşliyiniz harada qaldı? Sizin İŞİD-dən nə fərqiniz oldu?

Birinci Qarabağ müharibəsinin gedişində İranın Ermənistana hərbi-siyasi dəstək verməsi sübuta ehtiyac duyulmayan faktdır. Məhz cənub qonşumuzun iştirakı ilə Azərbaycanın işğal edilmiş şəhər və kəndləri ermənilər tərəfindən xaraba qoyuldu, məzhəbçilərin gözləri qarşısında məscidlərimiz donuz fermalarına çevrildi. Bu dini vandalizmə etiraz etmək yerinə, fars tüccarlar Qarabağın yerüstü və yeraltı sərvətini daşıyıb satmaqla məşğul idilər. Bəlkə Mehdi Sübhaninin bütün bunlardan xəbəri yoxdur?

Belə məlum olur ki, rəsmi Tehran Azərbaycanla münasibətində diplomatik etiketə, qəbul olunmuş qaydalara, eyni zamanda, beynəlxalq hüququn norma və prinsiplərinə bir daha və diqqətlə nəzər yetirməli, Cənubi Qafqaz kimi həssas bölgədəki ölkələrdə onu təmsil edəcək elçinin seçimində yanlışlığa yol verməməlidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Brüssel görüşü: gizlinlər üzə çıxır

**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında keçirilən görüşün üzərindən sirr pərdəsi qalxır. Məlum olur ki, görüş zamanı Ermənistana hərbi dəstəyin göstərilməsi məsələsi də müzakirə olunub.**

Bu, əslində, gözlənilən idi. Çünki görüşdən iki gün əvvəl – aprelin 3-də ABŞ Dövlət katibinin Prezident İlham Əliyevə zəng etdiyi zaman dövlətimizin başçısı bildirmişdi ki, onda olan məlumata görə üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycanla sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Hayastanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Prezident anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulamışdı. ABŞ Dövlət katibi isə görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini bildirmişdi.

Həmçinin, aprelin 4-də Avropa Komissiyasının rəhbəri xanım Lyayenin dövlətimizin başçısına zəngində də üçtərəfli görüş məsələsi qaldırılmışdı. Cənab İlham Əliyev ABŞ Dövlət katibi ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə etmiş və regional inklüzivliyin vacibliyini bildirmişdi.

Ancaq indi görüşün, əslində, Ermənistana hərbi dəstək məqsədilə keçirildiyi üzə çıxır. Məlum olur ki, üçtərəfli görüşdə İrəvanın Avroatlantik məkana inteqrasiyası məqsədilə bağlı qapılar arxasında imzalanan çoxsaylı siyasi, iqtisadi və humanitar sahələrə dair sənədlər arasında hərbi əməkdaşlığı nəzərdə tutan saziş də imzalanıbmış. Bu çərçivədə ABŞ İrəvana Strateji Müdafiə İcmalının aparılması və yeni hərbi doktrina hazırlanması üçün ekspert dəstəyi verəcək. Həmin məqam Ermənistanla ABŞ arasında hərbi əməkdaşlığın əhəmiyyətli dərəcədə dərinləşməsindən xəbər verir. Strateji Müdafiə İcmalının və yeni hərbi doktrinanın hazırlanması təkcə cari müdafiə strategiyalarının deyil, həm də Ermənistanın milli təhlükəsizlik məsələlərinə yanaşmasının tamamilə yenidən nəzərdən keçirilməsini özündə ehtiva edir. Hərbi doktrinada bu cür dəyişikliklər ABŞ-nin aktiv maliyyə və texniki dəstəyi ilə müşayiət olunacaq ki, bu da Qərbin Cənubi Qafqazda sabitliyə təsir edən proseslərdə fəal iştirak etmək istəyini təsdiqləyir. Deməli, görüşdə açıqlanan 65 milyon dollar aysberqin görünən tərəfidir.

Vaşinqtonla yeni sazişlər kontekstində Ermənistanın müxtəlif proqramlar çərçivəsində Qərblə əməkdaşlığı əhəmiyyətli dərəcədə intensivləşəcək. Bu, təkcə NATO ilə hərbi əlaqələrin dərinləşdirilməsi deyil, həm də Ermənistan silahlı qüvvələrinin qarşılıqlı fəaliyyət və hazırlıq səviyyəsinin yüksəldilməsi deməkdir. Artan əməkdaşlığa NATO təlimlərində daha çox iştirak, qabaqcıl texnologiyaların əldə edilməsi və təcrübə mübadiləsi daxil ola bilər ki, bu da öz növbəsində Ermənistanın hərbi potensialını gücləndirməyə kömək edir. Birləşmiş Ştatların İrəvana hərbi və müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə inkişaf etdirmək, İranla sərhədə xüsusi diqqət yetirməklə, sərhəd nəzarətini və təhlükəsizliyi gücləndirmək üçün lazımi yardım göstərməsi də yeni sazişdə nəzərdə tutulan məqamlardandır.

Avropa İttifaqının isə Ermənistan silahlı qüvvələrinə dəstək məqsədilə Avropa Sülh Fondu çərçivəsində yardım paketini qəbul edəcəyi məlum olub. Bu paket Ermənistanın müdafiə sektorunda milli təhlükəsizliyini, sabitliyini və dayanıqlığını gücləndirmək məqsədi daşıyır. O, həmçinin əməliyyat səmərəliliyini artıracaq, Aİ və NATO standartlarına uyğunlaşmanı sürətləndirəcək və Ermənistan silahlı qüvvələrinin qarşılıqlı fəaliyyətini təmin edəcək. Yardım paketi, həmçinin Hayastan ordusunun Aİ-nin Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində əməliyyat və missiyalarda iştirak imkanlarını gücləndirmək məqsədi daşıyır. Məlumata görə, Avropa Sülh Fondu vasitəsilə Ermənistana yardım paketinin qəbulu məsələsində artıq Avropa İttifaqında konsensus əldə olunub. Aİ və Ermənistan mütəmadi olaraq müdafiə və təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr də aparacaq. Aİ Ermənistana Azərbaycanla sərhəddə müdafiə infrastrukturunun, o cümlədən mühəndis istehkamlarının yaradılmasında da yardım edəcək.

Əlbəttə, ölkələrin bir-biri ilə əməkdaşlığı, o cümlədən hərbi sazişlər imzalaması onların suveren hüququdur. Amma nəzərə almaq lazımdır ki, burada söhbət beynəlxalq hüquqa hörmətlə yanaşan dövlətdən deyil, əksinə, ona hörmətsizlik nümayiş etdirən, qonşu ölkənin BMT tərəfindən tanınmış ərazilərini 30 ilə yaxın işğal altında saxlamış Ermənistandan gedir. Xatırlatmaq yerinə düşər ki, Hayastan Azərbaycana qarşı konstitusiyasında təsbit olunmuş ərazi iddialarından hələ də əl çəkməyib. Bu ölkənin Azərbaycana qarşı işğalçı niyyətlərini əsas qanunundan çıxarmadan gücləndirilməsinə çalışılması keçmiş münaqişəni qızışdırmağa və sülh prosesini pozmağa bərabərdir. Aİ-nin Azərbaycanla şərti, yəni hələ delimitasiya və demarkasiya olunmamış sərhədin tamhüquqlu cəbhə xəttinə çevrilməsində, o cümlədən mühəndis istehkamlarının inşasında və çoxsaylı atəş mövqelərinin yaradılmasında Ermənistana yardımını İrəvanı yeni müharibəyə sürükləməkdən başqa cür qiymətləndirmək çətindir.

Onu da qeyd edək ki, bir neçə gün öncə ABŞ-nin İrəvandakı səfiri Kristina Kvin səfirlikdə Ermənistan müdafiə nazirliyi ilə fəal əməkdaşlıq edəcək hərbi müşavirin də çalışacağını bəyan edib. Diplomat, həmçinin bəyan edib ki, Ermənistan Birləşmiş Ştatlardan zirehli təcili yardım maşınları istəyib və böyük ehtimalla tezliklə onları alacaq. Hərçənd, girişdə qeyd etdiyimiz kimi Brüssel görüşü ərəfəsində ABŞ və Aİ müxtəlif səviyyələrdə rəsmi Bakını əmin etməyə çalışırdılar ki, əməkdaşlıqda hərbi komponent yoxdur.



İndi isə onlar açıqlanan sənədləri təkzib etmək yolu tutublar. Dövlət Departamentinin mətbuat xidmətinin Brüsseldə keçirilmiş üçtərəfli görüşdə Ermənistana geniş hərbi dəstəyin göstərilməsi məsələlərinin əksini tapdığı sənədin mətbuatda yayılmış fotosu ilə bağlı AZƏRTAC-ın ABŞ bürosunun sorğusuna cavabı belə deməyə əsas yaradır. “Bu sənəd sırf dezinformasiyadır, təhlükəsizlik məsələləri gündəmdə olmayıb. Biz sizin diqqətinizi aprelin 5-də Brüsseldə keçirilmiş üçtərəfli görüşün yekununda Avropa İttifaqı və Ermənistanla birlikdə qəbul etdiyimiz press-relizə yönəltmək istərdik. Avropa İttifaqı və Ermənistanla birlikdə keçirilmş Brüssel görüşündə diqqət yalnız ticarət tərəfdaşlıqlarını şaxələndirməyə və humanitar ehtiyaclarını həll etməyə çalışan Ermənistanın iqtisadi dayanıqlılığına, o cümlədən Ermənistanda demokratiya və qanunun aliliyi kimi sahələrdə davam edən islahatları dəstəkləməyə yönəlib” – deyə Dövlət Departamentinin mətbuat xidmətinin sorğuya cavabında qeyd olunub.

Mediada yayılmış sənədlə bağlı Moskvanın mövqeyi də özünü çox gözlətməyib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova dünən keçirdiyi brifinqdə Brüssel görüşündə Ermənistandakı Rusiya hərbi bazası və sərhədçilərinin ABŞ–Aİ–NATO mütəxəssisləri ilə əvəz edilməsi planının razılaşdırılmasına dair yayılan məlumatlara münasibət bildirib. Deyib ki, ölkəsi Brüssel danışıqları barədə mətbuata sızan məlumatlarla bağlı Ermənistandan dəqiq reaksiya gözləyir. Diplomat bildirib ki, İrəvan daha əvvəl Qərb ölkələri ilə əməkdaşlığın üçüncü ölkələrə qarşı yönəlmədiyinə əmin edib: “Bu faktorları nəzərə alaraq, Ermənistan hakimiyyətindən yayılan məlumatlara aydın reaksiya, idealda isə bunun inkar edilməsini gözləyirik. Bütün hallarda söz rəsmi İrəvanındır”.

Xanım Zaxarova qeyd edib ki, qərblilər Cənubi Qafqazdakı qonşuları arasında qarşıdurma yaratmağa çalışırlar və Ermənistana yalnız yeni böyük yanğını alovlandırmaq istədikləri alət rolu verilir: “Brüsseldəki görüş zamanı, həqiqətən də, İrəvana Rusiya bazasının və sərhədçilərinin Qərb mütəxəssisləri ilə dəyişdirilməsi, eləcə də Ermənistan Respublikasında kritik infrastrukturun istiqamətinin dəyişdirilməsi ilə bağlı planların qoyulduğu ortaya çıxsa, Moskva təəccüblənməyəcək”.

**Mövzu ilə bağlı “XQ”yə şərh verən politoloq Yeganə Hacıyeva** bildirdi ki,



iştirakçılar görüşdən sonra kifayət qədər məlumat veriblər. Ancaq onların nə deməsindən, mediada hansı məlumatların getməsindən asılı olmayaraq, bu qənaətə gəlmək olur ki, burada söhbət təkcə iqtisadi, yaxud demokratiya məsələlərindən getmir: “Silah-sursatın özünün verilməsi şərt deyil. İqtisadi dəstək görüntüsü yaradaraq, bu ad altında da Ermənistana hərbi və hərbi-texniki dəstəyin verilməsi tamamilə mümkün idi. Hərbi-texniki dəstək üçün maliyyənin verilməsi elə hərbi dəstəyin verilməsi anlamına gəlirdi ki, hazırda biz bunun şahidiyik”.

Y.Hacıyeva qeyd etdi ki, digər məqam Fransanın Ermənistandakı səfiri Olivye Dekotinin görüşdən sonrakı açıqlamasıdır: “Səfir görüşdən dərhal sonra bildirdi ki, hamının əldə etməyə çalışdığı anti-dron ssitemləri Ermənistana veriləcək. Bu da Brüssel görüşünün nəticəsi kimi qiymətləndirilə bilər və o anlama gəlirdi ki, görüşdə hərbi-texniki məsələlər müzakirə olunub. Eyni zamanda, Aİ komissarı Jozep Borrelin verdiyi açıqlamanı nəzərə alsaq, görüşdə Ermənistana ciddi hərbi dəstəyin göstərilməsi ilə bağlı qərar verildiyini demək mümkündür”.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov**



isə qəzetimizə açıqlamasında bildirdi ki, Blinken okeanın o tayından min kilometrlərlə yolu Ermənistana 65 milyon ayrılacağını elan etmək üçün gəlməmişdi: “Güman etmək olardı ki, görüşdə İrəvana hərbi və təhlükəsizlik sahəsində müəyyən vədlər veriləcək və ya bununla bağlı sənəd imzalanacaq. Əgər Ermənistana təkcə iqtisadi yardım ayrılacaqdısa, bununla bağlı görüşü qapalı keçirməyə ehtiyac yox idi. Biz isə Brüsseldə qapalı görüşün keçirilməsinin şahidi olduq. Bu, birinci məqamdır. İkinci məqam ondan ibarətdir ki, Qərb “erməni məsələsi” adı altında Cənubi Qafqazda müəyyən məqsədlərini həyata keçirmək istəyir. Ancaq mən əminəm ki, ABŞ-də vəziyyətin fərqində olan və bununla razılaşmayan kifayət qədər insan var. Onlar 2024-cü ilin noyabrından sonra tamamilə fərqli siyasət yürüdəcəklər və Azərbaycanla ənənəvi müttəfiqlik münasibətlərini davam etdirəcəklər”.

Z.Məmmədov qeyd etdi ki, açıqlanan sənəd İrəvanı müharibəyə təhrik etməyə xidmət edir. Müsahibimiz öz fikirlərini bununla əsaslandırdı ki, Ermənistana müdafiə və hücum xarakterli silahların verilməsi İrəvanın gələcəkdə ölkəmizə müharibə elan etməsinə gətirib çıxara bilər.

Onu da bildirək ki, Brüssel görüşü ilə bağlı Ermənistan cəmiyyətində də birmənalı mövqe yoxdur. Hayastanın “Birlikdə” hərəkatının koordinatoru Aram Sarkisyan Ermənistan üçün ümumi təhlükəsizlik sisteminin qurulmasında Vaşinqton və Brüsselin iştirakı ilə bağlı mətbuata sızan informasiyalara hakimiyyətin hələ də cavab vermədiyindən narazılıq edib. O, jurnalistlərə açıqlamasında ABŞ və Aİ ilə razılaşmaların erməni xalqından gizli saxlanıldığını, rəsmi bəyanatlarda bu barədə bir kəlmə belə olmadığını bildirib. “Ermənistan hakimiyyəti son dərəcə təhlükəli oyun aparır. Region geosiyasi “Bermud üçbucağı”na çevriləcək. Brüsseldəki razılaşmalar İran və Rusiyaya qarşı yönəlib. Bunu həm Tehran, həm də Moskva birbaşa və ya dolayısı ilə açıqlayır”, – deyən Sarkisyan Paşinyan iqtidarının eyni vaxtda iki stulda oturmağa çalışmasının haylara baha başa gələcəyini vurğulayıb.

***Səxavət HƏMİD***
***XQ***

# Böyük Qayıdışın daha bir qaranquşu – Kərkicahan

## *Qarabağın ilk şəhid qəsəbəsi də dirçəldilən yurd yerləri sırasındadır*

**Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə nəticəsində öz ərazi bütövlüyünü və 2023-cü ildə Qarabağda keçirilmiş birgünlük antiterror tədbirləri sayəsində suverenliyini tam bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə başladılan genişmiqyaslı bərpa-quruculuq işləri böyük sürətlə davam etdirilir.**

Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindəndir. Təsadüfi deyil ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır və cari ildə bu məbləğ 4 milyard



manat nəzərdə tutulub.

Həyata keçirilən böyük layihələrin nəticəsi olaraq Qarabağda və Şərqi Zəngəzurda bərpa edilmiş yaşayış məntəqələrinin və daimi yaşamaq üçün bu yerlərə qayıdan məcburi köçkünlərin sayı sürətlə artmaqdadır. Tezliklə “Böyük Qayıdış” proqramı çərçivəsində Şuşa, Xankəndi və Xocalı şəhərləri, həmçinin Xocalı rayonunun Malıbəyli, Xankəndi şəhərinin Kərkicahan qəsəbələrinə də əhalinin köçürülməsinə başlanılacaq.

Bütün bunlar işğalçı Ermənistanın quldur silahlı bandalarının 1991–1993-cü illərdə Qarabağda və Şərqi Zəngəzurda törətdiyi soyqırımı və deportasiya siyasətinin sağ qalmış qurbanlarını hamıdan çox sevindirir, yüz minlərlə insanın doğma yurda qayıtmaq arzusuna davamlı olaraq qapı açır. Separatçı quldurların Xocalı rayonunun Kosalar kəndinə basqını zamanı doğma ocağını 16 yaşında tərk etmiş məcburi köçkün və artıq 48 yaşlı jurnalist olaraq bu qalib və əzəmətli qayıdış üçün yaradılan genişmiqyaslı hazırlıq işlərini yerindəcə izləmək və işıqlandırmaq üçün bugünlərdə Xankəndidə də səfərdə oldum.

Şəhərdə son həftələrdə separatçı xuntanın həyat üçün təhlükə törədən, ürəkbulandıran izləri sürətlə aradan qaldırılır. ANAMA əməkdaşları hərbi sursat və partlayıcı maddələrin zərərsizləşdirilməsi, “Bakı Abadlıq Xidməti” MMC-nin təmizlik qrupları isə şəhərin sanitar təmizliyi ilə bağlı işləri sürətlə davam etdirir. Şəhərlə tanışlıqdan gəldiyim ümumi qənaət budur ki, burada dinc əhali xuntanın əsarəti altında ağır şəraitdə yaşamış, yalnız qarətçi hərbçilərin və onların əlaltılarının güzəranı xoş keçib.

Çoxmərtəbəli kommunal evlər və kasıblar yaşayan məhəllələr bərbad vəziyyətdədir. Abad görünən tikililər isə imkanlılara məxsus villalar və obyektlərdir. Xunta rəhbərliyinin əyləşdiyi “baş bina”ya isə 3 onillikdə adi bir rəng də çəkilməyib. Onlar üçün öz qazancları hər şeydən






üstün olub. Bunu mərkəzi küçələrdə sıralanmış müasir dizaynlı bank, ticarət və xidmət obyektləri aydın əks etdirir. Xankəndinin Ağdam tərəfindən uzanan baş küçəsi və mərkəzi meydanın sovet dövründə salınmış asfaltının çoxsaylı yamaqları da burada quldur-qarətçilərin at oynatdıqlarından xəbər verir.

İşğaldan əvvəl soydaşlarımızın Qarabağ xanları zamanından yaşadıqları, böyüyüb Xankəndinin yuxarı hissəsindəki yamacları əhatə edən, şəhəri təzə ərzaq məhsulları ilə təchiz edən Kərkicahan qəsəbəsi isə ötən illərdə yandırılıb, dağıdılıb və xarabazara çevrilib. Xuntanın Qarabağdan rüsvaycasına qaçışından sonra burada da genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Separatçıların Xankəndi ətrafından çıxardıqları kərkicahanlılar bu yerlərə ilk qayıdan məcburi köçkün icmalarından olacaq.

Kərkicahan qəsəbəsinin yenidən qurulması və abadlaşdırılması işlərinin icraçısı olan “Bakı Abadlıq Xidməti” MMC-nin layihə rəhbəri Halil Özdendən aldığımız məlumata görə, ilkin mərhələdə 50 fərdi yaşayış evinin bərpası və zəruri infrastrukturun yaradılması istiqamətində işlər sürətlə davam etdirilir. Cari ilin fevral ayından icrasına başlanılan layihə çərçivəsində 3 ev yenidən tikilib, 47 evin isə əsaslı təmiri aparılır. 400-ə yaxın işçinin cəlb edildiyi layihənin avqust ayına kimi yekunlaşdırılması nəzərdə tutulub. H.Özden onu da bildirdi ki, işçilərin seçimi zamanı əsasən yerli kadrlara üstünlük verilir və hazırda burada işləyənlər arasında kərkicahanlılar da az deyil.

Xatırladaq ki, Azərbaycan Respublikasının Xankəndi şəhərinin inzibati ərazi vahidinə daxil olan Kərkicahan qəsəbəsi 28 dekabr 1991-ci ildə Ermənistan silahlı



qüvvələri tərəfindən işğal edilib. 44 günlük İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq qəsəbə Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında 10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanata əsasən həmin tarixdən Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarətinə keçib. 19–20 sentyabr 2023-cü il tarixində Qarabağda həyata keçirilən lokal antiterror tədbirlərindən sonra isə qəsəbə Azərbaycan ordusunun tam nəzarətinə keçib. Ərazidə həyat üçün zəruri təminatlar bərpa edilib.

Hazırda respublikamızın müxtəlif bölgələrində məskunlaşmış kərkicahanlıların ümumi sayı 2500 nəfəri ötüb. Bu ilin avqust ayından etibarən Kərkicahan sakinlərinin doğma yurd həsrətinə son qoyulacaq. Qarabağda ilk deportasiyaya məruz qalmış qəsəbə əhalisi öz evlərinə də ilkin olaraq qayıdanlardan olacaqlar.

***Mahir RƏSULOĞLU,***
***Xocalı rayonundan məcburi köçkün, yazıçı-jurnalist***

***Bakı – Xankəndi – Bakı***

# Azərbaycanda elektromobillərə “yaşıl işıq” yandırılır



**Son illər dünyanın avtomobil bazarında elektriklə işləyən nəqliyyat vasitələrinə tələbatın getdikcə artması müşahidə olunur. Artıq dünyanın nəhəng avtomobil istehsalçıları ənənəvi yanacaqla işləyən nəqliyyat vasitələrinin ekologiyaya vurduğu zərəri azaltmaq məqsədilə elektromobillərin istehsalını ildən-ilə genişləndirirlər.**

Azərbaycanda da elektrik mühərriki ilə işləyən avtomobillərdən istifadənin genişləndirilməsi istiqamətində mühüm addımlar atılır. Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də təmiz ətraf mühitə nail olmaq və “yaşıl artım” ölkəsinə çevrilmək kimi hədəflər müəyyənləşdirilib. Adıçəkilən sənəddə ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin təşviqini gücləndirmək üçün də bir sıra tədbirlər nəzərdə tutulur. 2024-cü il martın 7-də isə dövlət başçısı “Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında” sərəncam imzalayıb.

Aprelin 17-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun rəhbərliyi ilə ölkə Prezidentinin sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsi ilə bağlı iclas keçirilib. Baş nazir dövlət başçısının sərəncamından irəli gələn tədbirlər, onların icrasının gedişi və qarşıda duran vəzifələr barədə məlumat verib.

Tədbirdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və energetika nazirinin müavini Samir Vəliyev məruzələrlə çıxış ediblər. Daha sonra elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin əhatə dairəsinin genişləndirilməsi, bu sahədə zəruri infrastrukturun yaradılması, onların dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi tədbirlərinin görülməsi, habelə bu işlərə sahibkarlıq subyektlərinin cəlb olunması məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi və digər zəruri məsələlər barədə müzakirələr aparılıb. İclasın yekununda qarşıda duran vəzifələrin icrası istiqamətində irəli sürülən təkliflər nəzərə alınmaqla aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

Yeri gəlmişkən, son illər dövlətin elektromobillərin istifadəsinin təşviqi istiqamətində həyata keçirdiyi bir sıra stimullaşdırıcı tədbirlərin müsbət nəticələri getdikcə daha çox hiss olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, 2020-ci ildə Azərbaycana elektrik mühərriki ilə işləyən 191 avtomobil idxal olunmuşdusa, 2023-cü ildə onların sayı 3190-a çatıb. Statistikaya əsasən, ötən il ölkəyə gətirilən elektromobillərə 125 milyon 268 min ABŞ dollar xərclənib. Bu tendensiya cari ilin birinci rübündə də davam edib. Dövlət Gömrük Komitəsinin hesabatında bildirilir ki, yanvar-mart aylarında Azərbaycana 35 milyon 308 min dollar dəyərində 830 ədəd elektromobil idxal olunub. 2023-ci iln eyni dövrü ilə müqayisədə elektromobillər dəyər ifadəsi ilə 18 milyon 340 min dollar və ya 2,1 dəfə, miqdar ifadəsi ilə 422 ədəd və ya 2 dəfə artıb. Bu da elektrikli avtomobillərə marağın getdikcə artmasının göstəricisidir.

Bununla yanaşı, elektrikdoldurma məntəqələrinin yaradılmasında istifadə olunan cihaz və avadanlıqların idxalının da gömrük rüsumlardan azad edilməsi müsbət məqamlardan biri kimi diqqət çəkir. Ekspertlər hesab edirlər ki, elektromobillərdən istifadənin təşviqi üçün təkcə idxal və satış qiymətlərinin azaldılması deyil, əlverişli infrastrukturun yaradılması da vacib məsələdir. Yəni ölkədə elektromobillərin kifayət sayda şarj məntəqələri, ehtiyat hissələri anbarları olmalı, onlara keyfiyyətli servis xidməti göstərilməlidir.

Ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə bildirib ki, Azərbaycanda ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə üzrə zəruri infrastrukturun yaradılması, dövriyyəsinin stimullaşdırılması, maliyyə əlçatanlığının artırılması istiqamətində tədbirlər davam etdirilir. Bu məqsədlə işçi qrupun yaradıldığını bildirən R. Səttarzadənin sözlərinə görə, qurumun hazırladığı təkliflər əsasında həyata keçirilən tədbirlər nəticəsində ölkədə ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə genişlənib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Ekspert rəyi



**Elməddin MURADLI,**
**nəqliyyat üzrə ekspert**

Hazırda dünyada trendə çevrilmiş yeniliklərdən, texnologiyalardan biri də elektriklə işləyən avtomobillərdir. Bu avtomobillər ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün bir ideya olaraq meydana çıxıb və artıq dünyanın böyük bir hissəsində yayılmağa başlayıb. Azərbaycanda da elektromobillərə çox böyük maraq, tələbat var. Xüsusən də, Çin istehsalı olan avtomobillər qiymətinə görə əlçatan olduğu üçün daxili bazara daha çox daxil olur. İnsanlar da bu avtomobillərdən həvəslə istifadə edirlər.

Bununla belə, hələlik, ölkəmizdə elektrik avtomobilləri üçün geniş baza yoxdur. Maddi-texniki təminatın mövcud səviyyəsi insanlarda belə avtomobilləri almaqda bir qədər tərəddüd yaradır. Onları belə avtomobillərdən istifadə zamanı texniki xidmətin necə olacağı, ehtiyat hissələrinin tapılıb-tapılmaycağı, bu sahədə bacarıqlı ustaların xidmətindən lazımi anda istifadə edə biləcəkləri kimi məsələlər düşündürür. Ən vacib və ciddi narahatlığa səbəb olan məsələ isə elektrikdoldurma məntəqələri ilə bağlıdır. Hesab edirəm ki, bu sahədə ciddi addımlar atılmalıdır. Aidiyyəti qurumlar cənab Prezidentin bununla bağlı verdiyi tapşırıqları vaxtında icra etsələr, ölkədə elektrikdoldurma stansiyalarının sayı sürətlə artacaq. Eyni zamanda, insanların bu avtomobilləri yalnız Bakıda deyil, bölgələrdə də rahat idarə etmələri üçün hər yerdə lazımi infrastruktur qurulmalıdır. Beynəlxalq təcrübəyə baxsaq, görərik ki, hətta bir sıra ölkələrdə elektromobil alan insanlara dövlət tərəfindən müəyyən güzəştlər edilir, kompensasiyalar verilir. Məsələn, elektrikdoldurma qurğusu, cihazı ona hədiyyə olunur. Bəzi hallarda isə onun çəkdiyi xərcin 60-70 faizini dövlət özü qarşılayır ki, insanlar buna maraq göstərsinlər.

Azərbaycanda da bu istiqamətdə müəyyən addımlar atılmalıdır. Düzdür, son dövrlər müəyyən dəyişikliklər müşahidə olunur, bu sahədə kifayət qədər stimullaşdırıcı addımlar atılır. Ölkəyə gətirilən elektromobillərə gömrük güzəştləri tətbiq olunur, belə nəqliyyat vasitələri əlavə dəyər vergisindən azad edilir. Cənab Prezidentin tapşırığı ilə ölkədə elektrikdoldurma stansiyalarının sayının artırılması ilə bağlı işlər görülür. Bununla yanaşı, tikinti şirkətlərinin üzərinə belə bir məsuliyyət qoyulmalıdır ki, onlar da inşa etdikləri yeni binaların həyətlərində, qarajlarında tikinti normalarını gözləməklə sakinlər üçün elektrikdoldurma stansiyaları yaratsınlar.

Yeri gəlmişkən, gələcəkdə elektromobillərlə bağlı müəyyən fəsadların olması ehtimalı da var. Çünki elektriklə işləyən avtomobillər üçün istehsal olunan batareyaların utilizasiya prosesi bir qədər çətin görünür. Bu prosesin necə tənzimlənməsi insanları çox düşündürür. Bununla belə, gələcəyə çox da bədbin yanaşmamalıyıq. Ümid edirəm ki, bunun da müvafiq həll yolu tapılacaq.



## Əsgəran yolu təzələnir

***Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, Bərdə–Ağdam avtomobil yolunun 40-cı kilometrini Əsgəran qəsəbəsi ilə birləşdirən (Ağdam şəhərinin dairəvi yolu) və uzunluğu 18 kilometr olan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla II texniki dərəcəyə uyğun olaraq inşa edilir.***

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisində lazımi sayda qüvvə çalışır.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası da aparılır.

Yeni avtomobil yolu Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərə Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etmələrinə imkan verəcək.

## Ərzaq ucuzlaşır

***Son zamanlar Azərbaycanda inflyasiya tempi getdikcə azalır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-mart aylarında ölkədə qiymət artımı cəmi 1 faiz təşkil edib. Hesabat dövründə ərzaq mallarının qiymətlərində isə ucuzlaşma qeydə alınıb.***



Komitənin 2024-cü ilin yanvar-mart ayları üzrə hesabatında bildirilir ki, ölkədə qida məhsullarının, eləcə də içkilər və tütün məmulatlarının qiymətində 0,3 faiz ucuzlaşma baş verib. Bununla belə, ilin ilk rübü ərzində qeyri-qida malları 1,4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər isə 2,5 faiz bahalaşıb.

***XQ***

# İnvestisiyaya “açıq qapı” genişlənir

## *Son 20 ildə ölkə iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılıb*

**Son 20 ildən artıq bir müddətdə ölkə iqtisadiyyatının davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət həyata keçirilib. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində qeyri-neft sektorunun inkişafı təmin edilib, bu sahədə əhəmiyyətli irəliləyişlərə nail olunub. Bu tədbirlərin davamı olaraq iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirilib.**

Göstərilən hədəfə nail olmaq üçün dövlət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının genişləndirilməsi, ən yüksək beynəlxalq standartlara uyğun olaraq elektron dövlət xidmətləri göstərilməsi sahələrini əhatə edən kompleks tədbirlər həyata keçirilib.

Dövlət–sahibkar münasibətlərinin inkişafından bəhs edərkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, son dövrlərdə ölkədə özəl sektorun genişlənməsi diqqətdə saxlanılıb. Bu məqsədlə yaradılan Sahibkarlığın İnkişafı Fondu tərəfindən təkcə ötən il 2726 layihənin maliyyələşdirilməsinə 145,9 milyon manat güzəştli kredit verilib. Həmin kreditlər hesabına 3026 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Ölkədə daxili investisiya qoyuluşu ilə bağlı yüksək göstəricinin əldə edilməsi demək olar ki, innovativ yanaşmaların tətbiqi ilə investisiya cəlbediciliyinin artırılmasının diqqətdə saxlanılmasından irəli gəlir. Bununla bərabər, ölkədə davamlı makroiqtisadi və maliyyə sabitliyi də investisiya fəallığını sürətləndirir. Sağlam və şəffaf biznes mühitinin yaradılması isə respublikaya yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırır. Bu strateji istiqamətin önəmi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də və bir sıra dövlət proqramlarında vurğulanır, biznesin fəaliyyətinin beynəlxalq normalar əsasında formalaşması, həmçinin özəl sektorun inkişaf tempinin yüksəldilməsi məqsədilə yeni stimulların tətbiqi, iqtisadi islahatların davam etdirilməsinin zəruriliyi göstərilir.

Xarici investisiyaya gəldikdə isə deyə bilərik ki, son bir neçə ildir ölkəmizdə milli iqtisadiyyatımızın investisiya cəlbediciliyi baxımından bir sıra uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına çıxdığı göstərilir. Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması, təbii ki, aparılan islahatlarla bağlıdır.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsində 1995-ci il yanvarın 13-də qəbul edilən “İnvestisiya fəaliyyəti haqqında” Qanun mühüm önəm daşıyır. Bu sənəd investisiyaların iqtisadiyyata cəlbini stimullaşdırmaqla bərabər, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. “Xarici investisiyaların qorunması haqqında” Qanun da sərmayədarların hüquq və mənafelərinin qorunmasını, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılmasını şərtləndirir.

Bu və digər tədbirlərin nəticəsində son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici investisiya yatırılıb. Belə bir göstərici isə ölkəmizdə mövcud olan davamlı makroiqtisadi və maliyyə sabitliyi nəticəsində əldə edilən daxili və xarici investisiya fəallığı şərtləndirib. Sağlam və şəffaf biznes mühitinin yaradılması ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırıb. Azərbaycanın beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalaması da iqtisadiyyata yatırılan daxili və xarici investisiya həcminin artırılmasını sürətləndirib.

Azərbaycanda iqtisadi artımın getdikcə yüksəlməsi, qeyri-neft sektorunda nəzərə çarpan müsbət tendensiyalar, eləcə də biznesin davamlı olaraq şəffaflaşması da investisiya qoyuluşuna ciddi töhfə verir. Bu məsələdə həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin təmin edilməsi, cəmiyyətdə vergi mədəniyyətinin formalaşması əsaslı rol oynayır. Yeri gəlmişkən, bu gün əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, şəffaf münasibətlərin qurulması, “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımlar da xüsusi diqqət çəkir.

Hazırda respublikada dövlət müəssisələrinə ayrılan sərmayələrin səmərəli istifadəsinə də nəzarət gücləndirilib. Belə ki, bu müəssisələrin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək məqsədi ilə Azərbaycan İnvestisiya Holdinqi yaradılıb.

Bu, dövlət müəssisələrinin profisitinin artırılmasına, onların büdcədən asılılıqlarının azaldılmasına, azad bazar münasibətlərinin hərtərəfli inkişafına, özəl mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafın sürətləndirilməsinə hesablanan mühüm bir qərardır. Başqa sözlə, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması respublikada yerli və xarici investisiyaların sağlam təməllər üzərində reallaşdırılmasına öz müsbət təsirini göstərir, ölkədə vahid idarəetmə modeli işə düşür və bununla da dövlət şirkətlərinin maliyyə durumlarının yaxşılaşdırılması istiqamətində yüksək göstəricilər əldə edilir.

***V.BAYRAMOV***
***XQ***



## Ekspert rəyi



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**

Azərbaycanın xarici investisiyalar üçün nə qədər cəlbedici bir ölkəyə çevrildiyini xarakterizə edə biləcək ən yaxşı göstəricilərdən biri və deyərdim ki, birincisi son 20 ildə Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminə dair göstəricilərdir. 2024-cü ilin hesabatına görə, Azərbaycanın “Top-7”yə daxil olması da bunun bariz ifadəsidir.

Qeyd edim ki, son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox xarici investisiya yatırılıb. Müqayisə üçün deyək ki, bu qədər xarici sərmayə Ermənistanın 62 illik dövlət büdcəsinə bərabər bir məbləğdir. Neftlə bağlı iqtisadiyyatı şaxələndirmək yolunu tutmuş Azərbaycan hökumətinin ən böyük uğurlarından biri də son 20 ildə ölkə iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların 2/3 hissəsinin və ya 200 milyard dollar yaxın məbləğinin məhz iqtisadiyyatın real sektoruna yönəldilməsi oldu.

Azərbaycan hökuməti yerli və xarici investisiyaların qorunmasını təmin edən hüquqi bazanın yaradılması ilə yanaşı, investisiyaların təşviqi istiqamətində də mühüm addımlar atır. Belə ki, bu gün müvafiq qaydada investisiya təşviqi sənədini əldə edən investorların aldıqları texnika, texnoloji avadanlıqlar və qurğuların idxalı 7 il müddətinə gömrük rüsumundan azaddırlar və eyni zamnda onların gəlirinin habelə əldə etdikləri mənfəətin 50 faizi də 7 il müddətinə vergidən azad olunur. İnvestisiya təşviqi sənədi almış investor, eyni zamanda, aldığı texnikanın, texnoloji avadanlıqların və qurğuların idxal əlavə dəyər vergisindən, əmlak vergisindən və torpaq vergisindən də 7 il müddətinə azad edilirlər. Təbii ki, bütün bunlar xarici investorlar üçün çox önəmlidir.

Hazırda Azərbaycan bölgədə “yaşıl enerji” istehsalının lokomotivinə çevrilməkdədir. Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri tərəfindən reallaşdırılmış və yaxın zamanlarda reallaşdırılması nəzərdə tutulan “yaşıl enerji” layihələri, Avropa ölkələri ilə “yaşıl enerji” istehsalı və ixracı sahəsində əməkdaşlığa dair imzalanmış sənədlər yaxın gələcəkdə Azərbaycanda alternativ enerji istehsalı layihələrinə milyardlarla dollar xarici sərmayənin cəlb edilməsinə imkan yaradacaq. İndi xarici investorlar ölkəmizin ərazisində məhz bu sahəyə investisiyalar yatırtmaq üçün çoxsaylı müraciət edirlər.

Azərbaycan bu gün bütün dünyada sözü də imzası qədər etibarlı olan bir dövlət imicini formalaşdırıb. Biz hazırda nəinki xarici investisiyaların cəlb edilməsi üçün münbit ölkə imicini formalaşdırmışıq, bu gün həm də ehtiyacı olan ölkələrə yardım edən dövlət statusunu qazanmışıq. Prezident İlham Əliyevin sözləri ilə desək, biz heç kimdən xahiş etmirik ki, iqtisadiyyatımıza investisiya yatırsınlar. Biz sadəcə ölkəmizdə bütün səviyyədən olan investorlar üçün bərabər investisiya mühiti yaradırıq. Bunu görüb dəyərləndirən investorlar isə Azərbaycana özləri gəlirlər.

Azərbaycan dünya miqyasında investisiya üçün cəlbedici ölkə statusunu gündən-günə gücləndirir. Ölkədə yaradılmış siyasi və iqtisadi sabitlik, əlverişli biznes və investisiya mühiti xarici investorlara istənilən layihəni uğurla həyata keçirilməyə təminat verir. Bu isə istənilən investor üçün əsas şərtlərdir.

# Xəzərin süni adaları cənnəti xatırladacaq...

**Milli Məclisdə müzakirə edilən “Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” qanun layihəsində Xəzər dənizinin respublikamıza aid hissəsində süni torpaq sahələrinin yaradılması ilə bağlı prioritet istiqamətlər önə çəkilir, ilk növbədə, müəyyənləşdirilən müraciət qaydası diqqətə çatdırılır. Sənəddə bu məqsədlə aidiyyəti dövlət qurumları, hüquqi və fiziki şəxslərin müvafiq icra hakimiyyəti orqanına müraciətinin zəruriliyi vurğulanır, eyni zamanda süni torpaq sahəsinin yaradılması üçün ayrılmalı su fondu, torpaq sahəsinin yerləşdiyi yer və onun ölçüsü, süni torpaq sahəsinin yaradılması məqsədi, üzərində inşa ediləcək tikinti obyektlərinin təyinatı, habelə tikinti obyektlərinin inşası ilə bağlı işlərin yekunlaşma müddətinin göstərilməsi nəzərdə tutulur.**

əlaqədar mətbuatda geniş müzakirələr aparılması da Xəzər dənizində süni torpaq sahələrinin yaradılmasının məsuliyyətli bir məsələ olmasından xəbər verir.

Ekspertlərin fikrincə, Xəzər dənizində süni torpaq sahələrinin yaradılması iqtisadi baxımdan sərfəlidir, turizmin inkişafına mühüm təkan verə bilər. Amma burada müəyyən məhdudiyyətlər var. Məsələn, pulsuz çimərliklərə toxunulmamalıdır. Yaradılacaq süni



Müraciətə süni torpaq sahəsində nəzərdə tutulan tikinti məqsədilə “Lisenziyalar və icazələr haqqında” qanuna uyğun olaraq müfəssəl planların hazırlanması üçün layihəçinin hazırladığı süni torpaq sahəsinin baş planı və ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və dövlət ekoloji ekspertizasının rəyi əlavə edilməlidir.

Ekspertlərin sözlərinə görə, dəniz akvatoriyasında tökmə torpaq üzərində tikinti obyektlərinin inşası, o cümlədən yaşayış binalarının inşası son dövrlərdə dünyada geniş vüsət alıb. Bununla əlaqədar olaraq sənəddə Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması məsələsinin aktuallığı və müvafiq qanun layihəsinin hazırlanması zərurəti qeyd olunub.

Yeri gəlmişkən, qanun layihəsində Xəzər dənizinin Azərbaycan Respublikasına aid olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi süni torpaq sahəsi olaraq qeyd edilir. Sənəddə süni torpaq sahələrinin yaradılma formaları və bu istiqamətdə görüləcək işlərlə əlaqədar ümumi tələblər, aidiyyəti dövlət qurumlarının, hüquqi və fiziki şəxslərin bu məsələ ilə bağlı müraciətlərinə baxılması qaydaları da yer alır. Bununla yanaşı, süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması barədə qərarla bağlı müddəalar, eyni zamanda süni torpaq sahələrinin yaradılması və həmin torpaq sahəsində tikinti fəaliyyətinin xüsusiyyətləri, mülkiyyət və icarə münasibətlərinin tənzimlənməsi məsələləri təsbit olunur.

Mütəxəssislər bildirirlər ki, “Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” qanun layihəsi təsdiqləndikdən sonra ölkəmizdə Xəzərin Azərbaycan hissəsində süni torpaq sahələrinin yaradılması təcrübəsi var. Keçmiş SSRİ dövründə estekadaların Neft daşları qəsəbəsində yaradılması bunun bariz ifadəsidir.

Bu məsələ ilə bağlı bir məqamı da xatırlatmaq istərdik. Belə ki, qanun layihəsinin Milli Məclisdə müzakirəsi vaxtı üzgüçülüyə maneə yaradan süni torpaqların yaradılmasının qadağan olunduğu bir halda bununla əlaqədar hansı meyarların müəyyənləşdiriləcəyi, süni torpaq sahələrinin salınması zamanı Baş planın necə hazırlanacağı sualları da hələlik cavabsızdır. Çünki süni istifadə hallarına burada da rast gəlinə bilər. Bundan başqa süni torpaq sahələrinin salınması üçün nəzərdə tutulan 3-6 illik müddətin müəyyənləşdirilməsinin hansı əsaslara söykəndiyi də düşündürücü məqamdır. Bununla belə süni torpaq sahələrinin icarəyə götürülməsi zamanı icarə haqlarının müvafiq icra hakimiyyəti orqanına ödənilməsi zamanı hansı əsasların müəyyənləşdiriləcəyi də maraq doğurur.

Xəzər dənizində tikilən obyektlər ekologiyanın tələblərinə də cavab verməlidir. Əks halda, bu zaman ciddi ekoloji problemlər yaşana bilər. Dənizdə və sahildə obyekt tikintisi bir-birindən ayrılmalıdır. Ümumiyyətlə, dənizdə süni torpaq sahələrinin yaradılması və sahil xətti boyunca torpaq sahələrinin qorunması fərqli yanaşma ilə tənzimlənməlidir. Yəqin ki, Qaradağ rayonunda böyük bir obyektin inşasını hamı yaxşı xatırlayır. Orada həmin tikintinin yarımçıq saxlanılması səbəbləri ilə ərazilər üçün torpağın haradan götürülməsi də diqqətçəkən məqamdır. Belə ki, əgər qumu-çınqılın dəniz kənarından götürülməsi nəzərdə tutulursa, bu, ciddi ekoloji problemlər yarada bilər. Layihəni belə bir şəkildə icrasının müəyyən çətinliklər törədəcəyi heç bir şübhə doğurmur. Çünki məsələyə laqeyd yanaşılması, başqa sözlə, diqqətdən kənar saxlanılması Xəzər dənizinin ekologiyasını zərbə altında qoyar.

Xəzər dənizində yaradılan süni torpaq sahələrinin beynəlxalq standartlara və baş verə biləcək zəlzələlərə davamlılığı məsələsi də qanun layihəsində öz əksini tapmalıdır. Yeri gəlmişkən, layihənin müzakirəsində çıxış edən deputatlar Xəzər dənizində süni adaların yaradılması ilə bağlı qanun layihəsinin yüksək səviyyədə hazırlandığını və onun maddələrində beynəlxalq praktikanın da nəzərə alındığını diqqətə çatdırıblar.

Onu da qeyd edək ki, dənizdə süni torpaq sahələrinin yaradılması mövzusu yeni deyil. Məsələn, Niderlandda torpaqların xeyli hissəsi süni şəkildə yaradılıb. Həmçinin Dubayda süni adalar bu gün də qurulur. Süni adaların tikintisi torpaq çatışmazlığı baxımından mükkəmməl bir ideyadır. Çünki Dubayda torpaq sahəsi çox bahadır, xüsusilə də sahillərdə. Varlı iş adamları süni adalar yaradaraq bahalı evlər və otellər tikirlər.

Xatırladaq ki, ilk kiçik süni adalar Şotlandiya və İrlandiyadakı dayaz çaylarda və göllərdə salınıb. Sonralar Sakit okeanın Karilin adalarında da belə adalar qrupu - arxipelaq tikilib. Yelpik formasında süni ada isə Yaponiyada yaradılıb. Rusiyada Tısbağa adlı ilk süni ada isə 1702-ci ildə salınıb.

İndi Xəzər dənizində də belə adaların tikilməsinə başlanılır. Mütəxəssislərin fikrincə, Azərbaycanda bu təşəbbüsün reallaşması imkanları daha əlverişlidir. Çünki Xəzərdə istifadə olunmamış çox sayda ada var.

Dənizdə süni torpaq sahələrinin yaradılmasından beynəlxalq təcrübədə geniş istifadə olunur. Bəzi dövlətlər bundan enerji, nəqliyyat, turizm, digərləri isə hərbi məqsədlər üçün istifadə edirlər. Yaponiyada süni adalar nəqliyyat məqsədilə tikilir. Süni adalar beynəlxalq konvensiya əsasında yaradılır. Yeni qanun layihəsi bu sahədə Azərbaycanda yeni imkanlara yol açacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

## Ekspert rəyi



**Rəşad İSMAYILOV,**
**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbəri**

“Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” qanun layihəsi barədə bəhs edərkən, ilk növbədə, vurğulamaq istərdim ki, dəniz akvatoriyasında tökmə torpaq üzərində tikinti obyektlərinin inşası, o cümlədən turizm sektorunun inkişafı son dövrlərdə dünyada geniş vüsət alıb. Bununla əlaqədar olaraq Xəzər dənizinin ölkəmizə aid hissəsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılmasının aktuallığı müvafiq qanun layihəsinin hazırlanması zərurəti yaradıb.

Qanun layihəsində süni torpaq sahələrinin yaradılma formaları və süni torpaq sahələrinin salınmasına dair ümumi tələblər, qaydalar öz əksini tapıb. Bununla yanaşı, süni torpaq sahəsinin tikilməsi məqsədilə su fondu torpaq sahəsinin ayrılması barədə qərarla bağlı müddəalar, həmçinin süni torpaq sahələrinin yaradılması və həmin torpaq sahəsində tikinti fəaliyyətinin xüsusiyyətləri, mülkiyyət və icarə münasibətlərinin tənzimlənməsi məsələləri təsbit olunub.

Qanun layihəsində ölkəmizin cənub və şimal bölgələri üçün adaların salınması nəzərdə tutulur. Bu adaların Nardaranda da yaradılması planları var. Müraciətlərin hələlik az olmasına baxmayaraq iqtisadi risklər çoxdur. Məhdudiyyətlərlə yanaşı, qanunvericilik sahibarkar üçün maksimum şərait yaradır.

Süni torpaq sahələrinin yaradılması ilə bağlı layihələr Azərbaycanın yeni siması olacaq. Dünyada belə təcrübələr var. Xəzərdə də belə təşəbbüslərin gerçəkləşməsi üçün imkanlar yaradılır. Amma bu layihələrin kütləvi olması da inandırıcı görünmür.

Quruda olduğu kimi, Xəzərdə də yaradılacaq süni adalarda həyata keçiriləcək tikinti işləri qanun çərçivəsində, Tikinti Məcəlləsinin tələblərinə uyğun aparılacaq, bu təşəbbüsün gerçəkləşməsinə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən ciddi nəzarət ediləcək. Sənədə əsasən, mülkiyyət hüquqlarının qorunması da diqqətdə saxlanılacaq. Qanunvericiliklə qoruqların ərazisi dövlət mülkiyyətidir. Bizim yanaşmamız belədir ki, sahilboyu zolaq kimi, süni ada da dövlət mülkiyyəti kimi mühafizə olunacaq.

Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun tikintiyə icazə alınması üçün 2 ildən çox olmayaraq süni torpaq sahəsinin yaradılması və həmin torpaq sahəsində tikinti obyektlərinin inşası üçün isə 3 ildən az, lakin 6 ildən çox olmayan müddət müəyyən edilir. Sənədə əsasən, qanunla nəzərdə tutulan müddətlər sifarişçinin əsaslandırılmış müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurum tərəfindən 2 ildən çox olmamaqla uzadıla bilər.

Nəzərdə tutulmuş müddətdə süni torpaq sahəsinin yaradılması başa çatmadıqda, sifarişçinin icazə hüququna xitam verilir. Qanun layihəsi təkcə Bakıya şamil olunmur. Süni adalar Nabranda, Lənkəranda və digər yerlərdə də yaradıla bilər.

Xəzər dənizində süni torpaq sahələri ilə bağlı Baş Plan hazırlanacaq. Mümkün bütün risklər sığortalanacaq. Bu məsələ ilə bağlı Azərbaycanın tanıtım layihələri olacaq. Sahibkarlar-investorlar üçün də əlverişli imkanlar yaradılacaq. Şübhəsiz ki, təhlükəsizliklə bağlı məsələlər də diqqətdə saxlanılacaq.

Dəniz sahilinə yaxın və yaxud bitişik ərazilərdə tikintiyə Nazirlər Kabineti icazə verəcək. Nardaran sahilində süni torpaq sahələrinin yaradılması ilə bağlı planlar var. Bu layihələr Azərbaycanın iqtisadi inkişafı ilə yanaşı, onun tanıtımına da böyük təsir edəcək və ölkəmizin yeni simasını təqdim edəcək.

Bakının sahilboyu zolağında indiyədək geniş turizm infrastrukturları yaradılıb. bu Bu istiqamətdə layihələri davam etdirilir, yeni yollar salınır, su xətləri çəkilir. Qanun layihəsi süni torpaq yaratmanın spesifikasını əks etdirir. Şəhərsalma Məcəlləsinə əsasən, tikinti layihələrinin ekoloji və digər fəsadları araşdırılır.

Xəzər dənizi akvatoriyasında tikinti işlərinin aparılması ilə bağlı mövcud ənənələrdən də danışmaq istərdim. Belə ki, dənizdə tökmə torpaq üzərində tikintinin aparılması ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi sahəsində də müəyyən işlər görüləcək, mülkiyyət məsələlərinin tənzimlənməsi, şəhərsalma, ərazi planlaşdırılması, tikinti inzibatçılığı ilə bağlı məsələlər də diqqətdə saxlanılacaq.

Sonda bildirim ki, “Xəzər dənizinin Azərbaycana mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” qanun layihəsi Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyir, süni torpaq sahələrinin yaradılmasının təşkilati və hüquqi əsaslarını və süni torpaq sahələrindən istifadənin, o cümlədən süni torpaq sahələrində tikinti aparılmasının xüsusiyyətlərini müəyyənləşdirir. Bu qanunun qəbulu iqtisadiyyatın gücləndirilməsini, tikinti sahəsinin inkişafını, yeni iş yerlərinin yaradılmasını şərtləndirir.

**XQ-yə cavab verirlər**

# Məktub dərc olunmasa da...



**Redaksiyaya hər gün paytaxtdan və bölgələrdən müxtəlif mövzu və məzmunlu məktublar daxil olur. Sakinlər hər hansı problemin həlli ilə bağlı çətinliklə üzləşəndə ümid yeri kimi qəzetimizə müraciət edirlər. Biz də həmin məktubları diqqətlə oxuyur, vətəndaşların üzləşdikləri problemlərin həlli ilə bağlı aidiyyəti qurumlara müraciət göndəririk. Məqsədimiz insanlara düşdükləri çətin vəziyyətdən çıxmaqda kömək etməkdir. Həmin məktubların bir çoxu qəzetin səhifələrində əksini tapmasa da, qaldırılan problemlər izlənilir, nəzarətə götürülür və həllini tapır.**



Göndərdiyimiz vətəndaş məktublarına aldığımız 2 müsbət cavab bizi də problemi həll olunan oxucularımız qədər sevindirir.

Xatırladaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fonduna vətəndaşın ünvanlı dövlət sosial yardım ala bilməməsi ilə bağlı müraciət məktubunu ünvanlamışdıq. XQ-yə fonddan verilən cavabda göstərilir ki, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 saylı müəssəsində cəza çəkən İsayev Emin Həmzə oğlunun ailəsinə ünvanlı dövlət sosial yardım verilməsinə kömək göstərilməsi ilə bağlı DSMF-yə daxil olmuş məktuba fondda baxılmışdır: “E.İsayevin həyat yoldaşı Mədinə İsayevanın “Ünvanlı yardım” altsisteminə daxil etdiyi müracəti əsasında, onun ailəsinə 1 mart 2024-cü il tarixindən 1 il müddətinə aylıq 338,58 manat sosial yardım təyin edilmişdir.”

Vətəndaşlar daha çox sosial problemlərlə üzləşdiyindən müraciətlərin əksəriyyətində də bu məsələlərlə qarşılaşırıq. İşlə təminat, yeni təsərrüfat qurmaq və ünvanlı dövlət sosial yardımı ilə bağlı daha bir məktuba – Xaçmaz rayonu, Ağyazı Buduq kəndinin sakini Rauf Pirməmmədovun müraciətinə isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən cavab almışıq. Bir məktubda cəmlənmiş 3 məsələ ilə bağlı araşdırma aparılıb.

1-ci məsələ – vətəndaşın işsizliklə əlaqədar müraciəti ilə bağlı Dövlət Məşğulluq Xidmətində aparılan araşdırmanın nəticəsinə uyğun bildirilir ki, R.Pirməmmədov nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sistemində (MEİS) işaxtaran və ya işsiz kimi qeydiyyata alınmayıb. Vətəndaşa MEİS-də işaxtaran va işsiz kimi qeydiyyata alınması, məşğulluqla bağlı yenidən müraciət etməsi tövsiyə olunub.

2-ci məsələ – vətəndaşın qızı Zümrüd Pirməmmədovanın maldarlıq təsərrüfatı yaratmaq istəyi ilə bağlı da araşdırma aparılıb və o, elektron informasiya sistemində öncə işsiz kimi, sonra özünüməşğulluq proqramı çərçivəsində seçdiyi istiqamət üzrə qeydiyyata alınıb.

3-cü məsələ – ailənin ünvanlı sosial yardımla əlaqədar müraciəti ilə bağlı isə DSMF-dən cavab almışıq. Araşdırma nəticəsində aydın olub ki, R.Pirməmmədovun MEİS “Ünvanlı yardım” (VEMTAS) altsisteminə daxil etdiyi müraciətində “Ərizə-bəyannamə”də ailənin gəlirləri barədə məlumat düzgün göstərilməyib. Ona görə də vətəndaşa yardım verilməsindən imtina edilib və bu barədə ona məlumat göndərilib. R. Pirməmədov hələlik təkrar müraciət etməyib.

Göründüyü kimi, redaksiyada hər məktuba diqqətlə yanaşılır. Çünki hər müraciətin arxasında canlı insan dayanır. Bəzi müraciətlər zənglə, bəzi şikayətlər əməkdaşların yerində araşırması ilə, bəziləri isə məktubların aid olduğu ünvanlara göndərilməsi ilə həllini tapır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Sel və daşqınlar Pakistana 30 milyard dollar ziyan vurub

**Son günlər Pakistanın Pəncab, Bəlucistan və Xayber-Paxtunxva əyalətlərində baş verən sel və daşqınlar, həmçinin ildırım vurması nəticəsində azı 63 adam həyatını itirib, yaralananların sayı dəqiqləşdirilir. Ölənlər arasında qadınlar, qocalar və uşaqlar da var.**



Bu haqda Pakistan Təbii Fəlakətlə Mübarizə İdarəsinin mətbuat katibi Xurşid Anvar ölkə mətbuatına məlumat verib. Onun sözlərinə görə, bu üç əyalət üzrə 1370 ev tam və qismən dağılıb.

Pakistan mətbuatı yazır ki, iqlim dəyişikliyi ilə bağlı ötən illərə nisbətən bu il daha intensiv yağış yağması müşahidə olunub. Bu ay ölkə üzrə düşən yağışların miqdarı isə normadan artıq – 61 faiz olub.

Sel və daşqınlar ölkə ərazisində ciddi fəsadlar törədib, yollar yararsız hala düşüb. Təbii fəlakət zonalarında qəza-xilasetmə işləri davam edir, bu işə yüzlərlə adam və texnika cəlb olunub, əhali təhlükəsiz ərazilərə köçürülüb.

Xatırladaq ki, 2022-ci ildə baş verən sel və daşqınlar zamanı ölkənin üçdə birini su basıb, 2 min adam təbii fəlakətin qurbanı olub. Həmin il Pakistana 30 milyard dollar həcmində zərər dəyib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**İslamabad**

# Ləzgi çörəyinin ətri...

## Mayor Xəyyam Səmədovun xatirəsinə

**2023-cü il sentyabrın 19-dan 20-nə keçən gecəni ermənilər də heç zaman unutmayacaq, biz də. Həmin gecədə düşmən bütün xəyallarının üstündən xətt çəkmiş, qondarma dövlətini buraxaraq torpağımızdan qaçıb getmişdi. Biz isə həmin unudulmaz “23 saatlıq sutka”da ölkəmizin bütün ərazisində dövlət suverenliyimizi bərpa etmişdik. Bu əməliyyat Qəbələnin Mirzəbəyli kəndində də heç zaman unudulmayacaq. Çünki rayonun və kəndin sayılıb-seçilən gənclərindən olan mayor Xəyyam Mirazim oğlu Səmədov məhz o tarixdə şəhid olmuşdu.**




Onun haqqında danışanlar olduqca sadə bir tərcümeyi-haldan söz açırlar: “Səmədov Xəyyam Mirazim oğlu 16 yanvar 1986-cı ildə Qəbələ rayonunun Mirzəbəyli kəndində anadan olub. Rayonun Mirzəbəyli kənd orta məktəbində, daha sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Azərbaycan Silahlı Qüvvələrinin mayoru olan Xəyyam Səmədov Silahlı Qüvvələrimiz tərəfindən 20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri zamanı şəhid olub”. Vəssalam!

Biz isə əlavə edirik ki, Xəyyam Səmədov Azərbaycan Prezidenti İlham Əliyevin 7 noyabr 2023-cü il tarixli sərəncamı ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif olunmuşdur.

...“Mirzəbəyli kənd qəbiristanlığı”, “Mirazimin evi” ifadələrini eşidəndə xəyalımdan nələr keçmədi, İlahi?

... Mən yetmişinci illərdə kənddə işləyəndə az qala bütün evlərdə çörək kəsmişdim. “Ləzgi məhəlləsi” deyilən birinci briqadada isə “çörəkli evlər” daha çox idi. Molla Yusif dayı, Qulu dayı, Uzun Həmid, Firudin Sərkərov, Qasım kişi, Qubad Balakişiyev (onun oğlu Birinci Qarabağ müharibəsində şəhid olmuşdu) və Xanat dayı (o, bizə “ya stxa!” (ay qardaş) deyə müraciət edirdi) zəhmət adamlarına çörək verməyi də, onların evində çörək kəsməyi də savab adlandırırdılar. Siyahıdakı son beş nəfər ləzgi idi.

Qərəz, Xanat dayının oğlu Mirazimin evində ehsan... hətta eşitmək də ağırdır. Ancaq bu məqamda Bəxtiyar Vahabzadənin sözləri yadıma düşür: “Şəhidlərin Vətənə, xalqa, torpağa yüksək səviyyədə xidmət etdiyini hamı yaza bilər. Amma onların valideynlərinə bəxş etdikləri başucalığının səviyyəsini heç bir şair, yazıçı lazımınca ifadə edə bilməz”. Başın həmişə uca olsun, MİRAZİM!

Doxsanıncı illərdə kəndimizin ilk iki şəhidinin biri bizim əmimiz oğlu İlham Kərimov, digəri isə ləzgi Müşfiq Balakişiyev idi. İndi Xəyyam da şəhid oldu. Üstəlik, kəndimizin tanınan ağsaqqallarından olmuş Sosialist Əməyi Qəhrəmanı Əşrəf Əlimirzəyevin Bakıda doğulub böyümüş nəvəsi, ölümündən sonra Prezidentin sərəncamlarına əsasən, “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuş İqbal Babayev də ləzgi idi.

Mənim şəhidin xatirəsi üçün qələmə aldığım bu kiçik yazıda ləzgi ifadəsini dönə–dönə işlətməyim təsadüfi deyil. Çünki okeanın o tayındakı bədxahlarımız – ermənilərin pulu ilə fəaliyyət göstərən bəzi ABŞ rəsmiləri Qarabağdan köçən erməniləri yada salaraq yazırlar ki, guya Azərbaycanda azsaylı xalqların hüquqları qorunmur. Amma bütün dünya bilir ki, ölkəmizdəki ləzgilər, avarlar, talışlar, ukraynalılar, ruslar, kürdlər, yəhudilər... Azərbaycanı ana Vətən kimi sevir və qoruyurlar. Elə dövlət də o xalqların hamısını azərbaycanlı kimi sevir və qoruyur.

O ki qaldı, yazının sərlövhəsinə, Mirazimin evi, ehsan ifadələrini oxuyanda rəhmətlik Xanat dayının bizə – kəndin “Qovaq dibi” deyilən ərazisində işləyən kolxozçulara gətirdiyi qoyun pendiri ilə “Ləzgi çörəyi”-nin ətri yadıma düşdü. Çörəyin ətri 40-45 il yadda qalarmış. Allah rəhmət eləsin! Şəhid mayorun ruhu inciməsin, mənim fikrimcə, onun bütün uğurlarının təməlində Xanat dayının halallığı və Mirazimin vətənsevərliyi dayanır.

... Rayona gedəndə avtobusda bir nəfər məndən soruşdu:

– Qəbələyə qonaq gedirsiniz?
– Yox, qəbələliyəm.
– Hansı kənddənsiniz?
– Mirzəbəylidən.
– Mayor Səmədovun kəndindən?

Canımdan gözləmədiyim bir soyuq sızıltı keçsə də, fəxr elədim. Məni – 72 yaşlı ağsaqqal adamı bu rəqəmin tən yarısı qədər yaşamış bir gəncin adıyla tanıdılar. Allah rəhmət eləsin!

*İttifaq MİRZƏBƏYLİ*

# Şəhid Məhəmmədəlinin hünəri

**Onun Qubadlı Rayon Polis Şöbəsində işləyən atası Hörmət Həsənov 1-ci Qarabağ müharibəsində iştirak edib, düşmənin işğalçılıq siyasətinin qarşısını almağa çalışanlardan olub. Evdə bu barədə söhbət düşəndə Məhəmmədəli atasının barıt qoxulu xatirələrini böyük maraqla dinləyir və qəlbində düşünürdü ki, kaş mənə də silaha sarılıb Vətəni qorumaq nəsib olaydı.**

Nəhayət, 2020-ci ildə bu, Məhəmmədəliyə qismət olub. Özü də nəinki Vətəni qoruyub, hətta şəhidlik zirvəsinə ucalıb. Oğlunun qəhrəmanlıqla şəhid olması ilə fəxr edən ata “Mənim yarımçıq qoyduğum işi oğlum layiqincə bitirdi” deyib.

Məhəmmədəli Hörmət oğlu Həsənzadə 1999-cu il mayın 1-də Sumqayıtda anadan olub. Əslən Qubadlı rayonunun Qilican kəndindəndir. 2005-ci ildə Sumqayıt şəhərində yerləşən Qubadlı rayon Qurban Məmmədov adına Yuxarı Mollu kənd tam orta məktəbinin 1-ci sinfinə gedib və 2016-cı ildə həmin məktəbin 11-ci sinfini bitirib. Ali məktəblərə qəbul imtahanlarında yığdığı yüksək bal ilə Azərbaycan Turizm və Menecment Universitetinin “Biznesin idarə edilməsi” fakültəsinə daxil olub. 2020-ci ildə ali təhsilini başa vuraraq menecment ixtisasına yiyələnib. Həmin ilin iyul ayında həqiqi hərbi xidmətə çağırılıb.

Məhəmmədəli 2020-ci il sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsinin iştirakçısı kimi Hadrutda ilk döyüşlərə atılıb. Ağdam, Füzuli və Xocavənd uğrunda ölüm-dirim mübarizəsində igidlik nümunələri göstərib. Düşmənin bir neçə texnika və canlı qüvvəsini məhv edib. Dəfələrlə yaralı döyüş yoldaşlarının həyatını xilas edib.

**Hadrutda onunla bərabər vuruşmuş əsgər dostu Azər Yarıyevin bu barədə dedikləri:**

– Ağır döyüşlər ara vermirdi. Bir neçə nəfər ciddi yaralanmışdıq. Məhəmmədəli öz həyatını təhlükəyə ataraq bizi döyüş meydanından bir-bir çəkib çıxarmağa müvəffəq oldu. Çox qorxmaz, cəsur və mərd hərbçi idi. Mən bu gün həyatda sağ qaldığıma görə Məhəmmədəliyə borcluyam. Onun ölməz ruhu qarşısında baş əyirəm.

Gözündə zərrəcə ölüm qorxusu olmayan Vətən sevdalısı Məhəmmədəli Həsənzadə noyabrın 6-da Xocavənd rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şuşa alınan gün – noyabrın 8-də onun nəşi Sumqayıta gətirilərək buradakı Şəhidlər xiyabanında torpağa tapşırılıb. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə cəsur döyüşçü Həsənzadə Məhəmmədəli ölümündən sonra “Vətən uğrunda”, “Döyüşdə fərqləndiyinə görə”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medallarına layiq görülüb.



Sağ qalsaydı, bir neçə gündən sonra 25 yaşını dostlarının əhatəsində qeyd edəcəkdi. Bu, ona qismət olmasa da, ölməz xatirəsi daim ehtiramla yad edilir. Məhəmmədəlinin atası Hörmət kişi, anası Vüsalə xanım, qardaşı Sahil kimi, bütün el-obası da onun adı ilə fəxr edir. Şəhidin Qubadlı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən anım mərasiminə qatılanlar bunun bir daha şahidi olublar.

Əvvəlcə Qurban Məmmədov adına Yuxarı Mollu kənd tam orta məktəbinin qarşısında həmin məktəbin məzunları – 1-ci Qarabağ müharibəsi şəhidi Etibar Haqverdiyev, Qurban Məmmədov və Məhəmmədəli Həsənzadənin adına bulaq kompleksinin açılışı olub. Sonra tədbir iştirakçıları Məhəmmədəlinin başdaşından təbəssümlü şəkli boylanan məzarı üzərinə tər çiçək dəstələri qoyub, ruhuna dualar oxuyublar. Sumqayıt Regional Mədəniyyət İdarəsinin Qubadlı rayon nümayəndəliyinin kollektivi və Qubadlı rayon məktəblilərinin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər. Şair Elbrus Qayalı isə şəhidin dilindən yazdığı şeiri onun ruhuna ərməğan eləyib:

**Sənə can lazımdırsa,**
**Verərəm can, ay Vətən!**
**Qoy əbədi yaşasın**
**Azərbaycan, ay Vətən!**

*Ə.ƏLİYEV*
*XQ*




# Sərrast atəşli topçu

**Birinci Qarabağ müharibəsi şəhidi İnqilab Nağıyevin 50 yaşı tamam oldu. Bu münasibətlə Masallı rayonunda şəhidin adını daşıyan 2 saylı Boradigah qəsəbə tam orta məktəbində anım mərasimi keçirilib.**

Rayon rəsmilərinin, şəhid ailələrinin, ağsaqqal və ziyalıların, müəllim və şagirdlərin iştirak etdiyi tədbirdə öncə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canından keçmiş igidlərin əziz xatirəsi böyük ehtiramla anılıb. Sonra İnqilab Nağıyevin qısa, lakin şərəfli ömür yoluna nəzər salınıb. Çıxışçılar onun yurdsevərliyindən, döyüşçü bacarığından söhbət açıb, xatirələrini bölüşüblər. Qeyd olunub ki, Ağdərənin Çərəkdar kəndinin müdafiəsi zamanı qeyri-bərabər döyüşdə yaralanaraq həyata əlvida demiş İnqilabın ruhu şaddır. Çünki 31 il əvvəl işğal olunmuş bu kənd də ötən ilin sentyabrında keçirilən antiterror tədbirləri zamanı separatçı erməni xuntasının nəzarətindən alınaraq azad olunmuş digər ərazilərimizə qatılıb.

Mərasimdə şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər, nəğmələr səslənib, ədəbi-bədii kompozisiya nümayiş olunub. Sonda şəhidin məzarı ziyarət edilib, önünə əklil və gül dəstələri qoyulub.

Məlumat üçün bildirək ki, qəhrəman Vətən sevdalısı İnqilab Şahbala oğlu Nağıyev 1974-cü ildə Masallıda dünyaya göz açıb. Boradigahdakı N. Gəncəvi adına 1 saylı orta məktəbin 8-ci sinfini, sonra 137 nömrəli Masallı Texniki-Peşə Məktəbini bitirib. Həqiqi əsgəri xidməti zamanı bir müddət Lənkəran topçu alayında təlim keçdikdən sonra Qarabağ bölgəsindəki qızğın döyüşlərə qatılıb. Laçın, Kəlbəcər, Ağdərə rayonlarının müdafiəsi zamanı düşmənin canlı qüvvəsi və texnikasının məhv etməklə heç zaman unudulmayacaq bir tarix yazıb.

Cəsur topçu İnqilab Nağıyev 1993-cü il mart ayının 27-də, 19 yaşında ikən şəhidlik zirvəsinə ucalıb. Doğma Boradigah qəsəbəsində canından artıq sevdiyi torpağa tapşırılıb.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# El-obasına başucalığı gətirən oğul

**Şəhidimiz haqqında öncə onu deyək ki, Aqil Faiq oğlu Əliyev 1999-cu il yanvarın 10-da Tovuz rayonunun Pələkli kəndində anadan olub. 2005–2013-cü illərdə V. Rəhmanov adına Pələkli kənd tam orta məktəbində təhsil alıb. Vətən müharibəsinin nə vaxt başlanacağından xəbərsiz olan Aqil hələ məktəbli ikən Azərbaycan bayrağına sarılıb şəkillər çəkdirər və deyərmiş: “Mən bu bayrağı işğaldan azad edilən torpaqlarımızda da qaldıracağam”.**



Birinci Qarabağ müharibəsində göstərdiyi qəhrəmanlıqlara görə əmisi oğlu Elman Quliyevin Ulu öndərimiz Heydər Əliyevin təltif etdiyi medalı daim sinəsində gəzdirməsi Aqili həmişə qürurlandırır, onun yurdsevər ürəyini dağa döndərirdi. Elman Aqillə hər görüşündə ona cəbhə həyatının mühüm məqamlarını izah edir, ermənilərin müvəqqəti və şərəfsiz qələbəsinin səbəblərini açıqlayırdı. Vurğulayırdı ki, onların havadarları olmasa, savaş meydanına təkbaşına çıxsalar, Qarabağı titrədən ayaqlarımız altında can verərlər. Əmisi oğlunun belə söhbətlərinin onun ürəyinə yol tapması Aqilin öz taleyini ordu həyatına bağlamasına səbəb olur.

Aqil 2017–2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub, 2 il sonra isə anası Kübradan xeyir-dua alaraq MAXE kurslarını bitirib və yenidən Vətən qulluğuna gedib. Çox böyük həvəslə peşəkar hərbçiliyə qədəm basan Pələkli gənci elə Tovuz rayonunda başlanan məlum iyul döyüşlərində verilən tapşırıqları qəhrəmancasına yerinə yetirib. Döyüş gedən relyefə yaxşı bələd olan Aqil hərbi əməliyyatlarda əks-həmlə uğurlarının başlıca qüvvələrindən biri kimi tanınıb.

Məlum Tovuz döyüşlərində cəsarətlə vuruşan Aqil şəhid Milli Qəhrəmanımız, general-mayor Polad Həşimovun nəşi qarşısında and içir ki, onun qisasını alacaq. Sonra Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılaraq heyrətamiz şücaət və cəsurluq nümunələri göstərir.

...Aqil evin sonbeşiyi olduğu üçün böyük bacısı ilə çox yaxın olub. Ona görə də o hər sirrini, arzusunu bacısı ilə bölüşüb. Elə şəhadətə ucalacağının ürəyinə damdığını da ona deyibmiş. Şəhid hərbçimiz son dəfə anası ilə danışanda ondan səhhətindən muğayat olmasını xahiş edib. Anasına deyə bilmədiyi sözləri isə sətir-sətir, bənd-bənd şeirlərə həkk edib.

Aqilgilin atası erkən vəfat etdiyi üçün ailənin ağırlığını anası daşıyıb. Əliyevlər nəslinin Elmandan sonra şəxsi mərdanəlik tarixinin bir uca zirvəsini də Aqil fəth edib. Onun igidlikləri nəslin şərəf və qürurunu daha da artırıb.

Böyük strateji əhəmiyyət daşıyan Suqovuşanın azad edilməsində Aqilin təmsil etdiyi bölük fərqli döyüş göstəriciləri ilə seçildi. Evlə rabitə əlaqəsi yaratmaq imkanı az olurdu. Anasının narahat olduğunu bildiyindən, onunla qısaca da olsa, danışmaq üçün fürsət gəzirdi. Qardaşı Orxan deyir ki, imkan düşən kimi anama şad xəbər çatdırırdı: “Anacan, gözün aydın! Düşmən gün keçdikcə daha çox can verir. Erməni təkbaşına döyüşə bilmir. Günbəgün torpaqlarımızı işğaldan – murdar erməni nəfəsindən azad edirik. Heç narahat olma. Biz çox güclüyük”.

Aqilin digər qardaşı Araz o günləri belə xatırlayır: “Qardaşımın zəng edəndə dediyi inamlı sözləri anamın narahatlığını bir az azaltsa da, nigarançılığı qalırdı. Televiziyada operativ döyüş məlumatlarını izləyir, dövlət başçımızın xarici jurnalistlərə verdiyi müsahibələrlə toxtaqlıq tapırdı. Və inanırdı ki, qələbə bizimlə olacaq və Aqil qəhrəman kimi üzüağ, başı dik kəndə dönəcək. Qardaşım döndü, amma çox sevdiyi Bayrağa bükülü tabutda qarşıladıq onu”...

Tərtər rayonunun Talış kəndi uğrunda döyüşlərdə Aqilgilin bölüyü yüksək peşəkarlıq və inamla vuruşur, hər həmlədə yeni qəhrəmanlıq nümayiş etdirirdi. Oktyabrın 3-də Talış kəndi azad nəfəs aldı. Aqil Suqovuşan uğrunda gedən döyüşlərdə də xüsusi şücaət göstərib. Oktyabrın 15-də ölüm-dirim savaşında şəhidlik məqamına ucalıb...

Şəhidliyi ilə ailəsinə, nəslinə, kəndinə üzağlığı, başucalığı gətirən Aqil Əliyev doğulduğu Pələkli kəndində dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Aqil Əliyev ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, “İgidliyə görə” medalları ilə təltif edilib.

*Zərifə HÜSEYNOVA*
*X Q*

# “İgid əsgər, möhkəm dayan”dı və əbədiyyətə qovuşdu

**Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin şəhidliyinin ildönümündə “Naxçıvan Qaziləri” İctimai Birliyinin üzvləri şəhidin ailəsi ilə birlikdə Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında onun məzarını ziyarət edib, ruhuna ehtiramlarını bildiriblər.**

“Naxçıvan Qaziləri” İctimai Birliyinin sədri, Vətən müharibəsi qazisi Cehun Bayramov qeyd edib ki, bu gün şəhid məzarları önündə qürurla dayanırıq. Çünki Vətən müharibəsində qələbə qazanmaqla 90-cı illərdə şəhid olan oğulların da qisasını almışıq. Milli Qəhrəman Yusif Mirzəyevin uğrunda canından keçdiyi Ağdərə rayonu da artıq azaddır. Bu gün onun ruhu şaddır. Çünki onun kimi oğulların rəşadəti sayəsində Vətənin işğaldan azad olunmuş torpaqlarında Azərbaycan bayrağı dalğalanır.

Yusif Mirzəyev 1958-ci il may ayının 23-də Babək rayonunun Böyükdüz kəndində dünyaya göz açıb. Orta məktəbi Naxçıvan şəhərində oxuyub. Ali təhsilini Bakıda aldığı illərdə xalq hərəkatına qoşulub. 1990-cı il 20 Yanvar faciəsi zamanı rus ordusunun əsgərləri ona ağır işgəncələr veriblər. O, 1991-ci ilin sonlarında sakit həyatla vidalaşıb və könüllü olaraq cəbhə bölgəsinə yollanıb. Yusif Mirzəyevin ilk döyüşü Ağdərə–Goranboy istiqamətində olub. O, tez bir zamanda xidmət etdiyi briqadanın fəal döyüşçülərindən birinə çevrilib. Komandanlıq onun belə cəsur əsgər olduğunu görərək onu briqada komandirinin təchizat üzrə müavini vəzifəsinə təyin edib.

Y. Mirzəyev 14 nəfərlik dəstəsi ilə bütün əməliyyatlarda iştirak edirdi. Ağdərədə 17 kəndin alınmasında isə onun müstəsna xidmətləri olmuşdur. O, döyüşlərin birində öz dəstəsi ilə mühasirəyə düşür. Lakin çevikliyi və cəldliyi sayəsində heç bir itki vermədən döyüşçüləri mühasirədən çıxarır. Vətənsevər oğul 1993-cü il fevral ayının 19-da Ağdərədə gedən qeyri-bərabər döyüşlərin birində silah yoldaşlarını mühasirədən çıxararkən qəhrəmancasına həlak olub.

Mirzəyev Yusif Vəli oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Naxçıvan şəhər Şəhidlər xiyabanında dəfn edilib. Buradakı məktəblərdən biri və Bakının Nəsimi rayonundakı 44 saylı orta məktəb qəhrəmanın adını daşıyır, təhsil ocağının qarşısında büstü qoyulub.



Şəhidin qohumları onun adının daim ehtiramla yad olunduğuna və anım tədbirinin təşkilinə görə minnətdarlıq ediblər.

*Səbuhi HƏSƏNOV*
*XQ*

**Naxçıvan**

Mətbuat fədailəri

# “Molla Nəsrəddin” jurnalının lənkəranlı dostu



***Lənkəranda “Molla Nəsrəddin” jurnalının fəal oxucusu və təəssübkeşi olmuş İman Əliyevlə şəhərin mərkəzi bağında rastlaşdıq. Sözlü adama oxşayırdı. Qollu-budaqlı dəmirağacının kölgəsində əyləşdikdən sonra əlindəki qəzeti göstərərək dedi:***

– Oxudum, yazı xoşuma gəldi. “Cəlil Məmmədquluzadənin üç məktubu” məqaləsini deyirəm. Mirzə Cəlil böyük şəxsiyyət idi. Hər dəfə görüşəndə gözlərim önündə sanki böyük bir aləm açılırdı. Cəmiyyətdə baş verən bütün neqativ hallar o dahi sənətkarın qəlbini ağrıdırdı. Deyirdi ki, ay mirzə, şüurlarda inqilab lazımdır. Nə qədər ki, köhnəlik qalıqlarını içərimizdən təmizləməmişik, cəmiyyət üçün nicat yoxdur.

İman Əliyevin vaxtı ilə Cəlil Məmmədquluzadə ilə əlaqə saxladığını və məcmuəyə ara-sıra müxtəlif səpkili yazılar göndərdiyini eşitmişdim. Bu barədə söhbət düşəndə İman müəllim gülümsündü.

– Xatirələr çoxdur, – dedi. – Hər görüş haqqında bir kitab yazmaq olar, – əlavə etdi.

Ertəsi gün evlərində görüşdük. İman müəllimə bir neçə sualla müraciət etdik.

***– Cəlil Məmmədquluzadə ilə ilk görüşünüzü necə xatırlayırsınız?***

– 1926-cı il idi. Onda Lənkəran Qəza Partiya Komitəsində təlimatçı işləyirdim. “Molla Nəsrəddin” jurnalının əhali arasında yayılması və abunə yazılışına rəhbərlik mənə tapşırılmışdı. Abunə pulunun 20 faizini iki müvəkkil arasında bölüşdürürdüm. Növbəti abunə kampaniyası ərəfəsində gözlənilmədən Mirzə Cəlildən bir məktub aldım. Məni redaksiyaya çağırırdı...

O, çoxdankı tanışlar kimi qoluma girib məni içəri apardı. Xoş-əhvaldan sonra təhsilimlə, Lənkəranda olan ictimai-siyasi vəziyyətlə maraqlandı. Sonra ayağa qalxıb əlini çiynimə qoydu.

– Yaxşı oğlana oxşayırsan, – dedi. – Amma öz aramızdır, düzgün iş görmürsən.

Qulaqlarımadək qızardım. Bir şey başa düşmədim. Mirzə Cəlil özü məni çətin vəziyyətdən qurtardı.

– Bilirsənmi, müqaviləyə görə, “Molla Nəsrəddin”in abunəsindən toplanan vəsaitin 10 faizi sənə çatmalıdır. Amma onun 5 faizini götürürsən. – Sonra gözlərimin içinə baxaraq dedi:

– İman, belə olmaz, bala, qonorar sənin halal haqqındır, o, sənə çatmalıdır. Zəhmət çəkmisənsə, haqqını düzgün almalısan.

Mizə Cəlil mühasibi çağırtdırıb 2 il müddətinə almadığım pulları özümə qaytardı. Sonra mənə bir nəfər də qoşub Bakının görməli yerlərini gəzdirməyi ona tapşırdı. Böyük sənətkar məni qapıyadək ötürdü və tapşırdı ki, anamın yanına boş getməyim. Mən də Mirzə Cəlilin dediyi kimi elədim, anama yaylıq, corab və bir dəst paltarlıq aldım.

***– Məlumdur ki, “Molla Nəsrəddin” jurnalında Lənkərandan göndərilən yazılara da geniş yer ayrılmışdır. Siz ən çox nədən yazmısınız?***

-Ən çox mədəni-maarif sahəsində yol verilən nöqsanlardan. Mirzə Cəlillə görüşdən sonra redaksiya ilə müntəzəm əlaqə saxlayırdım. Məktublarım azacıq dəyişikliklə “Molla Nəsrəddin”də yer alırdı. Biri indi də yadımdadır. Lənkəranda rus və Azərbaycan dillərini bir-birinə qarışdırıb dərs deyən bir rus dili müəllimi haqqında məqalə yazmışdım. Az sonra “Molla Nəsrəddin”də həmin müəllimin karikaturası verilmiş və altında da yazılmışdı:

***Koqda xoruz banladı,***
***Mı znayem səhərdir.***

***– Cəlil Məmmədquluzadənin Lənkərana gəlişi yadınızdadırmı?***

– Mirzə Cəlillə Lənkəranda 2 dəfə görüşüm olub. İlk dəfə 1927-ci il martın əvvəllərində görüşmüşük. Onda ədəbiyyat cəmiyyətinin nəzdində təşkil olunmuş “Canlı qəzet”in üzvləri ilə görüşdə iştirak edirdi. İkinci dəfə 1927-ci ilin sentyabrın 27-də Lənkəranda keçirilən Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin ikinci sessiyasında iştirakı zamanı görüşdük.

Bakıya yolum düşəndə mütləq “Mola Nəsrəddin” məcmuəsinin yerləşdiyi binaya baş çəkir, onun naşiri və redaktoru ilə görüşürdüm.

Mirzə Cəlil hər dəfə məni görəndə səmimiyyətlə görüşər, yerli mollanəsrəddinçiləri, o cümlədən Nəsrulla Qənbərlini, Mirzə İshaq Mövsümzadəni soruşar və onlara salamını çatdırmağımı xahiş edərdi.

“Canlı qəzet” 1931-ci ilədək fəaliyyətini davam etdirdi. Cəlil Məmmədquluzadə onun bəzi tədbirlərində iştirak etmişdir.

Həmin illərdə İman Əliyevin “Kommunist”, “Yeni yol”, “Sıə toluş” (indiki “Lənkəran”) qəzetlərində də yazıları dərc olunmuşdur. 21 mart 1927-ci ildə “Kommunist” qəzeti ona belə bir vəsiqə vermişdir: “Yoldaş İman Əliyev türkcə “Kommunist” qəzetəsi tərəfindən bütün Lənkəran qəzasında abunə qəbul etməyə müvəkkil təyin olunur. Türkcə “Kommunist” qəzetəsi bütün şura firqə həmkarlar təşkilatlar və onların aşağı orqanlarından yoldaş İman Əliyevə vəzifəsinin ifasında lazımi yardım etməyi rica edir”. Gənc müxbir ona göstərilən etimaddan ruhlanaraq həmin illərdə əhalinin “Kommunist” və başqa qəzetlərə abunə yazılmasında fəallıq göstərmişdir.

İman Həsən oğlu Əliyev 15 yanvar 1908-ci ildə Lənkəranda anadan olub. İkinci dünya müharibəsinin iştirakçısı idi. Azərbaycan Pedaqoji İnstitutunu bitirdikdən sonra müəllimlik etmiş, 1963-1992-ci illərdə Hirkan qəsəbə orta məktəbinin direktoru olmuşdur. “Molla Nəsrəddin”in lənkəranlı dostu 1999-cu ildə, 91 yaşında dünyasını dəyişmişdir.

***Hacı Etibar ƏHƏDOV,***
***“Aşkarlıq” qəzetinin baş redaktoru***
**Lənkəran**

# “Yaradıcı müzakirələr” – yeni istedadlar

**Mədəniyyət Nazirliyinin təşkil etdiyi “Yaradıcı müzakirələr” layihəsi davam edir. Bu layihə paytaxtda, eləcə də regionlarda mədəniyyət və yaradıcılıq sahələrində bacarıqların inkişafını təşviq edən maarifləndirici təşəbbüsdür.**



Qeyd edək ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ötən ildən keçirilməyə başlanan layihə çərçivəsində 10 regionda 100 maarifləndirici tədbir təşkil edilib, 3 minə yaxın iştirakçı yaradıcı sənayelər haqqında ətraflı məlumat alıb.

Cari ilin may ayında yenidən həyata keçiriləcək “Yaradıcı müzakirələr” layihəsi ilkin mərhələdə Quba, Gəncə, Mingəçevir, Şəki və Şamaxı şəhərlərini əhatə edəcək. Daha sonra sentyabr–oktyabr aylarında Lənkəran, Naxçıvan, Sumqayıt, Bakı və Şuşa şəhərlərində davam edəcək. Layihə çərçivəsində 10-dan çox yaradıcı klaster üzrə seminar, ustad dərsləri, tanınmış şəxslərlə görüşlər və təlimlər təşkil olunacaq.

Ümumilikdə, təşkil olunan sessiyalar kino, teatr, rəsm, dizayn, xalçaçılıq, kulinariya, animasiya, virtual oyun biznesi, yaradıcı startaplar, fotoqrafiya, musiqi, bədii şüşə sənəti, dəb və digər mövzuları əhatə edəcək.

***XQ***

Tamaşalardan qanadlanan mahnılar

# Qısa əlvida deyən nəğmə – “Güllərim”




## III yazı

***Görkəmli müğənnimiz Zeynəb Xanlarovanın oxuduğu hansı mahnı sevilməyib ki?! Onun səsindən tanıdığımız hansı nəğmə müğənninin mükəmməl ifası ilə yadda qalmayıb ki?! Dünya şöhrətli müğənnimizin repertuarındakı xalq mahnı və təsniflərini, bir də yaradıcılığının erkən çağında ifa etdiyi muğamları çıxsaq, oxuduğu bəstəkar mahnılarının ən azı 90 faizi məhz Zeynəb xanım üçün bəstələnib və onun səsindən sevilib. O cümlədən sözləri Nəbi Xəzriyə, musiqisi Arif Məlikova aid “Güllərim” mahnısı. Lakin...***

1974-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Nəbi Xəzrinin “Əks-səda” pyesi tamaşaya hazırlanırdı. Tamaşanın quruluşu rejissor Əşrəf Quliyevə, musiqisi isə Arif Məlikova həvalə edilir. Bu tamaşada bir mahnı da varmış. (Dövrünün ən gözəl nəğməkar şairlərindən olan Nəbi Xəzrinin pyesi mahnısız keçinərdimi?) Əsərin qəhrəmanlarından biri – talesiz Çinarə Bakıda xəstəxanada müalicə alarkən öz hisslərini, həyatındakı gərgin məqamları ifadə edən bir mahnı oxumalıydı... Mahnının adı da “Güllərim” idi.

Böyük bəstəkar Arif Məlikov televiziyaların birində “Bir mahnının tarixçəsi” proqramının “Güllərim”ə həsr olunmuş buraxılışında həmin vaxtı belə xatırlayırdı: “Axşamüstü mətni mənə gətirdilər. Royalın arxasına keçib bir qədər işlədikdən sonra mahnını yazdım. Mahnını yazmaq üçün partitura lazım deyildi, o mahnıya da nə lazım olduğunu bilirdim: xalq çalğı alətlərinin müşayiəti gərək idi, müğənni olaraq da Zeynəb xanımı gördüm. Zeynəb xanımla elə studiyada görüşüb məşq etdik və mahnını lentə aldıq”.

İllər sonra Zeynəb xanım özü də etiraf edəcəkdi ki, “Güllərim” mahnısının məhz tamaşa üçün yazıldığını bilmirmiş. Sadəcə, ona təklif edilən mahnını yalnız özünün ürəyinə yatdığına görə seçib oxuyan böyük müğənni “Güllərim”i də Nəbi Xəzri– Arif Məlikov yaradıcılıq tandeminin mükəmməl nümunəsi kimi bəyənir və lentə yazdırır.

Lentə alınmış mahnının bir nüsxəsi o dövrün qaydalarına əsasən, respublika radiosuna təhvil verilir, bir nüsxəsi də tamaşada istifadə edilmək üçün teatra göndərilir. Lakin bu nüsxədən tamaşada istifadə etmirlər. Yaradıcı heyət belə qərara gəlir ki, tamaşada mahnını Çinarə rolunun ifaçısı – gənc aktrisa Sevil Xəlilova özü ifa etsin... Sonralar mərhum aktrisa Sevil Xəlilova etiraf edəcəkdi ki, radio dalğalarında bu mahnını Zeynəb Xanlarovanın səsində eşidərkən qəribə hisslər keçirirmiş. Əlbəttə, gənc dramatik aktrisa ilə səsi ilə səhnələri fəth edən məşhur müğənninin ifası arasında bərabərlik işarəsi qoymaq olmazdı və aktrisa da bunu gözəl anlayırdı. Sonralar bu mahnını digər populyar müğənni Nisə Qasımova da oxudu.

Lakin bütün maraqlı tamaşalar kimi, mükəmməl mahnıların da öz ömrü var, onlar da öz dövrünü yaşayıb tarixə qovuşurlar. Onlara yeni həyat vermək, yenidən populyarlaşdırmaq üçün təzə nəfəsə, fərqli yanaşmaya ehtiyac var. Xalq çalğı alətlərinin müşayiəti ilə lentə alınmış “Güllərim” mahnısının da qismətində yenidən həyata dönmək varmış.

Xalq artisti Brilyant Dadaşova mahnı yaranandan təxminən 30 il sonra ona qayıdır. Əslində o, həmin mükəmməl mahnını elə Zeynəb xanımın oxuduğu versiyada da ifa edə bilərdi. Müğənninin ustalığı, səsindəki xırdalıqlar musiqinin gözəlliyi və mətnin məna yükü ilə qovuşaraq maraqlı bir ifa yaradardı. Lakin Brilyant xanım və Ənvər Sadıqov yaradıcı cütlüyü “Güllərim”i tamam fərqli tərzdə təqdim etdi. Müğənninin öz dili ilə desək, sadəcə, “Güllərim”ə fərqli yanaşmaq lazım idi, melodiyadakı akkordion sədaları qüvvətləndirmək, bütün mahnının səslənişindəki tar alətinin “yükünü” akkordiona yönəltməklə yeni bir ifa meydana gətirmək olardı. Müğənni mahnı üzərində çalışarkən Ənvər Sadıqova dediyi fikrinə mahnının lentə alınmasında da əməl etmişdi: “Dedim ki, Ənvər, mən bu mahnıda heç bir xırdalıq etməyəcəyəm. Xırdalıq etsəm, bu, şirinçayla paxlava yeməyə bənzəyəcək”.

Arif Məlikov XX əsrin 70-ci illərinin uğurlu mahnısının XXI əsrin əvvəlinə “transfer”ini çox bəyənmişdi. Onun kimi ciddi və haqlı olaraq, öz əsərlərinə böyük həssaslıqla yanaşan bəstəkarın mahnısının yeni oranjimanını onun özünə bəyəndirmək hər müğənninin, ifaçının hünəri deyil. Lakin Arif müəllim mahnının ömrünü uzadan, onun dinləyicilərinin yaş senzini gəncləndirən bu versiyasını o qədər xoşlayır ki, hətta mahnıya klipin çəkilişində də iştirak edir. Həm də klipdə bəstəkar kimi yox, gül-çiçək aşiqi olan, onları yetişdirməyi xoşlayan insan, gül natürmortları çəkməyi sevən rəssam obrazında çəkilir.

***Gülcahan MİRMƏMMƏD***

Milli kinomuzun akkordları

# “Erməni xəstəliyi” Azərbaycan ekranında

**Rüstəm Babazadənin ssenaristi və rejissoru olduğu “Son payız” filmi qrotesk, satira elementlərinin yer aldığı komediya janrında çəkilib. Söhbət nankor qonşularımıza münasibətdə müəllifin əhvalata bir növ əyləncəli yanaşmasından gedir.**



Burada rejissor istedadla, dinamik təsvir və montaj diliylə, bütöv bir tarixi qısa xronometrajda çatdırır. Erməni əsgər Levonun (Nofəl Şahlaroğlu) dilindən nəslinin (əslində, böyük Ermənistan ideyasının) bioqrafiyasının nəqli Ravelin “Bolero” əsərinin sədalarıyla başlayır. Daha doğrusu, artıq 2020-ci ilin sentyabrında ölmüş Levonun öz dilindən əhvalatı dinləyirik. Belə bir fənddən, səhv etmirəmsə, ilk dəfə Billi Vaylder “Sanset bulvarı” filmində istifadə edib. Həmin filmdə qəhrəman kadrarxası səslə onun ölümünə səbəb olan hekayəni danışır.

Müəllif tipik erməni düşüncəsini, nankor qonşuların ərazi iddialarını, ən qədim xalq olmaları haqda yorucu, banal nağıllarını sarkastik intonasiyaya məruz qoyur, qrotesk, absurd vasitəsilə elə Levonun öz diliylə, düşdüyü vəziyyətlərlə saxta tarixi ifşa edir.

“Son payız”da müəllifin uydurması yoxdur, burada ümumiləşdirilmiş real xarakterlər özlərinə doğru diaqnoz qoyurlar. Və bu kütləvi psixoz durumunda sağlam düşünən tək adam Levonun dayısı Rubendir (Vaqif Kərimov). Paralel montaj vasitəsilə Ruben ermənilərin siyasi iddialarına söyüşlə, qeyri-normativ leksikonla etiraz edir. Final səhnəsi Şuşada Azərbaycan musiqisinin səslənməsi ilə bitir.

Filmdə heç bir aktyor oyunu, ifalardakı (Rumiyyə Ağayeva, Günel İmanova, Solmaz Süleymanlı, Zülfiyyə Qurbanova, Rasim Cəfər, Şəhla Əliqızı) mübaliğə saxta deyil. Titrlərdə “Müəllif bəzi personajların psixoloji vəziyyətinə görə məsuliyyət daşımır” deməklə, rejissor özünü, çox güman, ona ünvanlanacaq qınaqlardan sığortalamaq istəyib. Əslində, xüsusilə, bədii ekran əsərində hər şeyin məsuliyyətini rejissor daşıyır. Rüstəm Babazadə, yəqin ki, həm də erməni xalqının real vəziyyətindən çıxış edərək yuxarıdakı cümləni vacib sayıb.

Bəlkə də başqa tarixi şəraitdə bu filmi müəyyən qədər tənqid də etmək olardı. Lakin siyasi gerçəkliyə, qonşularımızın bitib-tükənməyən təxribatlarına görə bunu etmirəm. Burada mənim kinotənqidçi yanaşmam yox, vətəndaşlıq mövqeyim önə çıxır və bu mövqeyimdə özümü haqlı sayıram.

Amma yenə də bir sualın müzakirəsindən qaçmamalıyıq: milli məsələlərin ekran həlli zamanı, mövzuya universal yanaşmalıyıq, yoxsa milli düşüncədən çıxış etməliyik?

***Sevda SULTANOVA,***
***kinoşünas***

Yeni kitab

# “Alagözlüm, səndən ayrı gecələr...”

## *Milli musiqimizin Türkiyə əks-sədası*

**Bu yaxınlarda Ankara şəhərində Azərbaycan musiqi mədəniyyəti mövzusunda yeni bir kitab işıq üzü görüb. “Alagözlüm, səndən ayrı gecələr” adlanan bu kitabın müəllifləri Naxçıvan Dövlət Universitetinin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Məmmədova və İstanbul Cərrahpaşa Universiteti sosial təsislər əlaqələndiricisi, tədqiqatçı Tuğşad Ata Türkməndir. Kitab 19 sentyabr 2023-cü il tarixində Azərbaycanın Qarabağda keçirdiyi antiterror tədbirləri zamanı şəhid olmuş baş leytenant Elçin İbrahimlinin xatirəsinə həsr olunub.**

Azərbaycan mədəniyyətinin daha geniş miqyasda təbliği məqsədi daşıyan kitabda musiqimizin və ədəbiyyatımızın bir neçə tanınmış simasının – XX əsrin repressiya illərində zülmə məruz qalan şəxsiyyətlərin həyat hekayələri, həmçinin Azərbaycanın ən çox sevilən və Türkiyədə də əzbər bilinən, eyni zamanda, mübahisə mövzusuna çevrilən bəzi mahnılar, onların yaranma tarixi haqqında maraqlı məlumatlar yer alıb. Müəlliflər zəngin Azərbaycan musiqisi ilə bağlı müəyyən məsələlərə işıq salıblar.

Burada toxunulan mövzuların hər biri özlüyündə ayrılıq, həsrət, kədər dolu duyğuları ehtiva edir. Təsadüfi deyil ki, kitabın adı da məhz görkəmli Azərbaycan şairləri Nigar Rəfibəyli və Rəsul Rza məhəbbətinin tərcümanına çevrilən məşhur mahnıdan götürülüb. Və elə ilk yazıda məhz dillərdə dastan olan bu sevginin tarixçəsindən, “Neyləyim” mahnısının yaranmasından bəhs edilir. Daha sonra məşhur “Laçın”, “Sarı gəlin”, “Apardı sellər Saranı” kimi xalq mahnıları, eyni zamanda, Azərbaycan ədəbiyyatının nəhəngləri Əhməd Cavad və Mikayıl Müşfiqin həyatına nəzər salınıb. “Çırpınırdı Qara dəniz” və “Oxu tar” adlı mahnıların yaranma tarixinin maraqlı məqamları kitabda öz əksini tapıb. Topluya daxil edilən yazılardan sonuncusu Azərbaycanda professional bəstəkarlıq məktəbinin yaranması, bu yolda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin yorulmaz səyləri, gərgin əməyi haqqındadır.

Kitabın ön sözünü şair Tuğrul Kəskin yazıb, arxa qapağında isə Xalq artisti Azərin, Əməkdar rəssam, Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, tərcüməçi, publisist, yazıçı Orhan Aras, Əməkdar artist, dosent Sahib Paşazadə, Türk xalq musiqisi sənətçisi Esat Kabaklı və müğənni Cavid Təbrizlinin ürək sözləri yer alıb.




Anadolu türkcəsində yazılmış bu kitab həm ixtisaslı kadrlar, həm də Azərbaycan mədəniyyəti ilə maraqlanan geniş oxucu kütləsi üçün mühüm etibarlı mənbə ola bilər.

***İttifaq MİRZƏBƏYLİ***

Beynəlxalq həyat

# Planetimiz siyasi və hərbi qarşıdurmalar burulğanında



**Son vaxtlar dünyada terror və müharibələr olduqca təhlükəli həddə çatıb. Üçüncü Dünya müharibəsi artıq bir addımlığımızdadır. Ukraynada lokal nüvə müharibəsinin başlana biləcəyi də istisna olunmur. Yəni, cin hər ana şüşədən çıxa bilər və bəşəriyyət fəlakətlə üzləşər. Hər halda, ümid edək ki, bu, baş verməyəcək.**

Dünyanın yeni siyasi nizamı Ukrayna böhranının nə vaxt və necə çözülməsindən çox asılıdır. Görünən budur ki, tərəflər, eləcə də onların arxasında duran güclər heç cür güzəştə getmək istəmir. Moskva qarşısına qoyduğu hədəfə çatmaq üçün bütün qüvvələrini səfərbər edib, Ukrayna isə Qərbin köməyinə güvənərək öz ərazi bütövlüyünü bərpa edəcəyinə ümid bəsləyir.

Müharibə ona görə uzanır ki, nə Rusiya, nə də ondan resursları dəfələrlə az olan Ukrayna dərin güclər tərəfindən nə qədər mənasız bir oyuna cəlb olunduğunun fərqinə varır. Ukrayna ərazisinin, demək olar ki, iyirmi faizindən çoxunu itirib, əhalisinin az qala 25 faizi qaçqın və məcburi köçkünə çevrilib. Bu gözəl və bərəkətli ölkənin bir çox şəhər və kəndləri göz önündə dağılıb məhv olur.

Son 2 ildə Ukraynanı tərk etməyə məcbur olan ailələr əsasən, Avropa və ABŞ-da məskunlaşıblar. Ucuz işçi qüvvəsinə ehtiyac duyan Avropa İttifaqına (Aİ) üzv dövlətlərin iş adamları bundan öz maddi mənafeləri üçün yararlanmağa çalışırlar. “Köhnə qitə” açıq şəkildə etiraf etməsə də, özünün demoqrafik problemlərini qismən də olsa, binəsib ukraynalı gənclərin hesabına həll edir. Müharibənin acı həqiqətləri budur!

Bu il martın 22-də Moskva ətrafındakı Krasnoqorsk şəhərciyində yerləşən nəhəng “Krokus city hall”da baş verən dəhşətli terror aktından sonra Rusiya ilə Qərb arasında savaş ritorikası daha da kəskinləşib. Hələlik Ağ evin hazırkı rəhbərinin başı bu ölkədə 4 noyabrda keçiriləcək prezident seçkilərinə qarışıb. Ukraynanı isə hazırda əsasən Avropa öz himayəsinə götürməyə məcbur olub.

Reallıq budur ki, “Köhnə qitə”nin şərqində iki slavyan dövləti vuruşur və müharibə alovunun qonşu dövlətlərə keçəcəyi istisna olunmur. Bir çox ekspertlər hesab edirlər ki, bu xəmir hələ çox su aparacaq, ona görə ki, savaş hələ kulminasiya nöqtəsinə çatmayıb. Anqlosaksların məqsədi Almaniyanı Rusiya ilə üzbəüz qoymaqdır.

Berlin hələlik bütün bunları görməzlikdən gəlir, özünü “sakit” aparır və Rusiya tərəfini aşırı qıcıqlandırmaqdan çəkinir. Almaniya kansleri Olaf Şolts isə ümid edir ki, Rusiya növbəti dəfə hirsini polyakların üzərinə tökə bilər. Moskva, təbii ki, bu ittihamları yersiz və əsassız adlandıraraq təkzib edir. Bu məqamda “sən saydığını say, gör fələk nə sayır?” deyimi yada düşür.

Əslində, Makron Fransası Almaniya və Polşanı çoxdan qurban verməyə hazırdır. Paris üçün müqəddəs heç nə yoxdur. Bunu Yelisey sarayı dəfələrlə riyakar xarici siyasəti ilə “sübut edib”. Fransa son aylar tez-tez Cənubi Qafqaz regionunda da suyu bulandırmağa çalışır. Lakin hər dəfə rəsmi Bakı və Ankaranın prinsipial mövqeyi qarşısında geri çəkilməli olur.

Polşa, Rumıniya, eləcə də Baltikyanı dövlətlər Rusiya ilə birbaşa savaşa cəlb olunmaqdan çox çəkinirlər. Hətta dünyanın ən güclü hərbi alyansı olan NATO-nun tam dəstəkləyəcəyinə zəmanət yoxdur. Alyansın nizamnaməsində yazılanlar bir başqadır, həyat bir başqa. Fransız, yaxud alman əsgərlərinin polyaklar üçün həyatından keçəcəyi ağlabatan görünmür. Polyaklar dəfələrlə bunun şahidi olublar.

Ekspert rəyi



**Mübariz MƏMMƏDLİ, Bakı Slavyan Universitetinin professoru**

İkinci Dünya müharibəsindən sonra heç vaxt qlobal siyasi proseslər bu qədər gərgin və təhlükəli səciyyə daşımayıb. Dünya köhnə qaydalara artıq tabe olmaq istəmir, yeni dünya düzəni isə hələ formalaşmayıb. Çıxış yolunu isə mütləq tapmaq lazımdır.

Hazırda planetimizdə bir çox yeni güc mərkəzləri yaranır. “Kollektiv Qərb” qlobal liderliyə iddialı olan Çinə barmaq silkələyir. O biri tərəfdən “Qlobal Cənub” deyilən üçüncü bir qüvvə “mən də varam!” deyir.

Belə bir təlatümlü dönəmdə türk dövlətlərinin siyasi, iqtisadi və hərbi gücləri birləşdirməsi son dərəcə böyük əhəmiyyət kəsb edir. Türkiyənin regionda və bütün dünyada artan gücü Qərbi və hətta bəzi qonşularını narahat edir. Lakin Rəcəb Tayyib Ərdoğanın müdrik və qətiyyətli siyasəti rəqiblərin məkrli planlarını pozur.

Afrikadan faktiki olaraq “non-qrata” elan olunaraq qovulan Fransanın Cənubi Qafqazda Ermənistan vasitəsilə hadisələrə müdaxilə etmək planları regionda gərginliyin artmasına gətirib çıxarır. Təəssüf ki, Paşinyan iqtidarı İkinci Qarabağ müharibəsinin nəticələrindən özünə dərs çıxarmadan yaxın qonşularla normal münasibətlər qurmaq əvəzinə, özünə yeni ağa axtarır.

Məlumdur ki, Aİ-nin aparıcı iqtisadiyyatı sayılan Almaniya Çinin ən böyük ticarət tərəfdaşlarından biridir. Dünyada hegemonluğunu davam etdirmək arzusunda olan ABŞ-ın əsas niyyəti isə məhz Çini qlobal bazarlardan təcrid edərək iqtisadi cəhətdən çökdürməkdir. Bir çox ekspertlər Yaxın Şərqdə gedən proksi, yəni vəkalət müharibələrinin məhz bununla bağlı olduğunu iddia edirlər. Deməli, savaşın coğrafiyası daha da genişlənə bilər.

Avropada hələ Böyük Karlın dönəmindən bəzi yazılmamış qanunlar mövcuddur. Burada heç bir dövləti qitənin vahid ağası görmək istəmirlər. Almaniyanın XX əsrdə üçüncü dəfə Avropada lider olmaq şansını önləmək üçün ortaya “Brexit” çıxarılıb. Berlin–Moskva iqtisadi tendemi də nə Londonu, nə Parisi, nə də Vaşinqtonu təmin edirdi. Avropanı qarışdırmaq planı həm də bu amildən qaynaqlanır.

Yuxarıda qeyd etdiyimiz kimi, okeanın o tayında oturan “Sem dayı”nın əsas hədəfi dünyanın ikinci böyük iqtisadiyyatı olan “Sarı əjdaha”nı, yəni Çini cilovlayıb yerinə oturtmaqdır. Bunun üçün Çinin yan-yörəsini budayırlar. Belə ki, Pekinin əsas ticarət tərəfdaşları nəyin bahasına oldursa-olsun gücdən salınır.

Çin iqtisadiyyatı çökəcəkmi? Buna birmənalı cavab vermək çətindir. Pekin öz növbəsində əks tədbirlər görür. Lakin Çinin bu mücadilədən qalib çıxacağı indandırıcı görünmür. Ən azı ona görə bu ölkə yaxın onilliklər ərzində sivil dünya üçün yeni sivilizasiya məkanı olmaq iqtidarında deyil. “Yumşaq güc”ə çevrilməyən ölkə dünya liderliyinə iddialı ola bilməz.

ABŞ-da demokratların, yaxud onların siyasi rəqibləri olan respublikaçıların namizədləri Co Bayden ilə Donald Tramp arasında Ağ evə sahib çıxmaq uğrunda gərgin mücadilə gedir. Ukrayna arzu edir ki, Trampın revanşı baş tutmasın. Bəzi siyasi təhlilçilər hətta indiki rəqiblərin yerinə başqa isimlərin səhnəyə çıxacağını istisna etmirlər. Görünən isə budur ki, Amerikanın möhtəşəm siyasi arxitekturası çat verir.

Dünya birliyi bu siyasi, hərbi, iqtisadi labirintdən çıxmaq üçün özündə güc tapa biləcəkmi? Bəşəriyyət yeni sivilizasiya, daha ədalətli dəyərlər ortaya qoya biləcəkmi? Bu, həyati zərurətdir! Vəziyyətin artıq çox təhlükəli həddə çatdığını başa düşmək bu qədərmi çətindir?

***Məsaim ABDULLAYEV***
***XQ***

İdman

**Dünya şahmat elitasında son illər yer almış yeni adlar daha güclü nəslin yetişməsindən xəbər verir. Uzun illər dünya reytinqində ilk 10-luqda Azərbaycanın 2, hətta 3 şahmatçısı yer alıb. Hazırda 3 təmsilçimiz yalnız ilk 100-lükdə – Şəhriyar Məmmədyarov 17-ci, Teymur Rəcəbov 28-ci, Rauf Məmmədov 85-ci pillədə yer alır ki, onların da orta yaş həddi təxminən 37-dir.**

# Azərbaycan dünya şahmat zirvəsində

## Yeni nəsil bu uğuru qoruya biləcəkmi?

Müsahibimiz, Azərbaycanın yeniyetmələrdən ibarət yığmasının baş məşqçisi Fərid Abbasovla ölkəmizdə uşaq şahmatının inkişafı, istedadlı zəka ustalarının yetişməsi üçün yaradılan imkanlardan danışdıq.

***–Fərid müəllim, uşaq, yeniyetmə və gənc şahmatçılarımızın bugünkü potensialı ilə bağlı nə deyə bilərsiniz?***

–Son illərdə şahmatçılarımız ən nüfuzlu yarışlarda mühüm nailiyyətlər qazanıblar. 2019-cu ildə Türkiyədə keçirilən olimpiadada tarixdə ilk dəfə Azərbaycan komandası çempionluq sevinci yaşadı. Yığmanın heyətində Əhməd Əhmədzadə, Vüqar Manafov kimi istedadlı şahmatçılar da yer almışdılar. 2019-cu ildə 14 yaşlılar arasında dünya çempionu olan Aydın Süleymanlı 2020-ci ildə ən güclü turnirlərdən biri olan “Aeroflot open”də birinci yeri tutub. Avropa çempionatında əldə qızıl medallar gənclər arasında istedadlı şahmatçılarımızın yetişməsinə gözəl nümunədir. Ayan Allahverdiyeva kimi fenomen şahmatçımız var. İkiqat Avropa çempionu Cahandar Azadəliyev kimi güclü potensiala malik şahmatçı yetişib. Qadınlardan ibarət komanda üzvləri, əsasən gənclərdən ibarətdir. Onlardan biri Gövhər Beydullayeva ötən il 20 yaşlılar arasında dünya çempionu olub. Həmin turnirdə Məhəmməd Muradlı oğlanların yarışında qızıl medal alıb. Yəni, bunlar çox böyük nailiyyətlərdir. Keçən il perspektivli şahmatçımız Read Səmədov Ümumdünya Şahmat Olimpiadasında öz taxtasında qızıl medal qazandı. Belə zəka sahiblərini yetişdirmək çox böyük güc və vəsait tələb edir.



***–Yeni nəsil şahmatçıların dünya reytinqində ilk sıralara yüksəlmələri üçün hansı perspektivlər var?***

– Qeyd etməliyəm ki, 2007–2017-ci illərdə diqqət 99,9 faiz əsas millilərə yetirilib. Uşaq şahmatı sırf entuziastların üzərində qurulub. Belə olan təqdirdə, inkişaf üçün kompleks yanaşma tətbiq edə bilmirdik. Azərbaycan Şahmat Federasiyasının yeni rəhbərliyi uşaq şahmatının inkişafına böyük önəm verir. Uşaq Gənclər Komissiyası yaradılıb ki, bu da imkanlarımızı xeyli artırır. Bakıda federasiyanın nəzdində şahmat akademiyası fəaliyyətə başlayıb. Orada yeni istedadların üzə çıxması üçün ən güclü mütəxəssisləri cəlb etmişik. Federasiya rəhbərliyi gənclərimizin dünya reytinqində yüksək mövqelərə çatmaları üçün hər cür şərait yaradıb. Bu sahədə güclü potensial var və təbii ki, onu inkişaf etdirmək üçün müvafiq qurumlarla kompleks tədbirlər həyata keçirmək lazımdır.

***–Ölkəmizdə şahmatın tədrisi necə həyata keçirilir?***

–Uşaq-gənclər idman–şahmat məktəblərində, eləcə də orta ümumtəhsil müəssisələrində çalışan məşqçi-müəllimlərin peşəkarlığının aşağı olması bu gün çox böyük problemlər yaradır. Xatırlayıram ki, 2012-ci ildə Təhsil Nazirliyinin xətti ilə regional məşqçilərin səviyyəsini ölçmək üçün Gəncəyə ezam olunmuşduq. Onların təxminən 90 faizindən çoxunun şahmat bilikləri olmadığı meydana çıxdı. Bu yaxınlarda federasiyanın daha bir araşdırması zamanı Bakıda, eləcə də bölgələrdə şahmat müəllimlərinin əksəriyyətinin bu idman növündə bilik səviyyəsinin çox aşağı olması müşahidə edildi. Söhbət ondan gedir ki, bu sahədə köhnə sistemlə işləməkdə davam edirik.

Əvvəllər ayrıca şahmat məktəbləri fəaliyyət göstərirdi. Bu məktəblərin daha sonra uşaq-gənclər və idman məktəbləri ilə birləşməsi şahmatın xeyrinə olmadı. Vaxtilə şahmat üzrə gözəl mütəxəssis, məşqçi Tofiq İsmayılov Binəqədi Şahmat Məktəbinin inkişafı, orada istedadlı uşaqların yetişməsi üçün gözəl şərait yaratmışdı. Tədris müəssisələri birləşəndə bu məktəbi də bağladılar və o, işsiz qaldı. Hazırda, Tofiq İsmayılovun Türkiyədə yaratdığı klubda uşaq şahmatçılar yetişir.

***–Şahmatçı və mütəxəssislərimiz çox vaxt ölkəmizdə iş tapa bilmədiklərini deyirlər...***

–Şahmatçı və məşqçilərdən ingilis dilini yaxşı bilənlər, əsasən ABŞ-a köçürlər. Onların Amerikaya getmələrinin əsas səbəbi orta statistik şahmatçının hətta qiymət fərqini də nəzərə alsaq, müqayisədə 10 dəfə artıq qazanmasıdır. Biz elə bir şərait yaratmalıyıq ki, xaricə axın olmasın. Qadınlar arasında Azərbaycan çempionatının qalibi və mükafatçısı olmuş Nərmin Kazımova, qrossmeyster Misrətdin İsgəndərov və digər belə adlı-sanlı şahmatçıların xaricə köçməsi ciddi siqnaldır. Belə zəka sahiblərinin işlə təmin olunmasına xüsusi diqqət yetirmək lazımdır. Onlar xaricdə özlərinə uyğun iş tapa bilirlərsə, bu, ölkəmizdə niyə mümkün olmasın? Kiçik bir araşdırma aparmışam. Azərbaycanda oynayan hər 130 min şahmatçı arasından cəmi 1 beynəlxalq qrossmeyster, yaxud beynəlxalq usta yetişir. 1 qrossmeysterin yetişməsi üçün nə qədər enerji, vəsait, zamanın sərf olunduğunu düşünün. Onların çoxu şahmat məktəblərində işə düzələ bilmirlər. Səbəb də budur ki, yer yoxdur.

***–Belə çıxır ki, şahmat bilikləri olmayan müəllimlər yerləri tutduqları üçün daha layiqlilər kənarda qalır?***

–Kiçik bir eksperiment apardım. Adını çəkmək istəmədiyim iki məktəbdə işləmək arzusunda olduğumu bildirəndə yerlərin dolu olması cavabını aldım. Belə olan halda, mütəxəssis məcbur olub, xaricə üz tutur. Əsasən, qardaş Türkiyədə çoxlu məşqçilərimiz var. Hazırda orta ümumtəhsil, hətta məktəbəqədər müəssisələrdə də şahmat dərsləri tədris olunur. Belə dərsləri bu intellektual idman növünün sirrlərini bilən, onu sevən və uşaqlara bu məhəbbəti aşılaya bilənlər tədris etməlidirlər. Necə olur ki, ən çox qrossmeysterə malik olan Rusiyada şahmat mütəxəssislərimiz iş tapa bilirlər, bizdə yox. Türkiyənin hər yerində, hətta ən ucqar əyalətlərində belə məşqçilərimiz iş tapıb işləyirlər. Şahmatçıların xaricə üz tutması, baş məşqçi kimi məni də çox narahat edir. İlk növbədə məktəbdənkənar təhsil müəssisələrində bu şahmatçılar üçün yer ayrılmalı, onlara ən yüksək kateqoriya ilə maaş verilməlidir.

***–Bizdə olan məlumata görə, şahmatı tədris edən məşqçilərin sertifikatlaşdırılması ilə bağlı məsələyə baxılır. Bununla bağlı nə deyə bilərsiniz?***

– Azərbaycan Şahmat Federasiyasında məşqçilər komissiyası fəaliyyət göstərir ki, bu qurum müəllimlərin sertifikasiyadan keçmələri üçün testlər hazırlayır. Bu yolla müəllimlərin biliklərini müəyyən etmək olar. Bununla da, şahmatla heç bir əlaqəsi olmayan şəxslərin müəllim kimi çalışmasının qarşısını almaq olar. Bu yaxınlarda kişilər arasında Azərbaycan çempionatının gümüş mükafatçısı olmuş beynəlxalq usta, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını şahmat ixtisası üzrə bitirmiş gəncin uzun illər işə düzələ bilməməsi faktı ilə qarşılaşdım. Belə neqativ halların aradan qaldırılması üçün sertifikatlaşdırmanın mühüm rolu ola bilər. Yüksək biliyə malik şahmatçı və mütəxəssislərimizin gücündən maksimum istifadə edib bu idman növünün daha da kütləviləşməsini təmin etmək olar. Belə olarsa, daha çox sayda istedadlıların yetişməsinə və onların dünya reytinqində ilk sıralarda yer almasına nail ola bilərik.

***Leyla QURBANOVA***
***XQ***

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
**Sumqayıt Dövlət Universiteti**
2024-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya və dissertant hazırlığına qəbul elan edir

| İxtisasın şifri | İxtisasların adları | Fəlsəfə doktoru proqramı üzrə: doktorantura: Cəmi | doktorantura: Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | doktorantura: Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: qiyabi | dissertantura: Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
|---|---|---|---|---|---|
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | |
| 2211.01 | Bərk cismlər fizikası | 1 | 1 | | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi (sahələr üzrə) | 1 | | 1 | |
| 5312.01 | Sənaye iqtisadiyyatı | 1 | | 1 | |
| 5503.01 | Vətən tarixi | 1 | | 1 | |
| 5719.01 | Azərbaycan ədəbiyyatı | | | | 1 |
| **Cəmi** | | **5** | **1** | **4** | **1** |

**Qəbul üçün** aşağıdakı sənədlər təqdim edil**məlidir:**

1. Rektorun adına ərizə.
2. Kadrların şəxsi – qeydiyyat vərəqi.
3. Tərcümeyi hal.
4. 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə).
5. İş yerindən xasiyyətnamə.
6. Əmək kitabçasından çıxarış.
7. Çap olunmuş elmi işlərin siyahısı.
8. Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və diploma əlavənin (bakalavr və magistratura təhsil pillələri üzrə) müvafiq qaydalarda təsdiq edilmiş surətləri ( xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil barədə sənədlərin tanınması haqqında şəhadətnamə).
9. Şəxsiyyəti təsdiq edən sənədin surəti.

Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin **portal.edu.az** sayıtna daxil olmaqla orada “Ali və orta ixtisas təhsil müəssisələrinin tələbə qəbulu və qeydiyyatı” xidmətini seçərək, təlimatlara uyğun qeydiyyatdan keçdikdən sonra sənədlərin kağız variantını şənbə və bazar günlərindən başqa hər gün səhər saat 9.00-dan 17.00-dək Sumqayıt Dövlət Universitetinin Doktorantura və magistratura şöbəsinə təqdim etməlidirlər.

**Sənəd qəbulu üçün son tarix 15 may 2024-cü ildir.**

Xarici dil imtahanının 9 iyun, fəlsəfə fənni üzrə imtahanın 2, 3 və 4 sentyabr, ixtisas imtahanlarının isə 9, 10 və 11 sentyabr 2024-cü il tarixlərdə keçirilməsi nəzərdə tutulmuşdur.

**Telefon- (018)642-12-63.**
**Ünvan-Sumqayıt şəhəri, 43-cü məhəllə, Əsas tədris binası, 243-cü otaq.**

**Rektorluq**

# AFFA 5 klubu cərimələyib

**AFFA-nın İntizam Komitəsinin növbəti iclasında Azərbaycan Premyer Liqasının XXX turunun matçlarında qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.**




“Zirə” ilə oyunda “Sumqayıt”ın azarkeşləri pirotexniki vasitədən istifadə etdiyinə görə klub 1500 manat cərimələnib. Qarşılaşma başa çatdıqdan sonra meydançaya kənar şəxslərin daxil olması sumqayıtlıların daha 800 manat cərimələnməsinə səbəb olub.

“Turan Tovuz”la qarşılaşmada “Qəbələ”nin 4 futbolçusunun sarı vərəqə alması klubu 700 manat xərcə salıb. Oyunun fasiləsində “Qəbələ”-nin meneceri Səbuhi Səfiyarlı hakimləri təhqir etdiyinə görə 3 oyun şərti olmaqla 5 oyun cəzalanıb, klub 4000 manat cərimə edilib, sınaq müddəti 3 ay təyin edilib. 5 futbolçusu sarı vərəqə alan Tovuz təmsilçisi 700 manat ödəyəcək.

“Kəpəz”lə matçda “Səbail”in futbolçusu Adi Mehremiç hakimi təhqir etdiyi üçün birbaşa qırmızı vərəqə aldığına görə 2 oyun şərti olmaqla 4 oyun cəzalanıb, klub 3 min manat ziyana düşüb. Sınaq müddəti 3 ay təyin edilib.

“Qarabağ”la oyunda “Sabah”ın 5 futbolçusu sarı vərəqə aldığı üçün 700 manat cərimələnib. Görüş başa çatdıqdan sonra kənar şəxslərin daxil olması paytaxt təmsilçisini daha 800 manat ziyana salıb.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti
İnformasiya Texnologiyaları ( İT ) sahəsinin müstəqil auditi xidmətlərinin satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il aprelin 25-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1132.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

# Qitə döyüşünə qadınlar gedib

***Bu gün Yunanıstanın Rodos adasında qadın şahmatçılar arasında şəxsi Avropa çempionatına start verilir.***

Qitə çempionatında Azərbaycanı Günay Məmmədzadə, Gövhər Beydullayeva, Ülviyyə Fətəliyeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Səbinə İbrahimova, Ayan Allahverdiyeva, Ləman Hacıyeva, Nərmin Abdinova və Səbinə Rzalı təmsil edəcəklər.

10 turdan ibarət Avropa çempionatına aprelin 29-da yekun vurulacaq.

Xatırladaq ki, 2022-ci ildə Günay Məmmədzadə Avropa çempionatında gümüş, Ülviyyə Fətəliyeva isə bürünc medala layiq görülüb.




***L.SABİRQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 78 (30482) 19 aprel 2024-cü il, cümə



# Qoyma əl əsaya yetsin...

## Sağlamlığa biganəliyin bəlası

**Deyirlər ki, N. Nərimanov həkim işləyən vaxt qəbuluna gələn müxtəlif millətlərin nümayəndələri arasında azərbaycanlıları birinci qəbul edirmiş. Digər millətlərin nümayəndələri onun millətçiliyi barədə məhkəməyə şikayət edəndə belə cavab verib: Ay yoldaş hakim, illərin təcrübəsindən bilirəm ki, yəhudilər müayinədən keçmək üçün, ruslar yüngülvari ağrılar zamanı, azərbaycanlılar isə son nəfəsdə həkimə gəlirlər. Ona görə də mən azərbaycanlıları növbədənkənar qəbul edirəm...**

Yaşadığım binanın həyətində hər səhər əlində əsa olan ixtiyar saatlarla o baş-bu başa gedib gəlir. Son günlər qonşu binaların həyətində də əlinə əsa götürən xəstələrin gəzib dolaşdığını görürəm. Dəfələrlə fikir vermişəm, onların hər biri səhərlər eyni saatda həyətə enir, hər gün müəyyən olunmuş vaxtda hərəkətləri çox dəqiqliklə yerinə yetirirlər. Onların yanından biganəliklə adlayıb işə gedən kim, oturacaqlarda oturub siqaret tüstülədən, dükan-bazardan şərab şüşələri ilə qayıdan kim...

Yəqin ki, nə vaxtsa bu gün həyətdə əlində əsa o baş-bu baş gedib gələn, itirilmiş sağlamlığını bərpa etmək üçün həkim göstərişlərinə dəqiqliklə əməl edən qocaların yanından biganəliklə ötüb-keçənlər də nə vaxtsa oxşar aqibəti yaşayacaqlar. Təəssüf ki, xərçəng və iflic, insult və infarkt, şəkər və qan təzyiqi sağlamlığın "qapısını" döyməyənə qədər onun fərqində olmuruq.

Səhərlər beş-on dəqiqə də olsa, idman hərəkətləti yerinə yetirmirik, dağa qalxıb bulaq suyu içmirik, dənizə sahilində quma girmirik, palçıq vannası qəbul eləmirik, at minmirik, velosiped sürmürük, qida rejimini gözləmirik. Sanatoriyaya, müalicə mərkəzlərinə getmirik, pəhriz saxlamırıq, həkim məsləhətinə əməl eləmirik, sonra da sağlamlığın yerində olmadığından gileylənirik. Axı orqanizm hüceyrədən təşkil olunub. Dağ deyil, daş deyil ki, hər tərəfdən əlinə çəkic, düsər götürüb onu oyasan. Ona görə də lətifə kimi çıxmasın, bizim sağlamlıq arzumuz lotereya almayan adamın maşın udmaq istəyinə bənzəyir...

Məşhur bir aforizmdə deyilir: Cavanlıqda qaçmasan, qocalıqda həkimlərin arxasınca qaçmalı olacaqsan. El arasında da haqlı olaraq deyilir ki, sağlamlığı cavanlıqdan, paltarı təzə vaxtından qorumaq lazımdır. Qəribədir ki, sağlam və gümrah vaxtı bunun fərqində o qədər də olmursan, ağrı-acılar başlayanda isə əl-ayağa düşürsən. Məşhur ingilis yazıçısı Bernard Şou ömrünün ixtiyar çağlarında küçə ilə əyilə-əyilə gedirmiş. Bir gənc ona "nə axtarırsan, qoca?" deyə sual verəndə böyük yazıçı "gəncliyimi axtarıram, oğul", – deyə cavab verir.

Sağlamlığın da qayğısına gənclik illərində - bel bükülüb diş tökülməmiş, əl əsaya yetməmiş qalmaq daha yaxşı olmazmı?

Əgər ona dünyada ən şirin, ən əvəzolunmaz nemət deyiriksə...

*Süleyman QARADAĞLI*

# "San Xose" gəmisinin 3 əsrlik sirri

## Atlantikin dibində 17 milyard dollar yatıb

**Bugünlərdə Qərb mətbuatı belə bir xəbər paylaşdı: "1708-ci ildə Kolumbiya sahillərində ingilislərlə döyüş zamanı faciəli şəkildə batan nəhəng ispan gəmisi "San Xose" dənizin dibindən çıxarıla bilər". Kolumbiya prezidenti Qustavo Petro isə 2026-cı ilədək yəni, prezidentlik müddəti bitmədən gəminin qalıqlarını çıxartdırmaq niyyətindədir. İspaniya isə sirli qalleonun onların mədəni irsi olduğunu iddia edir. "San Xose"nin qalıqlarını aşkar edən ABŞ şirkəti öz xidmətinə görə sulara qərq olan ağlasığmaz sərvətdən pay tələb edir. Bəli, "San Xose" gəmisinə görə baş verən bu qalmaqalın çox ciddi bir səbəbi var: 316 il bundan öncə dənizin dibinə qərq olan gəminin indiki dəyəri 17 milyard dollara bərabər qızıl, gümüş və zümrüd yükləri ilə birgə batmışdı.**

### İtirilmiş ən böyük xəzinə

"San Xose" adlı batmış gəmi barədə ilk rəsmi məlumat 2015-ci ildə Kolumbiya tərəfindən Karib dənizində Kartagena yaxınlığında bir qalleonun tapılması ilə mətbuata çıxıb. Lakin bu xəbər dəniz arxeoloqları və xəzinə ovçuları üçün yenilik deyildi. Hələ 1980-ci illərin əvvəllərində batmış obyektlərin bərpası üzrə ixtisaslaşmış bir şirkət "San Xose" barədə araşdırma aparmağa başlamışdı. Müəmmalı gəmi haqqında elə o vaxtdan bu günə qədər davam edən hüquqi mübahisələr başladı.





Hələlik aparılan tədqiqatlar zamanı qaleondakı yükün inventarını əks etdirən hər hansı sənəd aşkar edilməyib. ABŞ şirkəti "Sea Search Armada" gəmidə batan sərvəti 17 milyard dollar dəyərində qiymətləndirib. Şirkət gəminin yerini dəqiqləşdirdiyinə görə Kolumbiya hökumətindən bu məbləğin yarısını tələb edir. BMT-nin Beynəlxalq Ticarət Hüququ Komissiyasına Kolumbiyanın təqdim etdiyi 96 səhifəlik hesabatında "San Xose" "bəşər tarixində itirilmiş ən böyük xəzinə" adlandırılıb.

"San Xose" dəniz səviyyəsindən 610 metrdən çox dərinliyə qərq olub. Bəzi mütəxəssislərin bildirdiyinə görə isə xəzinənin çökdüyü dərinlik 945 metrə qədərdir. Sözügedən dərinlik isə dalğıcların enə biləcəyi maksimal dərinlikdən çoxdur. Bu da qaleonu birbaşa tədqiqat üçün əlçatmaz edir. 2015-ci ildə Kolumbiya donanması sualtı qayıqlar vasitəsilə gəminin batdığı yeri tədqiq edib. O vaxtdan bəri Kolumbiya hökuməti həmin yerin xəritəsini gizli saxlayır. Son zamanlar "San Xose" ilə bağlı söz-söhbət aktuallaşıb. Hazırda Kolumbiya prezidenti Qustavo Petro xəzinənin dənizin dərinliklərindən çıxarılması üçün bu layihəyə kommersiya qurumlarını cəlb etmək imkanlarını nəzərdən keçirir. Yəqin ki bu işə dərin dəniz əməliyyatlarında yüksək təcrübəsi olan ABŞ və Avropa şirkətləri cəlb olunacaq.

Bütün bunlar məsələnin hüquqi və iqtisadi tərəfləridir. Bu hadisəyə etik, tarixi prizmadan yanaşan bir çox tədqiqatçlar gəminin dənizdən çıxarılmasının yanlış addım olduğunu düşünürlər. Texas A&M Universitetinin Dəniz arxeologiyası kafedrasının müəllimi Petr Boyakovski məsələni belə şərh edir:

"Əlbəttə, xəzinə ideyası cazibədardır, lakin bu cür ideyalar arxeologiya elminə bir zərbədir. Əgər məqsəd yalnız qızıl əldə etməkdən ibarətdirsə, obyekti araşdırmaq imkanı itiriləcək".

Gəminin içindəkilərin təxmini dəyəri o qədər heyrətləndiricidir ki, başqa vacib detallar ört-basdır edilir. Petr Boyakovskinin fikrincə, heç kim "San Xose"ni dənizdən çıxarmağın nə qədər böyük məbləğə başa gələcəyindən danışmır. Onun hesablamalarına görə, təkcə axtarış gəmisinin icarəsi və qaldırıcı avadanlıqların istifadəsi gündə yüz minlərlə dollara başa gələcək.

### 570 nəfərin əbədi yatağı

2023-cü ilin noyabrında Kolumbiyanın bir sıra universitetlərindən olan bir qrup arxeoloq və digər sahələrin elm adamları ölkənin mədəniyyət naziri Xuan David Korreaya məktub göndərərək onu gəminin bərpasını maddi qazanc mənbəyinə yox, sırf elmi layihəyə çevirməyə çağırıblar. Məktubda qeyd olunur ki, həmin tarixi qəza zamanı "San Xose"nin göyərtəsində olan 570 nəfərin ölümü gəmini onların məzarlığı kimi hüznlü bir xatirə məkanına çevirib.

Kolumbiya mediası prezident Petronun ötən il "San-Xose" sərvətinin bir hissəsini Boliviyanın yerli əhalisinə verməyə hazır olduğunu bəyan edib. Şərhçilərin fikrincə, xəzinənin əsil sahibi müstəmləkəçilərin istismar etdiyi yerli əhalidir və xəzinədən onlara pay ayırmaq vicdanlı qərardır. Lakin "San Xose"nin qaldırılmasında iştirak edəcək podratçı şirkət də öz payını istəyəcək. Bir gəminin qızılla dolu yükü isə dərhal banka yerləşdirilə biləcək qədər asan məsələ deyil.

Hərbi gəmi olan "San Xose" 2001-ci ildən UNESCO-nun Sualtı Mədəni İrsin Qorunması Konvensiyasına əsasən, İspaniyanın mülkiyyəti hesab olunur. Lakin Kolumbiya bu konvensiyanı imzalamayıb. Gəmidəki yüklərin böyük hissəsinin Peru və Boliviya kimi ölkələrdən daşındığı məlum olsa da, gəmi Kolumbiya sularında batdığı üçün bu ölkə "San Xose"ni öz irsinin bir hissəsi hesab etməkdə israrlıdır.

**Murad KÖHNƏQALA**



# Dubaya 1 sutka yağış yağıb

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində son 75 ilin ən güclü yağışları daşqınlara səbəb olub. Ölkəyə 24 saat ərzində, təxminən, 1,5 illik yağış yağıb. Buna səbəb digər hava sistemlərinin daxil olmasını əngəlləyən "qapalı aşağı təzyiqli hava sistemi"dir.**

Məlumdur ki, BƏƏ quraqlıq ərazidə yerləşir. Burada ildə orta hesabla 100 millimetrdən az yağıntı düşməsinə baxmayaraq, vaxtaşırı güclü leysanlar yağır. Bir müddət əvvəl Dubaydan 100 kilometr uzaqlıqda yerləşən Əl-Ayn şəhərində isə 24 saat ərzində, təxminən, 256 millimetr yağış yağıb.

Alimlərin son araşdırmalarına görə, dünyada qlobal istiləşmə gücləndikcə BƏƏ-nin böyük hissəsində illik yağıntılar əsrin sonuna qədər 30 faiz arta bilər.

İngiltərəli professor Friederike Otto bu barədə belə bir fikir söyləyib: "İnsanlar neft, qaz və kömür yandırmağa davam etdikcə iqlim istiləşməyə doğru gedəcək, yağıntılar daha da intensivləşəcək. Bu isə kütləvi daşqınlara və ölüm sayının artmasına səbəb ola bilər".

*FİDAN*
*XQ*

# "Telegram" əl izlərini oxuyacaq

**"TON Society" süni intellekt həllərinin işlənib hazırlanmasında ixtisaslaşan "HumanCode" şirkəti ilə birlikdə "Telegram" istifadəçiləri üçün biometrik autentifikasiyanı inteqrasiya edir. Bu əməkdaşlığın əsas məqsədi innovativ biometrik yoxlama sisteminin yaradılması və tətbiqidir.**



Yenilik "Telegram" istifadəçilərinə ovuc izlərini skan edərək şəxsiyyətlərini təsdiq etməyə imkan verəcək. Bu təşəbbüs təkcə identifikasiya üçün deyil, həm də botlarla mübarizə üçün hazırlanır.

Bildirilir ki, texnologiya kriptovalyutaların "Airdrop" və əməliyyat təhlili kimi yüksək orijinallıq və məxfilik tələb edən əməliyyatlarda əsas rol oynayacaq.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

SAĞLAMLIQ

# Güc-qüvvət iksiri



**Bədəndə güc və enerjini bərpa etmək üçün müəyyən qidaları mütləq qəbul etmək lazımdır. Belə qidalara ispanaq, avokado və çia toxumları daxildir. Bu fikri Rusiyanın pəhriz həkimləri jurnalistlərə açıqlamalarında deyiblər.**

Bildiriblər ki, ispanaq immunitet sistemini gücləndirir və orqanizmin enerji istehsalına kömək edir. Tərkibində çoxlu dəmir və zülal var, buna görə də uzun qış aylarından sonra bədən zəifləmişsə, mütəxəssislər ona xüsusi diqqət yetirməyi məsləhət görürlər.

Həmçinin güc çatışmazlığı olan insanın qida rasionuna avokado daxil edilməlidir. O özündə enerji və sağlamlığı dəstəkləmək üçün kalium, vitaminlər, minerallar və lifləri ehtiva edir.

Orqanizmin enerji səviyyəsini artırmağın başqa bir yolu çia toxumu yeməkdir. Onlar da uzun müddət toxluq hissini təmin etdiyindən arıqlamaq istəyənlər üçün ideal məhsul hesab edilir.

Mütəxəssislər, həmçinin gücü və enerjini bərpa etmək üçün səhərlər acqarına bir stəkan limonlu su içməyi və tərkibində ən azı 70 faiz kakao olan yüksək keyfiyyətli tünd şokolad qəbul etməyi məsləhət görürlər. Bu delikatesin tərkibində maddələr mübadiləsini canlandıran və stimullaşdıran teobromin və kofein var.

*Z.HÜSEYNLİ*
*XQ*

# Qırğızlar "TikTok"a girə bilmirlər

**Qırğızıstanda Çinin "TikTok" sosial media platformasına giriş məhdudlaşdırılıb. Qərar artıq dünəndən qüvvəyə minib.**




Məlumata görə, Qırğızıstanda istifadəçilər "Google", "Opera" və "Safari" kimi brauzerlər vasitəsilə sosial media platforması "TikTok" tətbiqinə daxil ola bilmirlər.

Xəbərdə, həmçinin deyilir ki, qərar şəbəkənin uşaqların əxlaqi tərbiyəsinə mənfi təsiri ilə əlaqələndirilib.

*XQ*

# Aranda yağmursuz və dumanlı, dağlarda yağış



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 19-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq.**

Əsasən yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 12-16°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi ərazilərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 25-30°, dağlarda gecə 5-10°, gündüz 18-23° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

# Gözəllər güllərdən gözəl...



*Foto E.AĞALARINDIR*

## ALLAH RƏHMƏT ELƏSİN

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi DİM Direktorlar Şurasının üzvü, ADA Universitetinin prorektoru Fariz İsmayılzadəyə əzizi

**HADI RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3881
SİFARİŞ 825
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00